Xalqın qəzeti!

# Xalq qəzeti

№ 249 (30943) 25 noyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## V.Ə.Cəfərovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Əziz oğlu Cəfərov (Vahid Əziz) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2025-ci il**

# Milli əczaçılıq sənayesi genişlənir

## Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov və baş direktor Kamran Həsənov dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

Beynəlxalq standartlara uyğun layihələndirilən müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. İstehsal olunan məhsullar həm daxili bazara çıxarılacaq, həm də gələcəkdə ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb.

*(ardı 2-ci səhifədə)*

# Avrasiyanın yeni təhlükəsizlik və rifah arxitekturası

*Azərbaycanın tarixi qələbəsinin diplomatik çəkisi*



Onilliklər boyunca Sovet imperiyasının süni sərhədləri ilə bir-birindən təcrid olunmuş, fərqli talelər yaşamağa məhkum edilmiş xalqlar tarixi yaddaşın və ortaq tale şüurunun diktəsi ilə möhtəşəm birləşmə prosesinə başlayıblar. Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasındakı münasibətlər qarşılıqlı maraqlara söykənən, dərin strateji məzmun kəsb edən və bütün qitənin gələcək arxitekturasına təsir etməyə qadir hərtərəfli inteqrasiya mərhələsinə qədəm qoyub. Şahid olduğumuz yaxınlaşma ötəri siyasi konyunkturun məhsulu və ya sadəcə iqtisadi praqmatizmin nəticəsi deyil. Bu proses, əslində, oxşar postsovet keçmişinin ağrılı dərslərindən, suverenliyin qorunması naminə aparılan çətin mübarizədən və qlobal nizamın yenidən formalaşdığı şəraitdə ortaq gələcək qurmaq zərurətindən doğan, soyuqqanlı şəkildə hesablanmış strateji seçimdir.

*(ardı 3-cü səhifədə)*

## Zirzəmidə yuva salmış "cin" şüşədən necə çıxıb?



Səhifə ⇨ 8

## "Sülh şüarları" "Sülh körpüsü"ndə



Səhifə ⇨ 5

## Hindistanın Yunanıstan–Kipr–Ermənistan xəttində fəallığı




Səhifə ⇨ 4

# Sovetlərin "Orta Asiya"sından çağdaş Mərkəzi Asiyaya



**Mərkəzi Asiya uzun illər beynəlxalq münasibətlərdə daha çox "postsovet periferiyası" kimi qəbul olunurdu. Moskvanın müəyyənləşdirici təsiri, daxili iqtisadi asılılıqlar, sərhəd problemləri və institusional zəiflik regionun daxilində koordinasiyalı siyasi iradənin formalaşmasına mane olurdu. Lakin son 10 ildə bu mənzərə sürətlə dəyişir: əvvəllər "Orta Asiya" anlayışı sovet mirasının bir coğrafi təsviri idisə, indi artıq "birləşmiş Mərkəzi Asiya" öz regional kimliyi və strateji davranış modeli ilə meydana çıxır.**

Ən diqqətçəkən yenilik isə C6 formatıdır – Mərkəzi Asiya ölkələri və Azərbaycanın formalaşdırdığı yeni subregional arxitektura. Yeni birlik həm tarixi, həm siyasi, həm də iqtisadi baxımdan regionun ən mühüm transformasiya mərhələsini ifadə edir.

*(ardı 3-cü səhifədə)*

## "Freedom House"u lobbiçilik yönləndirir




Səhifə ⇨ 6

## Vaşinqtonun güzəştli sülh təşəbbüsü



Səhifə ⇨ 15

# Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında



(əvvəli 1-ci səhifədə)

Dəyəri 74 milyon manat olan layihə özəl investisiya hesabına həyata keçirilib. Şirkət İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına idxal olunan avadanlıqlara görə 6,5 milyon manat güzəşt əldə edib.

Müəssisənin fəaliyyətə başlaması Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi kimi qiymətləndirilir. Burada xammaldan hazır məhsula qədər dərman preparatlarının istehsalının bütün mərhələləri həyata keçiriləcək. Yeni müəssisə ölkəmizdə əczaçılıq sənayesinin inkişafına və yerli istehsalın güclənməsinə töhfə verəcək. Yerli və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli məhsulların istehsalı ölkəmizin ixrac imkanlarını da genişləndirəcək.




Müəssisə, eyni zamanda, əczaçılıq sahəsində peşəkar kadrların hazırlanması və




əməli bacarıqların inkişafı üçün baza rolunu oynayacaq. “Scandens Pharmaceutical Industries Ltd” MMC, Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti və “Panon Pharma” şirkəti arasında imzalanmış dördtərəfli Memorandum çərçivəsində burada əczaçı və qeyri-əczaçı ixtisasları üzrə qısa və uzunmüddətli təlim və təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Müəssisənin damında ümumi gücü 450 kVt/saat olan 710 ədəd Günəş paneli quraşdırılıb ki, enerji sərfiyyatının, təxminən, 40 faizi bu panellər vasitəsilə ödənəcək.



***AZƏRTAC***

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına

**Hörmətli forum iştirakçıları!**

Sizi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunda ürəkdən salamlayıram.

Türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. İlk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu bu istiqamətdə atılmış mühüm addımdır.

Regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, tərəqqi ideyalarına sadiq olan dost və qardaş xalqlarımızı ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsini şərtləndirir.

Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir.

Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır.

2026-cı ildə 100 illiyi keçiriləcək Birinci Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir.

Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər.

Əminəm ki, forum zamanı quracağınız əməkdaşlıq əlaqələri Türk dünyasında həmrəyliyin, birliyin və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizi bir daha Azərbaycanda salamlayır, forumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 noyabr 2025-ci il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il oktyabrın 3-də Ankara şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **1** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **2** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **3, 17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **4** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **5, 12, 26** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **9** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **10** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **18** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **19** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **22** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | **23** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | **24** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **26** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **26** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **26** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu** | **3** |
| **Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu** | **4** |
| **İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı** | **5** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu** | **30** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu** | **9, 23** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu** | **10, 24** |
| **Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu** | **11, 25** |
| **Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu** | **12, 26** |
| **Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu** | **15** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu** | **16** |
| **Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu** | **17** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu** | **18, 29** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu** | **19** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu** | **8, 22** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.**

# Avrasiyanın yeni təhlükəsizlik və rifah arxitekturası



*(əvvəli 1-ci səhifədə)*

Suverenliklərini möhkəmləndirmək, ənənəvi böyük güclərdən asılılığı azaltmaq və qlobal səhnədə vahid mövqedən çıxış etmək üçün tarixi fürsət əldə edən dövlətlər Avrasiyanın geosiyasi tale ortaqlığını yenidən formalaşdırırlar. Qurulmaqda olan möhtəşəm inteqrasiya binasının möhkəm təməlini üç əsas və bir-birini tamamlayan ana xətt təşkil edir: enerji təhləkəsizliyi, transkontinental nəqliyyat-dəhliz siyasətləri və çoxşaxəli iqtisadi inteqrasiya. Bu strateji üçbucağın mərkəzində həlledici qovşaq nöqtəsində isə coğrafi mövqeyi, Zəfərlə möhkəmlənmiş geosiyasi çəkisi və uzaqgörən liderliyi ilə məhz Azərbaycan dayanır.

Bəli, Bakı Mərkəzi Asiyanın Qərbə açılan etibarlı qapısı, enerji və nəqliyyat strategiyalarının reallaşdığı "strateji mərkəz" statusunu qazanaraq bütün Avrasiya üçün yeni inkişaf, əməkdaşlıq üfüqləri açır. Ermənistanın tarixi prosesə qoşulması isə yalnız və yalnız regionda yaranmış yeni reallıqları qəbul etməsi, beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusən ərazi bütövlüyü, suverenliyə hörmət şərtlərinə qeyd-şərtsiz əməl etməsindən asılı olacaq.

İnteqrasiya prosesini şərtləndirən əsas hərəkətverici qüvvə qlobal təchizat zəncirlərinin yenidən qurulduğu, dünyanın çoxqütblü nizama keçdiyi və hər dövlətin iqtisadi suverenliyini təmin etmək üçün yeni yollar axtardığı dəyişikliklər dövrüdür. Onilliklər boyunca Mərkəzi Asiya respublikaları üçün ənənəvi iqtisadi və logistik xətlər əsasən şimal qonşusunun nəzarətindən keçirdi. Bu vəziyyət region ölkələrinin dünya bazarlarına çıxışını məhdudlaşdırır, onların xarici siyasət manevrlərini çətinləşdirir və iqtisadiyyatlarını həssas vəziyyətdə saxlayırdı. Qlobal nizamın dəyişməsi şimal marşrutunun etibarlılığını ciddi şübhə altına aldı və onunla bağlı riskləri kəskin şəkildə artırdı. Həmin vəziyyət okeanlara birbaşa çıxışı olmayan Mərkəzi Asiya dövlətlərini iqtisadi həyat proseslərini şaxələndirmək, suverenliklərini möhkəmləndirmək və dünyaya inteqrasiya üçün etibarlı alternativlər axtarmaq kimi kəskin zərurət qarşısında qoydu. Çinin "Bir Kəmər Bir Yol" təşəbbüsü müəyyən imkanlar yaratsa da, eyni zamanda "borc tələsi" diplomatiyası və həddən artıq iqtisadi asılılıq ilə bağlı narahatlıqları da artırdı. Məhz həmin zamanda Cənubi Qafqazda suverenliyini tam bərpa etmiş, güclü iqtisadiyyat və müasir infrastruktura malik, balanslı xarici siyasət yürüdən dövlətimiz Mərkəzi Asiya üçün ən məntiqli strateji tərəfdaş kimi ön plana çıxdı.

Azərbaycanın təklif etdiyi tərəfdaşlıq modeli böyük güclərin patronajlığından (himayəsi) fərqli olaraq, bərabərhüquqluluq, qarşılıqlı hörmət və ortaq post-sovet keçmişinin problemlərini dərindən anlamaq prinsiplərinə söykənirdi. Ölkəmizin 44 günlük Vətən müharibəsindəki Zəfəri isə proses üçün həlledici psixoloji, siyasi təkan rolunu oynadı. Uğur hekayəsi suverenliklərini möhkəmləndirməyə çalışan Mərkəzi Asiya respublikalarının güclü ilham mənbəyinə və əsas inkişaf modelinə çevrildi.

İnteqrasiyanın ən mühüm sütunu enerji təhlükəsizliyi sahəsindəki əməkdaşlıqdır. Ölkəmiz hələ ötən əsrin sonlarından etibarən Ulu öndər Heydər Əliyevin müəllifi olduğu uzaqgörən neft strategiyası sayəsində Xəzər dənizinin enerji potensialını Qərbə və dünya bazarlarına çıxaran etibarlı tərəfdaş kimi özünü təsdiq etmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və son illərdə reallaşdırılan Cənub Qaz Dəhlizi (TANAP və TAP kəmərləri ilə birlikdə), sadəcə iqtisadi layihələr olmayıb, Avropanın enerji xəritəsini dəyişdirən, Rusiya qazından asılılığı azaldan və regionun geosiyasi arxitekturasını yenidən formalaşdıran strateji əhəmiyyətli təşəbbüslər idi. Azərbaycan bu layihələri vaxtında və uğurla həyata keçirməklə, həm də bütün Xəzər hövzəsi üçün yeni imkanlar pəncərəsi açdı.

Qazaxıstan və Türkmənistan nəhəng karbohidrogen ehtiyatlarına malik olmalarına baxmayaraq, coğrafi mövqelərinə görə həmin resursları Avropa bazarlarına çıxarmaqda daim çətinliklərlə üzləşiblər. Onların ənənəvi ixrac marşrutları əsasən şimaldan, yəni Rusiyadan keçirdi ki, həmin vəziyyət həm iqtisadi, həm də siyasi asılılıq yaradırdı. Qərb dünyasının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar və Moskvanın enerji resurslarını siyasi təzyiq vasitəsi kimi istifadə etməsi şimal marşrutunun etibarlılığını tamamilə sarsıtdı. Bu məsələyə görə Qazaxıstan və Türkmənistan üçün Avropaya çıxış strategiyalarını şaxələndirmək həyati zərurətə çevrildi. Axtarışların yeganə məntiqli və real cavabı isə Azərbaycandan keçən yoldur.

Ölkəmiz Mərkəzi Asiyanın enerji resurslarını Qərbə nəql etmək üçün hazır, təhlükəsiz və siyasi cəhətdən neytral dəhliz təklif edir. Artıq Qazaxıstan neftinin Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə nəqli həcminin artırılması istiqamətində konkret addımlar atılır. Daha strateji hədəf isə onilliklərdir müzakirə olunan, lakin geosiyasi səbəblərdən reallaşmayan Transxəzər Qaz Kəməri layihəsinin həyata keçirilməsidir. Hazırkı beynəlxalq şərait layihənin icrası üçün heç vaxt olmadığı qədər əlverişli zəmin yaradır və Avropa İttifaqı da təşəbbüsdə maraqlı olduğunu açıq şəkildə bəyan edir. Azərbaycan Cənub Qaz Dəhlizi infrastrukturu ilə Trans–Xəzər layihəsinin Avropa hissəsi üçün hazır platforma təqdim edir.

Lakin Azərbaycan–Mərkəzi Asiya enerji tərəfdaşlığı təkcə karbohidrogenlərlə məhdudlaşmır. Bakı qlobal iqlim dəyişmələri ilə mübarizədə və "yaşıl enerji"yə keçid prosesində də regional lider rolunu öz üzərinə götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng külək enerjisi potensialının reallaşdırılması istiqamətində dünyanın aparıcı şirkətləri ilə imzalanan müqavilələr Azərbaycanın gələcəyə baxışının aydın göstəricisidir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış, "yaşıl enerji"nin Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropaya ixracını nəzərdə tutan layihə isə strategiyanın beynəlxalq miqyasda təcəssümüdür. Nəzərə alaq ki, layihə Mərkəzi Asiya üçün də tamamilə yeni üfüqlər açır. Qazaxıstan və Özbəkistan kimi ölkələr nəhəng günəş, külək enerjisi potensialına malikdirlər. Azərbaycanın yaratdığı "yaşıl enerji" dəhlizi gələcəkdə Mərkəzi Asiyada istehsal olunacaq bərpaolunan enerjinin də Xəzər üzərindən keçməklə Avropa bazarlarına çatdırılması üçün unikal imkan yaradır.

İnteqrasiyanın enerji təhlükəsizliyi qədər əhəmiyyətli sütunu isə transkontinental nəqliyyat-dəhliz siyasətidir. Enerji dəhlizlərinin təhlükəsizliyi və səmərəliliyi etibarlı, şaxələndirilmiş nəqliyyat arteriyaları olmadan mümkün deyildir. Məhz bu sahədə Azərbaycan-Mərkəzi Asiya tərəfdaşlığı son illərdə misli görünməmiş inkişafa nail olub. Qlobal geosiyasi rəqabətin kəskinləşməsi fonunda Çindən Avropaya uzanan ənənəvi nəqliyyat marşrutları ciddi risklərlə üzləşib. Şimal marşrutu Rusiya üzərindən keçdiyi üçün siyasi cəhətdən sanksiyalara həssasdır. Cənub marşrutu isə okeanlar vasitəsilə həyata keçirilir ki, həmin yol həm uzun, həm də Yaxın Şərqdəki qeyri-sabitliklərə görə təhlükəlidir. Bu şəraitdə Xəzər dənizindən, Azərbaycandan və Gürcüstandan keçərək Türkiyə vasitəsilə Avropaya çatan Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - TİTR) ən qısa, ən təhlükəsiz və ən səmərəli alternativ kimi ön plana çıxıb. Azərbaycan illərdir həmin dəhlizin inkişafına məqsədyönlü şəkildə sərmayə qoyub. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Ələt qəsəbəsində tikilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, ölkə daxilində avtomobil və dəmir yolu şəbəkəsinin tam modernləşdirilməsi kimi addımlar rəsmi Bakının strateji uzaqgörənliyinin nəticəsidir.

44 günlük Vətən müharibəsindəki Zəfər Orta Dəhlizin potensialını reallaşdırmaq üçün unikal imkanlar yaratdı. İşğaldan azad edilmiş ərazilərdə sürətlə qurulan müasir infrastruktur, o cümlədən yeni dəmir və avtomobil yolları, beynəlxalq hava limanları, regionun tranzit xəritəsini kökündən dəyişir. Prosesin pik nöqtəsi isə Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsini bərpa etməyəcək. Dəhliz bütün Orta Dəhlizin coğrafiyasını optimallaşdıracaq, marşrutu daha da qısaldacaq və onun rəqabət qabiliyyətini kəskin şəkildə artıracaq. Məhz həmin səbəbdən Zəngəzur dəhlizi bütün Mərkəzi Asiya ölkələrinin, Çinin, Türkiyənin və Avropanın ortaq marağındadır. Ermənistanın həmin layihənin reallaşmasına mane olmaq cəhdləri, əslində İrəvanın bütün regionla və böyük güclərin iqtisadi maraqları ilə toqquşması deməkdir. Ölkənin inteqrasiya proseslərinə qoşulması üçün isə şərtlər aydındır: sülh müqaviləsini imzalamaq, qonşularının ərazi bütövlüyünü tanımaq və bütün kommunikasiyaların açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək. Əks təqdirdə, İrəvan özünü regionda formalaşan yeni əməkdaşlıq və rifah məkanından tamamilə təcrid etmiş olacaq və tarixi fürsəti əldən verəcək. İrəvanda düşünməlidirlər ki, Azərbaycanın və Mərkəzi Asiyanın inteqrasiya qatarı artıq sürət yığıb və yoluna inamla davam edir.

Strateji oxun üçüncü, lakin digərləri qədər mühüm komponenti enerji və nəqliyyat sahələrindən kənara çıxan hərtərəfli iqtisadi inteqrasiyadır. Məqsəd ölkələr arasında sərbəst ticarət mühiti yaratmaq, qarşılıqlı sərmayə qoyuluşunu təşviq etmək, sənaye kooperasiyasını dərinləşdirmək və vahid iqtisadi məkanın təməllərini qoymaqdır. Bu istiqamətdə artıq mühüm addımlar atılır. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Mərkəzi Asiya ölkələrinin enerji sektoruna sərmayə qoymaqda maraqlı olması, eyni zamanda, Mərkəzi Asiya şirkətlərinin Azərbaycandakı azad iqtisadi zonalarda (məsələn, Ələt Azad İqtisadi Zonasında) rezident kimi fəaliyyət göstərməsi kapitalın sərbəst hərəkətinin başlanğıcıdır. Ticarət dövriyyəsinin həcmi sürətlə artır, lakin əsas hədəf ticarətin strukturunu dəyişərək xammal ixracından emal olunmuş sənaye və kənd təsərrüfatı məhsullarının ixracına keçməkdir. Həmin məqsədlə Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu kimi birgə maliyyə institutlarının yaradılması inteqrasiyanın institusional təməllərini möhkəmləndirir.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında formalaşan strateji tərəfdaşlıq Avrasiya geosiyasətini müəyyən edəcək ən mühüm hadisələrdən biridir. Həmin proses bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir. İnteqrasiya Şərqlə Qərbi birləşdirən etibarlı və proqnozlaşdırılabilən enerji, nəqliyyat dəhlizləri yaradır. Rəsmi Bakı Zəfərlə əldə etdiyi tarixi şansdan məharətlə istifadə edərək, bütün Avrasiya məkanında sülh, sabitlik və rifah arxitekturasının qurulmasına misilsiz töhfə verməkdədir. Bu, heç şübhəsiz, gələcək nəsillərin qürur duyacağı böyük tarixi missiyadır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Yeni təhlükəsizlik doktrinasının konturları

## *"Readiness 2030" çərçivəsində formalaşan strategiyalar*

**Avropanın təhlükəsizlik sistemi beynəlxalq mühitin təzyiqi altında yenidən formalaşır. Hər halda, son illərin tendensiyası bunu söyləməyə əsas verir. Qeyri-müəyyənliklər, narahatedici insidentlər, hibrid təhdidlərin mürəkkəbləşməsi və ənənəvi müharibə anlayışlarını aşan yeni silah texnologiyaları qitənin müdafiə fəlsəfəsini köklü şəkildə yeniləmək zərurəti yaradır. Bu kontekstdə, Brüsseldə qəbul edilmiş "Readiness 2030" strategiyası prosesin məntiqi nəticəsi kimi dəyərləndirilir və Avropanın təhlükəsizlik arxitekturasında, bəlkə də, son 30 ilin ən genişmiqyaslı dönüşünü təmin edir.**

Sənəd Avropanın mövcud strukturlarının qüsurlarını aradan qaldırmaq və gələcək təhdidlərə hazır olmaq üçün daha çevik, koordinasiyalı və vahid təhlükəsizlik modeli qurmaq istəyinin ifadəsidir. Xatırlatmaqda fayda var ki, "qoca qitə" uzun müddət kollektiv təhlükəsizlik çətirinin yaratdığı "komfort" altında ömür sürüb. Lakin yaşananlar göstərir ki, xarici müttəfiqlərin təminatına güvənmək kifayət deyil. Avropanın daxili imkanlarını gücləndirməsi, sənaye zəncirini daha dayanıqlı etməsi və müdafiə baxımından muxtariyyətini artırması artıq strateji zərurətə çevrilib. "Readiness 2030" da, öz növbəsində, təhlükəsizliyə yanaşmanı istər texniki, istərsə də siyasi, iqtisadi və institusional səviyyədə yenidən tənzimləyir. Bununla da illərdir pərakəndə şəkildə həyata keçirilən müdafiə xərcləmələri indi vahid məntiqə tabe etdirilir.

Məlumdur ki, əvvəllər Aİ-yə üzv ölkələrin hər biri fərqli standartlara, müxtəlif silah sistemlərinə, əlaqəsiz hərbi logistika mexanizmlərinə malik idi. Bu cür uyğunsuzluqlar qitənin böyükmiqyaslı təhlükələrə sürətli reaksiya qabiliyyətini zəiflədir, müdafiənin optimal koordinasiyasını əngəlləyirdi. Brüssel də təbii olaraq problemin ortaq hərbi layihələrin genişləndirilməsi yolu ilə həllini optimal sayır. Hərbi satınalmaların böyük hissəsinin artıq İttifaq səviyyəsində aparılması qərarı da bundan qaynaqlanır.

"Readiness 2030" təhlükəsizlik konsepsiyasının ən diqqətçəkən elementlərindən biri pilotsuz uçuş aparatlarına qarşı müdafiə mexanizmlərinin yaradılmasıdır. Son aylar hava məkanında baş verən izahı çətin uçuşlar, pilotsuz vasitələrin sərhədlərin yaxınlığında görünmələri və bu təmayüllərin artan intensivliyi Avropanın hava təhlükəsizliyinin zəifliyini göstərir. Mövcud reallıq qitənin diqqətini pilotsuz uçuş aparatlarını zərərsizləşdirən kompleks sistemlərin qurulmasına yönəldir.

***(ardı 5-ci səhifədə)***

# Sovetlərin "Orta Asiya"sından çağdaş Mərkəzi Asiyaya

*(əvvəli 1-ci səhifədə)*

Mərkəzi Asiyanın son illərdə birdən-birə regional güc mərkəzinə çevrilməsi uzunmüddətli geosiyasi dinamikanın məntiqi nəticəsidir. Bu gün region artıq yalnız keçmiş sovet məkanının bir fraqmenti deyil, əksinə, Çin–Avropa xəttinin ən kritik hissəsi, Rusiyanın yeni tranzit ehtiyaclarının təbii alternativi, Hind okeanına çıxış axtaran Hindistanın şimal düyünü və Avropanın enerji risklərini azaldan əsas qovşaqlardan biri kimi qəbul olunur. Məhz bu yeni reallıq ölkələri öz aralarında koordinasiyaya daha çox ehtiyac duyan subyektlərə çevirdi. Yəni Mərkəzi Asiyanı güc mərkəzinə çevirən əsas amil region dövlətlərinin "öz gündəmini özləri qurmaq" zərurətini hiss etmələridir.

Maraqlıdır ki, Mərkəzi Asiya niyə birdən-birə regional güc mərkəzinə çevrilməyə başladı?

Suala baxanda psixoloji dönüşü nəzərə almaq lazımdır. Uzun illər parçalanmış görünən region indi böyük güclərin kəsişmə xəttində dayanaraq özünün yeni rolunu dərk edir. Çin–Avropa ticarəti daha etibarlı marşrutlar tələb etdikcə, Rusiya özünün ənənəvi qərb dəhlizlərini itirdikcə, Hindistan Orta Asiya vasitəsilə şimala çıxış yolları axtardıqca, Avropa isə enerji təhlükəsizliyini diversifikasiya etdikcə, Mərkəzi Asiya dövlətləri kənardan idarə olunan obyekt olmaqdan çıxıb, prosesləri tənzimləyən aktor roluna keçmək istəyirlər. Keçid regionda yeni siyasi iradənin formalaşmasını şərtləndirir və C6 kimi platformalar məhz bu iradənin institusional ifadəsinə çevrilir.

Bu reallığı anlamaq üçün keçmişə – sovet mirasına nəzər salmaq vacibdir. Sovet dövründən sonra yaranan postsovet boşluğu Mərkəzi Asiya ölkələrini müxtəlif istiqamətlərə səpələdi. Qazaxıstan Avrasiya balans siyasətini seçərək Rusiya ilə inteqrasiya, Qərblə enerji ittifaqları, Çinlə iqtisadi tərəfdaşlıq arasında körpü yaratmağa çalışdı. Özbəkistan uzun müddət özünün avtoritar-modernizasiya modelinə əsaslanan qapalı iqtisadi sistemi idarə etdi və regional əməkdaşlığa həssas münasibət göstərdi. Qırğızıstan liberal açılma yolunu tutdu, lakin siyasi çalxalanmalar iqtisadi davamlılığı təmin etməyə imkan vermədi. Tacikistan vətəndaş müharibəsinin yaratdığı sosial-iqtisadi dağınıqlılıq səbəbindən regiondaxili proseslərdə uzun müddət passiv qaldı. Türkmənistan isə birmənalı neytrallıq siyasəti ilə özünü həm regional, həm də qlobal strukturlardan təcrid etdi.

Nəticədə, 1990–2000-ci illər Mərkəzi Asiya üçün fraqmentasiya dövrü oldu. Dövlətlər bir-biriləri ilə güclü iqtisadi bağlar qura bilmədi, sərhəd mübahisələri illərlə həllini tapmamış qaldı, su–enerji problemləri qarşıdurma mənbəyinə çevrildi. Nəqliyyat xəritəsi isə hələ də sovet dönəminin Moskva mərkəzli planlamasına bağlı qaldığından, region ölkələrinin bir-birinə birləşməsi təbii şəkildə məhdudlaşdı.

Bəs o dövrdə inteqrasiya niyə mümkün olmadı? Sualın cavabını yalnız iqtisadi göstəricilərdə tapmaq olmur. Məsələ həm də siyasi psixologiya ilə bağlı idi. Müstəqillik əldə edən ölkələr bir-birinə etibar etmirdilər, siyasi idarəçilik modelləri bir-biri ilə uyğun gəlmirdi, iqtisadiyyatlarda sinerji yaratmaq üçün struktur yaxınlıq az idi. Ölkələr daha çox rəqabət edirdi, nəinki əməkdaşlıq. Bundan əlavə, böyük güclərin region üzərindəki təsiri ölkələr arasında fərqli orbitlər yaradaraq onları bir-birindən uzaqlaşdıran formatda idi. Yəni Mərkəzi Asiya daxilində inteqrasiya prosesləri daxili asılılıqların azaldılması və siyasi müstəqilliyin gücləndirilməsi kimi strateji məqsədlə deyil, daha çox kənar güclərin təsiri ilə formalaşırdı.

Bu gün isə vəziyyət kəskin şəkildə dəyişib. Region ölkələri nəinki bir-birilərinə güvənməyə başlayıblar, həm də əsl mənada birgə hərəkət etmədən qlobal rəqabətdə möhkəmlənməyəcəklərini anlayırlar. C6 formatının ortaya çıxması da məhz bu anlayışın institusional təzahürüdür.

2020-ci illər Mərkəzi Asiya üçün yeni coğrafi-siyasi xəritə yaratdı. Uzun illər kənar mərkəzlər tərəfindən müəyyənləşdirilən nəqliyyat məntiqi artıq dəyişir; iqtisadi axınların istiqaməti indi region dövlətlərinin öz qərarları ilə formalaşır. Bu mənzərəni daha yaxşı anlamaq üçün xəritəyə bir daha nəzər salmaq kifayətdir: Çinlə Avropa arasındakı ən qısa və təhlükəsiz marşrut Orta Dəhliz üzərindən keçir, Hind okeanına çıxış üçün Şimal–Cənub dəhlizi bərpa olunur, Cənubi Qafqazın arteriyası olan Bakı–Tbilisi–Qars xətti bütövlükdə Avrasiyanı Anadoluyla birləşdirir, Zəngəzur dəhlizi bölgədə yeni siyasi arxitekturanın əsas sütunlarından birinə çevrilir, Xəzərin iki sahilini vahid iqtisadi ritmdə birləşdirən Transxəzər marşrutu isə regionun gələcək energetika və logistik strategiyasını yenidən qurur.

Belə bir şəraitdə artıq Mərkəzi Asiya dəhlizlər üzərində qurulan və hərəkət edən yeni iqtisadi-siyasi blokdur. Blokun mərkəzində isə gözlənildiyindən daha strateji bir oyunçu dayanır – Azərbaycan.

Azərbaycanın rolu ənənəvi nəqliyyat qovşağı funksiyasından xeyli kənara çıxır. Bu gün Bakı enerji təhlükəsizliyi, kommunikasiya infrastrukturunun qurulması və rəqəmsal marşrutların formalaşdırılması baxımından Mərkəzi Asiya ilə Avropa arasında bağlayıcı mexanizm rolunu oynayır. Xəzər dənizi üzərindən genişlənən yük axınları, SOCAR-ın Özbəkistan və Qazaxıstanda artan investisiya layihələri, Transxəzər fiber-optik xəttinin gələcək rəqəmsal arxitekturanı dəyişəcək potensialı Bakının bölgədəki rolunu daha da gücləndirir. Eyni zamanda, Xəzər dənizinin



dibi ilə Avropaya uzanması planlaşdırılan elektrik kabeli "yaşıl enerji dəhlizi" konsepsiyasını reallığa çevirir.

Bu proseslər fonunda təbii sual yaranır. C6 niyə məhz Azərbaycanla genişləndi?

Əslində, sualın cavabı siyasi məntiqdə yatır. Azərbaycan uzun illərdir balanslaşdırılmış xarici siyasət yürüdərək regiondakı bütün tərəfdaşlarla bərabər məsafədə işləyə bilən nadir aktora çevrilib. Bakı nə qlobal güclər arasında tək istiqamətli asılılıq yaradır, nə də regional rəqabəti dərinləşdirir – əksinə, konfliktləri azaldan, əməkdaşlığı artıran təhlükəsiz tranzit məkanıdır.



C6 üçün bu xüsusiyyət həyati əhəmiyyət daşıyır. Çünki Mərkəzi Asiya ölkələri Qərbə çıxış üçün daha etibarlı marşruta ehtiyac duyduqları halda, Avropa da öz növbəsində enerji və logistika risklərini diversifikasiya etməyə çalışır. Bu iki ehtiyac nöqtəsi yalnız Azərbaycanda kəsişir. Cənubi Qafqazda belə kombinasiyanı təmin edən başqa ölkə yoxdur; nə Türkiyə Xəzər üzərindən tranziti təmin edir, nə İran Avropa ilə enerji inteqrasiyası baxımından uyğun mexanizmə malikdir, nə də Rusiya hazırkı geosiyasi şəraitdə alternativ rol oynaya bilir.

Deməli, Azərbaycan C6 üçün siyasi sabitlik, enerji təhlükəsizliyi və qlobal bazarlara real çıxış deməkdir. C6-nın genişlənməsi məhz bu məntiqə söykənir: Mərkəzi Asiya iqtisadiyyatları dəhlizlərin Avropaya uzandığı strateji qapını gücləndirməklə regional güc mərkəzinə çevrilə bilər.

C6 formatının meydana çıxması Mərkəzi Asiyanın postsovet dövrdə ilk dəfə özünəməxsus regional arxitektura qurmağa başlamasının ən konkret nümunəsidir. Bu platforma nə Avrasiya İqtisadi İttifaqına rəqibdir, nə də onun Gömrük İttifaqı kimi sərt normativ çərçivədir. Onun funksiyası daha çevik, daha real və daha praktiki mahiyyət daşıyır. C6 region ölkələrinin uzun müddət çatışmayan koordinasiya imkanını kompensasiya edir: dövlətlər arasında iqtisadi sinxronizasiya, sərhəd-keçid prosedurlarının uyğunlaşdırılması, nəqliyyat arteriyalarının eyni ritmdə işləməsi və enerji balansının regional ölçüdə optimallaşdırılması bu platformanın əsas hədəflərindəndir. Postsovet dönəminin mərkəzləşmiş idarəetmə modelindən fərqli olaraq, bu yeni format heç bir iyerarxik təsir olmadan bərabər tərəfdaşlıq üzərində qurulur və buna görə də Mərkəzi Asiya üçün ən realist inteqrasiya forması kimi çıxış edir.

Bəs C6 hansı boşluğu doldurur? Mövcud regional qurumlar müəyyən dərəcədə siyasi-institusional çərçivə yaratsa da, real iqtisadi əməliyyatlarda çeviklik təmin etmir. Region daxilində ticarətin asanlaşması, tranzit rejimlərinin vahidləşməsi, enerji şəbəkələrinin birləşdirilməsi və sərhəd-keçid mexanizmlərinin modernləşdirilməsi kimi sahələrdə bu qurumlar ya siyasi məhdudiyyətlərə ilişib qalır, ya da çoxqatlı bürokratiyadan kənara çıxa bilmir. C6 məhz həmin boşluğu doldurur: onun çevik formatı ölkələri təzyiqsiz, məcburetmədənkənar, yalnız qarşılıqlı maraqlar əsasında bir masa ətrafında toplayır.

Hazırkı mərhələ Mərkəzi Asiyanın siyasi inkişaf trayektoriyasının dönüş nöqtəsidir. Azərbaycanın fəal iştirakı bu inteqrasiya modelinə Qərbə çıxış imkanı qazandıraraq onu geniş Avrasiya məkanının strateji düyün nöqtəsinə çevirir. Sovet mirasının müəyyənləşdirici olduğu mərhələ artıq arxada qalıb; indi region öz suveren gündəmini özü yazır və C6 həmin gündəmin real siyasi konturudur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hindistanın Yunanıstan–Kipr–Ermənistan xəttində fəallığı

## *Azərbaycan və Türkiyə üçün yeni geosiyasi çağırışlar*

**Son dövrlərdə Hindistanın Aralıq dənizi və Cənubi Qafqaz istiqamətində diplomatik fəallığının artması regionun geosiyasi mənzərəsində yeni dinamikanın formalaşmasına gətirib çıxarır. Yeni Dehli Yunanıstan, Kipr və Ermənistanla münasibətlərini sürətlə genişləndirir ki, bu da həm Türkiyə, həm də Azərbaycan üçün strateji baxımdan diqqətlə izlənilməli bir tendensiyadır.**




Hindistanın bu siyasətinin arxasında iki əsas məqsəd dayanır. Ölkə bir tərəfdən Türkiyə–Azərbaycan–Pakistan üçtərəfli əməkdaşlığının intensivləşməsi nəticəsində yaranan geosiyasi üstünlüyə əks balans yaratmağı, digər yandan Aralıq dənizində Yunanıstan və Kiprlə yaxınlaşmaqla, Avropa İttifaqına siyasi giriş imkanlarını artırmağı, Cənubi Qafqazda isə Ermənistan üzərindən yeni təsir mexanizmi formalaşdırmağı hədəf seçir. Bu strategiyanın ortaq cəhəti hər üç ölkənin Türkiyəyə münasibətlərindəki mövcud problemlərlə bağlıdır.

Onu da qeyd edək ki, Hindistan–Ermənistan əməkdaşlığının diqqətçəkən tərəfi İrəvanın Hindistan silahlarına çıxışının genişlənməsidir. Ermənistan son illərdə bu ölkədən raket sistemləri, artilleriya vasitələri, radar və müşahidə texnologiyaları əldə edib. Hindistan tərəfindən İrəvana tədarük olunan raket sistemləri və mobil radar stansiyaları Ermənistanın sərhəd xəttində yerləşdirilib. Bu silahlanma regionda güc balansını dəyişdirməsə də, Zəngəzur istiqamətində gərginliyin artması ehtimalını gücləndirir. Ermənistanın Yunanıstan və Hindistanla qurduğu əlavə platforma onun xarici siyasi təminat axtarışlarında riskli davranışların artmasına zəmin yaradır. Bu, Azərbaycanın sərhəd təhlükəsizliyi və hərbi modernləşmə strategiyası üçün diqqətlə izlənilməsi vacib olan faktordur.

Aralıq dənizində baş verən proseslər də əhəmiyyətlidir. Yunanıstan və Kipr uzun illərdir Türkiyəyə qarşı diplomatik və hüquqi təzyiq alətləri inkişaf etdirir. Hindistanın bu xəttə qoşulması həmin cəbhənin beynəlxalq dəstək imkanlarını artırır ki, bu da Türkiyənin Aralıq və Egey dənizlərində siyasətini daha mürəkkəb bir diplomatik şəraitlə üzləşdirir. Məsələn, Türkiyə ABŞ-dan Hindistana 6 ədəd "AH-64E Apache" helikopterinin öz hava məkanından keçidinə mane olaraq tədarük zəncirində ciddi məhdudiyyət yaradıb. Bu addım yalnız Hindistanın silah tədarükünü çətinləşdirmir, eyni zamanda, Türkiyənin geosiyasi mövqeyini sərt şəkildə ifadə edir. Hindistanın Yunanıstan, Kipr və Ermənistanla yaxınlaşması yalnız müdafiə siyasəti ilə bağlı deyil, Ankara üçün strateji təzyiq mexanizmləri yaratmaq məqsədini də daşıyır. Bu yeni reallıq Azərbaycan üçün də diqqətlə izlənilməli bir prosesdir, çünki Azərbaycan–Türkiyə strateji əməkdaşlığı vahid təhlükəsizlik məkanını əhatə edir və bu əməkdaşlıq ölkəmizin diplomatik və hərbi mövqeyini birbaşa gücləndirir.

Azərbaycanın Hindistanla münasibətləri həmçinin Pakistanla əlaqələrlə də bağlıdır. Hindistanın bölgədə anti-Pakistan siyasətinin təsiri həlelik məhduddur, lakin Azərbaycan–Pakistan hərbi-siyasi əməkdaşlığı və Azərbaycanın Kəşmirlə bağlı Pakistan mövqeyini dəstəkləməsi Yeni Dehlinin ehtiyatlı davranmasına səbəb olur. Bu baxımdan Azərbaycan–Hindistan iqtisadi əlaqələrinin uzunmüddətli potensialı, siyasi dialoqun ardıcıl xarakteri və regional layihələrdə ortaq maraqlar münasibətlərin tam şəkildə pisləşməsinin qarşısını alır. Enerji və nəqliyyat sahəsində Hindistanın alternativ yollar axtarması müəyyən rəqabət yaratsa da, Azərbaycanın mövcud tranzit üstünlüyü hələ də güclüdür. Rəsmi İrəvan Asiya və Hindistan məhsullarının Avropa bazarına Ermənistan üzərindən daşınması üçün çalışır və tez-tez Hindistan rəsmiləri ilə görüşlər keçirir. Lakin İran və Hindistanın rəsmi İrəvanla tərəfdaşlığına baxmayaraq, bu ölkələr Ermənistan marşrutunu hələ yekun qərar olaraq seçməyiblər. Digər tərəfdən, Rusiya Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycandan keçməsində maraqlıdır və bu, Bakı üçün strateji manevr imkanlarını qoruyur, ölkəmizin regiondakı iqtisadi nüfuzunu artırır. Bu da kənar təsirləri zəifledir.

Ona görə də Hindistanın regiondakı anti-Pakistan siyasətinin Azərbaycanla münasibətlərə təsiri həlelik məhduddur, lakin nəzərə alınmalıdır. Bakı ilə İslamabad arasında dərinləşən hərbi-siyasi əməkdaşlıq və Azərbaycanın Kəşmirlə bağlı Pakistan mövqeyini dəstəkləməsi Hindistanın Azərbaycanın bəzi sahələrdə, xüsusən də yüksək texnologiyalar və logistika üzrə əməkdaşlıq layihələrində ehtiyatlı davranmasına səbəb olur. Bununla belə, Azərbaycan Hindistanın Cənubi Qafqazdakı əsas ticarət tərəfdaşlarından biri olaraq qalır. Mövcud fikir ayrılıqlarına baxmayaraq, tərəflər qarşılıqlı fayda gətirən əməkdaşlıq formatlarını genişləndirməyə çalışırlar ki, bu da əlaqələrin konstruktiv və gələcəyə yönəlmiş olduğunu göstərir.

Onu da qeyd edək ki, münasibətlərin pisləşməsinin qarşısının alınmasında həyata keçirilən strategiyanın rolu böyükdür. Azərbaycanın bu sahədə strategiyası bir neçə əsas prinsip üzərində qurulur. Birincisi, Azərbaycan–Türkiyə–Pakistan əməkdaşlığı balanslı saxlanılır və anti-Hindistan bloku deyil. İkincisi, Azərbaycan–Hindistan iqtisadi əlaqələri, xüsusən energetika, investisiya və informasiya texnologiyaları sahələrində genişləndirilir. Üçüncüsü, Ermənistanın silahlanma prosesinə cavab olaraq, Azərbaycanın sərhəd təhlükəsizliyi və hərbi texnologiyaları modernləşdirilir. Dördüncüsü, Türkiyənin regionda artan gərginliklər fonunda Azərbaycanla diplomatik həmrəyliyi strateji əhəmiyyət daşıyır. Bu baxımdan Bakı–Ankara hərbi və siyasi əməkdaşlığı artıq region üçün nümunəyə çevrilib. Cənubi Qafqazdakı vəziyyət, Ermənistanla normallaşma prosesi və strateji layihələrdə koordinasiyanın davam etdirilməsi bu əməkdaşlığın əhəmiyyətini daha da artırır. Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi regionda təhlükəsizlik balansını qorumağa imkan verir və heç bir dövlətə qarşı, o cümlədən Hindistana qarşı yönəlməyib.

İndiki şəraitdə isə ekspertlər Azərbaycanla Türkiyə arasında əməkdaşlığa önəm verməyin vacib olduğunu vurğulayırlar. **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev** Azərbaycan–Türkiyə Beyin



Mərkəzlərinin Birinci Şuşa Forumunda deyib: "Bir sıra istiqamətlər var ki, burada biz Türkiyə ilə sıx şəkildə əməkdaşlıq etməliyik. Hazırkı mərhələdə maksimum çalışmalıyıq ki, siyasətin əsas elementləri bir-birinə bənzər olsun. Cənubi Qafqazdakı vəziyyət, Ermənistanla normallaşma prosesi davam edir. Bu yaxınlarda Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycana gəlib. Ermənistanda indi sülhdən danışırlar, ancaq bunun arxasında da Azərbaycanın qələbəsi dayanır. Bu qələbə olmasaydı, onlar sülhdən danışmazdılar. 2019-cu ildə Ermənistanın lideri "Qarabağ Ermənistandır" deyirdi. Bunları unutmaq olmaz".

Beləliklə, Hindistanın Yunanıstan–Kipr–Ermənistan xətti ilə yaxınlaşması regional geosiyasətdə daha mürəkkəb balansın formalaşmasına işarədir. Bu, Azərbaycan və Türkiyə üçün birbaşa təhlükə yaratmasa da, ağıllı və soyuqqanlı diplomatik addımlar tələb edir. Hazırda Azərbaycan düzgün strateji planlama və hərbi-modernləşmə proqramları ilə riskləri məharətlə idarə edir. Həm mövcud təhdidləri minimal səviyyəyə endirir, həm də regional liderlik mövqeyini gücləndirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# Paşinyan qətiləşdirir – Ermənistana yeni konstitusiya!

## *"Əsas qanun" yolunda parlament seçkiləri sınağı*

**Niyə yeni konstitusiya, konstitusion dəyişikliklər yox? Ermənistanın baş naziri Nikol Paşinyan dövlət qulluqçularının iştirakı ilə keçirilmiş toplantıdakı çıxışında suala cavab verməyə çalışıb və fikrini əsaslandırıb. Yazımızda onun bu baxımdan nələri vurğuladığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə bir neçə məqamın üzərində dayanaq.**

*

Birinci məqam odur ki, Ermənistanda konstitusiya dəyişikliyi məsələsi həmişə qabardılıb. Son dövrlər bu, daha çox Azərbaycanın tələbi şəklində müzakirəyə çıxarılmaqdadır və məsələdə məntiq var. Çünki ölkəmiz artıq neçə müddətdir ki, erməni əsas qanununa dəyişikliklərin vacibliyini Cənubi Qafqazdakı sülh mühitinin etibarlılıq təminatı baxımından önə çəkməkdədir. Azərbaycan rəsmiləri, o cümlədən Prezident İlham Əliyev mütəmadi olaraq bildirir ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası var.

Məlum olduğu kimi, Ermənistan konstitusiyası ölkənin 1990-cı ildə qəbul edilmiş İstiqlaliyyət Bəyannaməsindən istinad yükünə malikdir. Həmin bəyannamənin preambulasında isə bildirilir ki, Ermənistan SSR Ali Soveti eyni zamanda bu qurumun və "Dağlıq Qarabağın Milli Şurasının "Ermənistan SSR və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında" 1 dekabr 1989-cu il tarixli birgə qərarına əsaslanaraq" müstəqil dövlətin yarandığını bəyan edir. Sənəddə, həmçinin, "Ermənistan Respublikasının 1915-ci ildə Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda ermənilərin soyqırımının beynəlxalq səviyyədə tanınması işini dəstəklədiyi" vurğulanır.

Göründüyü kimi, "Dağlıq Qarabağ" ifadəsi Azərbaycana, "Qərbi Ermənistan" ifadəsi isə Türkiyəyə qarşı ərazi iddiasıdır. Azərbaycan dövləti bu kimi halların yolverilməzliyini bildirir və Ermənistanla yekun sülh müqaviləsinin imzalanması üçün sözügedən müddəaların aradan qaldırılması şərtini irəli sürür. Digər tərəfdən, rəsmi İrəvan "erməni soyqırımı"nın beynəlxalq miqyasda tanınmasının ölkənin xarici siyasət prioritetindən çıxdığını açıqlayır. Deməli, mənasız iddialarla vidalaşmağın vaxtı çatıb. Bunun yolu isə ermeni əsas qanununun İstiqlaliyyət Bəyannaməsi buxovundan qurtulmasından keçir.

İkinci məqam odur ki, baş nazir N.Paşinyan indiyədək də Ermənistana yeni konstitusiyanın vacibliyinə dair fikirlər səsləndirib. Məsələn, o, 2024-cü ilin yanvarında Ədliyyə Nazirliyinin əməkdaşları ilə görüşündə mövzuya toxunaraq vurğulamışdı. "Ədliyyə naziri ilə bir-iki işgüzar söhbət zamanı qeyd etdim ki, mənim fikrimcə, eləcə də, bir sıra həmkarlarımın fikrincə, Ermənistanın konstitusiya dəyişikliklərinə deyil, yeni konstitusiyaya ehtiyacı var və bu, daha geniş müzakirə obyektinə çevrilməlidir", - deyən Paşinyan əlavə etmişdi ki, yeni geosiyasi və regional şəraitdə ölkənin onu daha rəqabətli və həyatqabiliyyətli hala gətirəcək konstitusiyası olmalıdır. Ermənistana "heç kimin şübhə etmədiyi" əsas qanunun zəruriliyinə dair fikirlərini bölüşən Nikol onu da bildirmişdi ki, dünya çox yüksək sürətlə dəyişir və ona görə də gələcəyə strateji baxış suveren, hüquqi, demokratik və sosial dövlət anlayışına uyğun qurulmalıdır.

Əlbəttə, N.Paşinyan həmin çıxışında yeni konstitusiyanın hazırlanması və ona keçid üçün hansısa zaman çərçivəsini göstərməmişdi. Amma indi baş nazir daha detallı danışıb və deyib ki, referendum 2026-cı ilin parlament seçkilərindən sonra olmalıdır. Məsələyə qayıdacağıq. Həlelik xatırladaq ki, 2024-cü ilin iyununda "Azadlıq" radiostansiyasının erməni xidməti Paşinyanın hökumətə 2026-cı il dekabrın 30-dək yeni konstitusiya layihəsini hazırlamağı və onu təsdiqləməyi tapşırdığına dair məlumat yaymışdı. Xəbərdə, həmçinin, 2022-ci ildə yaradılmış konstitusiya islahatları şurasının əsas qanuna dəyişikliklər layihəsini hazırladığı vurğulanmışdı: "Konsepsiyanın ilkin variantı bu ilin yanvarında hökumətə göndərilib. İndi Paşinyan yeni konstitusiya layihəsinin hazırlanmasını tapşırır. Qərarda "konstitusiyaya dəyişikliklər" əvəzinə, "yeni konstitusiya" ifadəsinin yazılması açıq şəkildə qeyd olunub".

Bundan başqa, 2025-ci ilin yanvarında Ermənistanın ədliyyə naziri Srbui Qalyan 2024-cü ilin yekununa həsr olunmuş mətbuat konfransında ölkənin yeni konstitusiya mətninin 2026-cı il seçkilərinə qədər hazır olacağını vurğulamış, məsələnin mühüm əhəmiyyət daşıdığını demişdi. Doğrudur, nazirin əsaslandırması, müəyyən mənada, lokal səciyyə daşımışdı: "İnsan hüquqlarının müdafiəsi strategiyası nöqteyi-nəzərindən əsasən milli azlıqlarla bağlı ayrı-seçkiliyin aradan qaldırılması üzrə qanunvericilik işlənib hazırlanmalıdır".

*

Qeyd edək ki, ümumən başa çatmaqda olan ili Ermənistanda konsititusiya ilə bağlı fəal müzakirələrin getdiyi zaman kəsiyi kimi dəyərləndirmək mümkündür. Məsələn, Paşinyan mart ayında ölkənin İctimai Televiziyasına müsahibəsində demişdi ki, 2027-ci ildə yeni konstitusiyanın qəbulu üçün səsvermə təşəbbüsü göstərmək niyyətindədir. "Bizim gündəliyimizdə konstitusiya dəyişiklikləri məsələsi var. Bu, 2027-ci ilə planlaşdırılıb. Hakim güvəmizdə siyasi gündəliyimizi daha konkretləşdirmək üçün konstitusiya proseslərini 2026-cı il parlament seçkiləri ilə paralel aparmaq zərurəti barədə fikirlər var. Lakin bu, sırf daxili siyasi prosesdir. Amma etiraf etməliyəm ki, bunun regional və qlobal təsiri olmaya bilməz".

Erməni baş nazir builki açıqlamalarının birində, eyni zamanda, yeni konstitusiya layihəsi üzərində işin getdiyini də demiş və bildirmişdi ki, sənəd hazır olduqdan sonra referenduma gediləcək. O, rəhbərlik etdiyi hökumətin mövcud istiqamətdə gündəliyinin mövcudluğunu və işlərin 2027-ci ilə qədər yekunlaşacağını diqqətə çatdırmışdı: "Hazırda yeni konstitusiya layihəsi üzərində işləyirik. O, hazır olanda, yəqin ki, referendum keçirəcəyik. Amma bunun prosesə (Azərbaycanla sülh prosesinə - red.) heç bir aidiyyəti yoxdur. Hərçənd, strateji baxımdan təsiri ola bilər".

Onu da bildirək ki, Paşinyan yeni konstitusiya ritorikasına bu ilin sentyabrında daha ətraflı şəkildə izahat vermişdi. O, məsələnin institusional əhəmiyyət daşıdığını əsaslandırarkən demişdi ki, əsas qanunla bağlı islahatlar xalqla ölkənin hüquq sistemi arasında üzvi əlaqə yaratmalıdır. Nikolun sözlərinə görə, 1995-ci ildən bəri xalqın 50+1 faizi heç bir konstitusiya referendumuna getmədiyi halda mövcud konstitusiyanın lehinə səs verilib.



Fikirlərini bir qədər də genişləndirən Paşinyan Ermənistandakı hazırkı hüquq sisteminin erməni xalqına nifrət bəslədiyini də vurğulamışdı: "Konstitusiya nədir? İnsanlar seçki məntəqəsinə gedib öz səsləri ilə müəyyən edirlər, notarial qaydada təsdiqləyirlər ki, bir ölkədə necə yaşayacağıq. Hesab edirəm ki, bu islahatlar olmadan baş nazir də daxil olmaqla, problemləri həll edə bilmərik. Ermənistanda məhkəmə sistemi xalqdan qaynaqlanmır, xalqla məhkəmə arasında əlaqə kəsilib. Nəhayət, bu problemdən qurtulmalıyıq. Problemi aradan qaldırmayınca, bir çox fundamental məsələləri həll edə bilməyəcəyik".

*

Qeyd etdiyimiz kimi, N.Paşinyan bir neçə gün əvvəlki açıqlamasında Ermənistanın yeni konstitusiyasının qəbulu ilə bağlı referendumun 2026-cı ilin parlament seçkilərindən sonra keçirilməsindən söz açıb və fikrini belə əsaslandırıb: "Bu, ona görə lazımdır ki, siyasi qüvvələr məsələ ilə bağlı öz mövqelərini ictimaiyyətə çatdıra bilsinlər və artıq çoxluğun səsini qazanmış qüvvənin mövqeyi yeni konstitusiya layihəsinin formalaşdırılmasında həlledici əhəmiyyət kəsb edəcək".

O zaman Nikolun səsləndirdiyi və əvvəldə diqqətə çatdırdığımız suala keçid alaq. Aydındır ki, erməni baş nazir mövzunu yeni konstitusiya zərurəti şəklində qoymaqla, habelə "Ermənistan üçün yeni siyasi məzmun, yeni düşüncə, yeni siyasi və dövlət doktrinası" məntiqini qabartmaqla, əsas qanunun dövlətin hərəkəti üçün aerodinamikanı təmin etməli olduğunu bildirməklə, təşəbbüsünə ideoloji məzmun verir. Bu məzmun Nikolu və rəhbərlik etdiyi hökuməti tənələrdən sığortalayır. Çünki erməni müxalifəti dayanmadan Azərbaycanın tələbinin yerinə yetirilməsi, iqtidarın bu tələb qarşısında acizliyi ritorikasını tirajlayır. Paşinyan və tərəfdarları isə məsələnin heç də belə olmadığını sübuta yetirməyə çalışır.

Sonda onu da bildirək ki, hələlik Ermənistanın yeni konstitusiyasının necə bir məzmun daşıyacağı qeyri-müəyyəndir. Yəni bilmək olmaz ki, gələcəkdə referendum yolu ilə qəbulu planlaşdırılan əsas qanunda Azərbaycanın narahatlıqları nəzərə alınacaq, yoxsa yox. Üstəlik, Paşinyanın və komandasının əvvəlcə 2026-cı il seçkilərində uğur qazanması lazımdır. Uğur olmadan heç nə mümkün deyil və görünür, Paşinyan bunu nəzərə alır. Hər halda, referendum istəyini seçki qəlibi tərəf reallaşdıra bilər. Deməli, qalır gələnlik prosesin nəticəsini gözləmək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni təhlükəsizlik doktrinasının konturları

*(əvvəli 3-cü səhifədə)*

Bu məqsədlə irəli sürülən yeni təşəbbüs isə qitənin hava sahəsini bir-biri ilə əlaqəli sensorlar, süni intellektlə işləyən analiz mərkəzləri və çoxpilləli müdafiə zolaqları ilə təchizatını hədəf seçir. Nəzərdə tutulan konkret tədbirlərə gəldikdə, onlar gələcəkdə potensial təhdidlərin hava məkanına daxil olmadan müəyyənləşdirilməsinə imkan verəcək.

Avropanın şərqi onun təhlükəsizlik xəritəsində ən həssas bölgələrdən biri kimi qalmaqdadır. Həmin coğrafiya qitənin təhlükəsizlik balansını tez-tez dəyişdirən siyasi və hərbi proseslərin mərkəzində dayanır. Elə bu səbəbdən yeni strategiya "Şərq Cinahı Müşahidə Platforması" kimi xüsusi mexanizmləri nəzərdə tutur və qitənin şərq sərhədlərini vahid təhlükəsizlik xətti kimi götürür. Daha dəqiq desək, strategiya quruda müşahidə xətti, dənizdə nəzarət mexanizmləri və hava məkanının vahid şəkildə idarə olunması kimi prosesləri eyni sistemdə cəmləyir. Sərhəd boyunca yerləşdiriləcək yüksək dəqiqlikli radarlar, Baltik və Qara dənizlərdə əməliyyatlara rəhbərlik edən mərkəzlərə qədər geniş infrastrukturun yaradılması Avropaya ilk dəfə olaraq sərhədlərini real vaxtda izləmək imkanı verəcək. Onun müdafiə xərclərinin artması da strategiyanın əsas təkanverici amillərindən biridir. Yeri gəlmişkən, Avropa Komissiyasının son hesabatlarına diqqət yetirsək, görərik ki, müdafiə büdcəsi demək olar iki dəfə artıb.




**ARAYIŞ:** 2024-cü ildə 27 üzv ölkənin müdafiə büdcəsi 343 milyard avroya çatıb. Deməli, əvvəlki illə müqayisədə 19 faiz artım var və mövcud dinamika cari ildə də davam edərək, ümumi xərclərin 381 milyard avroya yüksəlməsinə səbəb olub. Bu göstəricilər ÜDM-in təxminən 2,1 faizinə bərabərdir. Artım isə təkcə ümumi büdcə ilə məhdudlaşmır. Ötən ildə müdafiə investisiyalarının həcmi 106 milyard avro olaraq ən yüksək səviyyəyə çatıb və ümumi müdafiə xərclərinin 31 faizindən çoxunu təşkil edib. Bu tendensiya Aİ-nin hərbi-texnoloji güclənməyə xüsusi diqqət ayırdığını göstərir. Tədqiqat və inkişaf sahəsində də xərclər sürətlə artır. 2024-cü ildə təxminən 13 milyard avro olan büdcənin bu ilin sonunda 17 milyard avroya yaxınlaşacağı gözlənilir. Prosesin əsas hərəkətverici qüvvəsi Ukrayna müharibəsidir. Müharibə Avropada təhlükəsizlik mühitini köklü şəkildə dəyişdirib və Aİ ölkələrini müdafiə texnologiyalarının inkişafını, sənaye istehsal gücünü və innovasiyaya yönəlmiş strategiyaları prioritetləşdirməyə məcbur edib.

Nəticədə, növbəti on il ərzində müdafiəyə xərclənəcək milyardlarla avro Avropanın təhlükəsizlikdə passiv mövqedən aktiv mövqeyə keçdiyini nümayiş etdirir. Aİ-nin müdafiə və kosmik proqramlar üçün ayıracağı əlavə milyardlara gəldikdə həm peyk rabitəsi, həm kiber müdafiə, həm də genişmiqyaslı müşahidə sistemlərinin yenilənməsi nəzərdə tutulur. Bu çərçivədə Ukraynanın rolu ayrıca diqqət mərkəzindədir. Avropa anlayır ki, qitənin təhlükəsizliyi sadəcə öz sərhədləri daxilində düşünülə bilməz. Ukraynanın hərbi sənayesinin Avropa müdafiə modelinə inteqrasiyası, onun istehsal potensialının geniş istifadəsi və təhlükəsizlik sahəsində sıx əməkdaşlıq bütövlükdə qitənin müdafiə strukturunun möhkəmlənməsinə xidmət edir. Bu əməkdaşlıq təchizat zəncirinin genişlənməsi ilə yanaşı, həm yeni nəsil silahların ortaq hazırlanmasına, həm də Aİ standartlarına uyğun təhlükəsizlik modellərinin formalaşmasına şərait yaradır.

Siyasi aspektdən "Readiness 2030" Avropa üçün bir sınaq kimi də düşünülə bilər. Çünki qitə illərdir müzakirə etdiyi strateji muxtariyyət məsələsini nəhayət praktik addımlarla reallaşdırmağa başlayır. Lakin prosesin uğuru üzv ölkələrin milli maraqları ümum–Avropa maraqları ilə nə dərəcədə uyğunlaşdıra bilməsindən asılıdır. Kontinentin bu dəfə tarixi fürsəti əldən verib-verməməsini yaxın onillik göstərəcək. Müdafiə sənayesinin həmrəylik üzərində qurulması, büdcələrin uzunmüddətli sabitliklə idarə olunması, sərhədlərin vahid təhlükəsizlik məntiqi ilə qorunması və kollektiv müdafiə mədəniyyətinin formalaşması gələcək yol xəritəsini cızacaq.

Nəhayət, belə qənaətə gəlmək olar ki, "Readiness 2030" Avropa qitəsinin bir növ özünə qayıdışıdır. Yəni uzun illər təxirə salınmış tarixi məsuliyyət yenidən xatırlanır. Artıq təhlükəsizlik məsələsi qabaqlayıcı və strateji şəkildə idarə olunan proses kimi nəzərdən keçirilir. Yeni yanaşmalar göstərir ki, Avropa öz müdafiəsini təmin etmək üçün daha uğurlu arxitektura qurmaq niyyətindədir. Görünür, "qoca qitə" dəyişən dünyanın uzaq periferiyasında passiv müşahidəçi olmaq əvəzinə, qlobal güc balansının formalaşmasında öz sözünü deməyi üstün tutur. Plan nəticə etibarilə, təhlükəsizlik anlayışının yenilənməsi, müdafiə sənayesinin modernləşdirilməsi, ortaq strateji düşüncənin formalaşması və sərhədlərin daha çevik şəkildə müdafiəsinə xidmət edir.

Sonda qeyd edək ki, hər bir siyasi dövr özünə uyğun bir hikmət yaradır. Deyirlər "Gələcəyin qapısı həmişə açıqdır, amma onu açmaq üçün cəsarət lazımdır". Cəsarətin hansı nəticəyə aparacağını isə Avropanın bu yolda hansı qətiyyətlə irəliləməsi müəyyən edəcək. Bir məsələ dəqiqdir ki, qitə uzun müddətdir imtahanla üz-üzədir və bu dəfə sınaqdan başqalarının kölgəsində çıxmaq niyyətində deyil.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Kibertəhlükəsizlik müsabiqəsində uğur




**İordaniyada silahlı qüvvələr və təhlükəsizlik orqanları arasında kibertəhlükəsizlik və tətbiqi kriptoqrafiya sahəsində "ARMYTHON" beynəlxalq kibertəhlükəsizlik müsabiqəsi keçirilib.**

Müsabiqədə ölkəmiz 2 komanda ilə təmsil olunub. DTX-nın Milli Kibertəhlükəsizlik Mərkəzinin "Land of Fire" komandası xüsusilə fərqlənərək 2-ci yerə layiq görülüb, dövlət qurumlarımızın mütəxəssislərindən ibarət "Iron Fist" yığma komandası isə 6-cı yerə yüksəlib.

28 ölkədən 37 seçmə komandanın iştirak etdiyi "ARMYTHON" müsabiqəsi Avrasiya-Afrika regionunda ən nüfuzlu kibertəhlükəsizlik yarışması hesab olunur. Yarışda iştirakçılardan mürəkkəb kiberhücum və kibermüdafiə ssenariləri, həmçinin tətbiqi kriptoqrafiya üzrə müasir çağırışlara uyğun tapşırıqların həlli sahəsində yüksək bilik, təcrübə və peşəkarlıq tələb edilir.

***XQ***

# İrəvanda "parlament" uğrunda savaş kəskinləşir

## *Revanşistləri gələn il "Vaqarşapat sindromu" gözləyir*

**Hazırda Ermənistanda siyasi qüvvələrin əsas diqqəti 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkiləri üzərində cəmləşib. Həm iqtidar, həm də müxalifət bu seçkilərə həlledici siyasi hadisə kimi yanaşır və prosesə ciddi hazırlaşır.**

Obrazlı ifadə edəsi olsaq, gələnilki seçkilərlə bağlı "ölüm-dirim mübarizəsi" ifadəsini işlətmək yerinə düşər. Bu da təsadüfi deyil. Çünki bu, 2018-ci ildə siyasi səhnədən süpürülərək tarixin zibilliyinə atılan radikal revanşist müxalifətin yenidən toparlanaraq, necə deyərlər, son gücünü toplayaraq rəqibinə qalib gəlmək üçün sonuncu şansıdır. Əgər onlar bu seçkiləri də uduzsalar, o zaman yaxın və uzaq perspektivdə heç nəyə ümid edə bilməyəcəklər.

İqtidar isə seçkilərə ona görə müstəsna əhəmiyyət verir ki, hakimiyyəti əldə saxlamaq onlar üçün həm də, necə deyərlər, azadlıqda qalmaq vasitəsidir. Sirr deyil ki, müxalifət 2018-ci ildən etibarən Ermənistanın yaşadığı bütün uğursuzluqlara görə hazırkı iqtidarı təqsirkar bilir. Onların fikrincə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindəki məğlubiyyət, 2023-cü ildə antiterror əməliyyatı Paşinyanın yol verdiyi siyasi səhvlərin nəticəsidir. Elə bu yaxınlarda ölkənin üçüncü prezidenti Serj Sarkisyan "İmnemnimi" podkastına verdiyi müsahibədə müharibənin başlanmasının əsas səbəbi kimi Paşinyanın Azərbaycanla aparılan danışıqlar prosesini pozmasını göstərmişdi. Müxalifət Paşinyandan və onun komandasının əsas üzvlərindən ilk növbədə müharibədəki məğlubiyyətə görə cavab vermələrini tələb edəcək. Təbii ki, məhkəmə müstəvisində.

Digər tərəfdən ötən 7 ildə müxalifət nümayəndələrinin bir çoxu həbsə atılıb. O cümlədən ikinci və üçüncü prezidentlər cinayət təqibinə məruz qalıblar. Hətta Robert Koçaryan bir müddət məhbəs həyatı yaşayıb. Müxalifət iddia edir ki, hazırda parlament üzvləri, müxalifət liderləri, iş adamı Samvel Karapetyan, Gümrü meri Vardan Qukasyan və onun oğlu Spartak, Erməni Apostol Kilsəsinin iki yüksək vəzifəli nümayəndəsi – Baqrat Qalstanyan və Mikael Acapaxyan da daxil olmaqla təxminən 20 nəfər törətdikləri sübut olunmuş cinayətə görə deyil, hökumətin siyasəti ilə razılaşmadıqlarına görə həbsdə saxlanılır. Hakimiyyət dəyişikliyi baş verərsə, həbsxanada və azadlıqda olanların yerlərinin dəyişəcəyi qaçılmaz olacaq.

İqtidar seçkilərə Azərbaycanla sülh gündəmini irəli aparmaq vasitəsi kimi yanaşır. Paşinyan bir neçə ay əvvəl qeyd etmişdi ki, erməni xalqı seçki zamanı sülh və yeni müharibə arasında seçim etməlidir. Bir neçə gün öncə isə Nikol deyib ki, 2026-cı il seçkilərində xalqının sülhün tərəfdarı olmasını gözləyir. O, Ermənistanın gələnilki dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi zamanı deyib ki, 2026-cı il sülh üçün həlledici il olacaq, çünki növbəti



parlament seçkiləri iyunda keçiriləcək: "Və bu seçkilərdə əsas sual var ki, ona cavab verilməlidir. Ermənistan xalqı öz seçimi ilə sülhün tərəfdarı olmalıdır. Bu, qarşıdan gələn seçkilərin əsas siyasi mənası və məqsədidir".

Noyabrın 22-də isə Paşinyan bildirib ki, Ermənistan yeni Konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilmə vaxtını müəyyənləşdirib. Referendum parlament seçkilərindən sonra təşkil olunacaq. Karen Dəmirçyan adına İdman-Konsert Kompleksində dövlət qulluqçuları ilə görüşü zamanı Nikol bildirib ki, seçkilərdən əvvəl siyasi qüvvələr cəmiyyətə bu məsələyə dair öz mövqelərini təqdim etməli, çoxluq qazanmış qüvvənin mövqeyi isə yeni Konstitusiya layihəsinin formalaşdırılmasında həlledici rol oynamalıdır.

Yeri gəlmişkən, qeyd edək ki, bu yaxınlarda Vaqarşapatda (kilsənin dini mərkəzi olan Eçmiədzin) keçirilən yerli seçkilərdə hakim "Mülki müqavilə" partiyasının nümayəndəsi Arqişti Mexakyanı qalib gəlib. Paşinyan bu fikirdədir ki, Vaqarşapat sakinləri etdikləri seçim Eçmiədzinin Ktriç Nersisyandan (katolikos II Qaregin) azad olunması prosesinə mühüm təkan veriblər. Bundan əlavə, Nikol "Mülki müqavilə" üzvlərini və Ermənistan Respublikasının bütün vətəndaşlarını "2026-cı il ümumxalq seçkilərinin möhtəşəm başlanğıcı" münasibətilə təbrik edib.

*

Ermənistan mediası da gələnilki seçkilərə xüsusi diqqət ayırır. Ölkənin əsasən analitik məqalələr üzrə ixtisaslaşmış və obyektivliyi ilə seçilən "ArmenianReport" saytı "Paşinyan və sabiqlər həlledici döyüşə hazırlaşırlar" sərlövhəli məqalə dərc edib. Məqalədə bildirilib ki, bugünkü Ermənistanda səslər uğrunda ölüm-dirim mübarizəsi gedir: "Bir neçə gündür ki, müxalifət qüvvələri Vaqarşapat Ağsaqqallar Şurası seçkilərində niyə uduzduqlarını anlamağa çalışırlar. Hakim partiyanın əleyhdarları çaşqınlıqla cavab axtarırlar: bu nə idi? Təsadüf? Uğursuzluq? Əgər 2026-cı il parlament seçkilərində də eyni qaydada uduzsalar necə olar? Bəlkə də onlar bazarlığa çıxıb özlərini hakimiyyətə daha yüksək qiymətə satmalıdırlar? Bu yaxınlarda Vaqarşapatda baş verənlər haqqında yazmışdıq, amma müxalifət mətbuatı bu barədə danışmağa çalışdığı üçün mövzuya yenidən baxmaq qərarına gəldik".

Qeyd edilib ki, ilk növbədə "seçki saxtakarlığı" ilə bağlı bütün eyhamların sərt reallıqla puç olmasından başlamaq lazımdır: "Hakimiyyətin heç nəyi saxtalaşdırmağa ehtiyacı yox idi, çünki müxalifət əvvəldən əlverişsiz vəziyyətdə idi. Əvvəla, müxalifətin parçalanması və aydın siyasi iradə və proqramın olmaması "Mülki müqavilə"-nin əlinə işlədi. Razılaşın ki, hakimiyyəti yalnız sərt tənqid edənlərə, konkret bir şey təklif etməyənlərə az adam səs verər".

Bildirilib ki, hökumətin öyünəcək çox şeyi var: "İstədiyimiz qədər tez olmasa da, Vaqarşapatda həyat səviyyəsi durmadan yaxşılaşır. Sosial infrastruktur yenilənir, insanların məişət şəraiti yaxşılaşır və Qarabağdan gələnlərin problemləri həll olunur. Struktur və konseptual dəyişikliklər sayəsində iqtisadiyyat böyüyür, müəssisələrə təzyiq göstərilmir və xidmət sektoru davamlı artım yaşayır. Bütün bunlar aydın görünür. Hər birimiz bu müsbət dəyişiklikləri birbaşa hiss edirik".

Məqalədə qeyd edilir ki, bu gün demək olar bütün siyasi qüvvələr həlledici döyüşlərinə – 2026-cı il parlament seçkilərinə hazırlaşırlar: "Bəli, qarşı tərəfdəkilər hökumətə meydan oxuya biləcəklərinə inanaraq cəsarətli görünüş nümayiş etdirirlər. Lakin yenə də müxalifətin parçalanması səbəbindən son nəticəyə o qədər də əmin olmazdıq. Onlar səylərini birləşdirə, öz düşərgələrindən Paşinyanın rəqiblərinə rəhbərlik edəcək əsas fiquru namizəd göstərə bilmirlər. Məlum olduğu kimi, bu rol uğrunda hər kəs mübarizə aparır".

Əsas pərdəarxası mübarizənin isə, əlbəttə, Koçaryan, Sarkisyan və Karapetyan arasında getdiyi bildirilir: "Onların heç biri təslim olmaq niyyətində deyil – hər biri yorğanı öz üzərinə çəkir. Gələn ilin yayınadək heç bir konsolidasiya əlaməti yoxdur. Bu o deməkdir ki, hamısı seçki məntəqələrinə qu quşu, xərçəng və durnabalığı kimi gedəcək və səsləri səpələyəcək. "Mülki müqavilə" partiyası bunu yaxşı bilir və buna görə də xüsusilə narahat deyil. Üstəlik, hökumət istehza ilə bəzi müxalifət qüvvələri ilə açıq şəkildə sövdələşmə aparır – şanslarını ayıq qiymətləndirənlər növbəti çağırış Milli Assambleyada mandatlar müqabilində, az da olsa, elektoral resurslarını təklif edərək sövdələşməyə razılaşırlar".

*(ardı 6-cı səhifədə)*

# "Sülh şüarları" "Sülh körpüsü"ndə

## *Azərbaycan–Ermənistan QHT dialoqu davam edəcək*

**Ötən ay Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvana səfərindən sonra noyabrın 21-22-də erməni nümayəndə heyətinin Bakıya gəlməsi Cənubi Qafqazda sülh gündəliyinin təsadüfi yox, ardıcıl və planlı konfiqurasiyada qurulduğunu göstərən ilk ciddi siqnallardan biridir.**

Təşəbbüs "Sülh körpüsü" kimi rəsmiləşdirildi, prosesin Vaşinqton Birgə Bəyannaməsi və ondan sonrakı texniki danışıqlar çərçivəsində davamlı elementə çevrildiyi vurğulandı. Bakıda keçirilən görüşdə iştirak edən erməni nümayəndələri – Areq Koçinyan, Boris Navasardyan, Naira Sultanyan, Narek Minasyan və Samvel Meliksetyan – Azərbaycan tərəfdən Fərhad Məmmədov, Rusif Hüseynov, Kəmalə Məmmədova, Ramil İskəndərli və Fuad Abdullayevlə iki gün ərzində cəmiyyətlərarası psixoloji baryerlərin necə idarə oluna biləcəyini müzakirə etdilər.



Müqayisəli yanaşsaq, Bakı görüşünün İrəvan mərhələsindən əsas fərqi ondadır ki, burada dialoqun institusional çərçivəsi razılaşdırıldı: prosesin "Sülh körpüsü" adı altında davam etməsi, növbəti altı ay üçün konkret fəaliyyət planının hazırlanması, media və ekspert səviyyəsində əməkdaşlığın ayrıca istiqamət kimi ayrılması qərara alındı.

Bu institutlaşdırma həm siyasi, həm də texniki baxımdan önəmlidir. Siyasi baxımdan ona görə ki, sülh gündəliyi ilk dəfədir kağız üzərində "gözləmə rejimi"ndən çıxıb ardıcıl mexanizmə bağlanır. Texniki baxımdan isə "Sülh körpüsü" formatı xalq diplomatiyasının klassik modelinə uyğunlaşdırılır. Dövlətlərin rəsmi danışıqları fonunda vətəndaş cəmiyyəti seqmentində paralel kanallar açılır və bu kanallar həm ictimai rəyin kəskin bucaqlarını yumşaldır, həm də rəsmi diplomatiya üçün riskli olan mövzuları sınaq mühitində müzakirə etməyə imkan verir.

Bakıda xüsusilə vurğulanan istiqamət media sahəsində birgə koordinasiyanın gücləndirilməsi oldu. Tərəflər informasiya mühitində qarşıdurma ritorikasını azaltmaq, dezinformasiya risklərini minimuma endirmək və sülh gündəliyinə zidd narrativlərin idarə olunması üçün əlaqələrin intensivləşdirilməsinə razılaşdılar. Bu, sülh müqaviləsinin davamlılığı üçün təhlükəsizlik komponentidir. Əgər tərəflər rəsmi danışıqlarda razılıq əldə edirlərsə, amma media mühitində qarşılıqlı demonizasiya halları yaşanırsa, istənilən siyasi şokda həmin razılaşmaların legitimliyi içəridən dağıla bilər. Azərbaycan üçün media əməkdaşlığı həm də o deməkdir ki, Ermənistan cəmiyyətinə ilk dəfə rəsmi Bakıdan yox, ekspert və QHT xəttindən strukturlaşdırılmış, emosiyasız informasiya paketləri ötürülə bilər.

Görüşdə qəbul edilən digər istiqamət ekspert qrupları arasında birbaşa əlaqələrin genişləndirilməsi oldu. Növbəti mərhələdə müxtəlif sahələr üzrə çalışan mütəxəssislər arasında sıx koordinasiya, ortaq analitik yanaşmaların hazırlanmasına, yəni gələcəkdə regionla bağlı birgə konseptual sənədlərin yazılmasına zəmin yaradacaq. Bu, formatı şüar səviyyəsindən çıxarıb, praktiki bilik istehsalı sferasına gətirir. Təcrübə də göstərir ki, Balkanlardan Yaxın Şərqə qədər əksər münaqişə zonalarında sülh prosesini davam etdirən əsas təbəqə məhz ortaq ekspert platformaları olub. Siyasi dalğalanma olanda belə, bu platformalar texniki dialoqu saxlayıb və müəyyən həddə qədər böhranı amortizasiya edib.

Mühüm epizodlardan biri də erməni nümayəndə heyətinin Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşməsi oldu. Görüş faktiki olaraq rəsmi diplomatiya ilə vətəndaş diplomatiyası arasında kəsişmə nöqtəsi funksiyasını yerinə yetirdi. Müzakirədə Vaşinqton Birgə Bəyannaməsindən sonra atılan addımlar, sülh və dövlətlərarası münasibətlər haqqında saziş mətninin paraflanması, Minsk mexanizminin bağlanması təşəbbüsü, kommunikasiya xətlərinin açılması və TRIPP marşrutu üzrə razılaşdırılan çərçivələr fonunda bu təşəbbüsün yerinə yetirəcəyi rol dəyərləndirildi. Deməli, vətəndaş cəmiyyətinin dialoqu artıq rəsmi xəttə paralel kimi yox, həmin razılaşmaların icrasını möhkəmləndirən yardımçı alət kimi nəzərdən keçirilir.

Beynəlxalq müstəvidə "Sülh körpüsü" prosesini alternativ paralellər fonunda oxuyanda fərq daha aydın görünür. Brüssel formatı uzun müddət sülh gündəliyini bəyannamələr səviyyəsində saxladı, lakin cəmiyyətlərə toxunan mexanizm yaratmadı. Moskva xətti hərbi-siyasi təzyiq alətlərinə söykəndi və nəticədə etimad resursunu itirdi. Vaşinqton Bəyannaməsi isə çərçivəni müəyyən etsə də, onun aşağı səviyyələrdə real həyata keçməsi üçün vasitəçi platformalara ehtiyac var idi. "Sülh körpüsü" məhz bu boşluğu dolduran yerli mərkəzli mexanizmdir.

Bu mənzərədə noyabrın 21–22-də Bakı görüşü sülh prosesinin yeni mərhələyə keçidinin indikatoru kimi oxumaq daha məntiqlidir. İrəvan–Bakı xəttində vətəndaş cəmiyyəti dialoqu artıq epizodik aksiyadan çıxıb, Vaşinqton təmasından sonra yaranmış siyasi pəncərəni dolduran davamlı platformaya çevrilir. Bu platformanın real dəyəri isə bir neçə ay sonra – razılaşdırılan layihələr işə düşəndə, media gündəmində qarşılıqlı koordinasiya görünəndə, ekspert səviyyəsində birgə analitik sənədlər ortaya çıxanda ölçüləcək. Hazırda məlum olan budur: Azərbaycan sülh gündəliyini emosional yox, strukturlu formata keçirib və "Sülh körpüsü" bu strukturun test meydançasıdır.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Rusif HÜSEYNOV,**
**Topçubaşov Mərkəzinin direktoru, siyasi analitik**

Azərbaycan nümayəndə heyətinin Ermənistana səfərindən bir ay sonra qarşı tərəf də Bakıya cavab səfəri etdi. Bu ardıcıllıq bizim üçün prosesi təsadüfi epizodlardan çıxarıb idarə olunan formaya gətirən vacib addımdır. Məqsəd fasilələr yaratmadan davamlılığı qorumaqdır. Çünki sülh prosesi dayandığı hər gün yenidən sıfırlanma riski ilə üzləşir. Bu mənada "Sülh körpüsü" çərçivəsində iki ölkənin nümayəndə heyətləri arasında görüşləri daha da intensivləşdirmək zərurəti yaranacaq.

Bu dəfə də iki qrup arasında geniş müzakirələr oldu. Təşəbbüsə "Sülh körpüsü" adının verilməsi prosesin özünü sabitləşdirən simvolik qərardır. Ad seçimi niyyətin yönünü müəyyən edir. Ad olanda məsuliyyət də dəqiqləşir, çünki artıq hər görüş bu çərçivənin davamı kimi qiymətləndirilir.

Burada bir məqamı ayrıca vurğulamaq lazımdır: bizim qrupların funksiyası hökumətlərin qərarını əvəz etmək deyil. Əksinə, iki dövlət arasında razılaşmaların cəmiyyət tərəfindən qəbul edilə bilməsi üçün lazım olan informasiya mühiti, psixoloji keçid və analitik dəstəyin formalaşdırılmasıdır. Bu, əvvəllər regionda heç vaxt nəzərə alınmayan bir boşluq idi. İndi isə boşluq planlı şəkildə doldurulur.

Görüşün nəticəsi konstruktiv oldu. Biz həm yaxın müddətdə görülə biləcək işləri müəyyənləşdirdik, həm də daha böyük çərçivənin konturlarını aydınlaşdırdıq. Əsas fərq odur ki, bu dəfə danışıqlar gələcək üçün sınaq addımı deyil. Bu, artıq davamlı prosesin özüdür. Qarşıdakı dövrdə bu görüşlərin nəticələrini konkret işlər, görünən əməkdaşlıq və ölçüləbilən tərəqqi formasında görəcəyinizə ümid edirəm.

# Azərbaycan Prezidentinin Mərkəzi Asiya zəfəri

**IV MƏQALƏ**

### Əməkdaşlıq fəlsəfəsində genişlənmə

Azərbaycan Prezidentinin Mərkəzi Asiya regionu istiqamətində ciddi uğurlar əldə etməsi heç də təsadüfi deyildir. Əvvəla, dünyanın istənilən regionunda geosiyasi vəziyyət çox mürəkkəb və risklərlə zəngindir. Bundan başqa, böyük güclərin nüfuz uğrunda rəqabəti sərhəd tanımır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycana qarşı ərazi bütövlüyünü və tam suverenliyini təmin etmiş dövlət kimi qısqanclıqlar az deyildir.

Məsələnin ideya tərəfi də çox önəmlidir. Məlumdur ki, Azərbaycanın Mərkəzi Asiyadakı türk dövlətləri ilə əlaqələri böyük əhəmiyyət daşıyır. TDT bu bağlılıqda strateji əhəmiyyəti qəbul edilən bir təşkilatdır. Ancaq Azərbaycan Mərkəzi Asiyaya etno-mədəni çərçivəni aşaraq, ümumiyyətlə, müasir dövrdə dövlətlərarası əlaqələrin qarşılıqlı faydalı qazanc əsasında qurulmasına nail olmuşdur.

Tacikistanla Mərkəzi Asiyanın başqa dövlətləri arasında Azərbaycan əməkdaşlıq məsələsində heç bir fərq qoymur, əksinə, regionun bütövləşməsi üçün mümkün olan addımları atır. Deməli, Azərbaycan Prezidentinin Mərkəzi Asiya istiqamətində fəaliyyətinin təməlində aydın bir ideya mövqeyi dayanır: əməkdaşlıq fəlsəfəsini hər bir iştirakçı dövlətin maraqlarını nəzərə almaqla genişləndirmək.

Tezis sadə olsa da, reallaşması çox dərin siyasi-diplomatik fəzilətlilik tələb edən mövqedə daimi qalmağı aktuallaşdırır. Bunun üçün isə iki faktor gərəkdir: birincisi, uyğun ideya və ideologiya, ikincisi, liderin çevik yaradıcı yanaşma potensialı və təcrübəsi. Birinci şərt layiqli siyasi varislikdən qaynaqlanır, ikinci isə liderin şəxsiyyət kimi keyfiyyətlərə malik olması və əldə etdiyi təcrübəni müasirliyin prizmasında düzgün yönləndirməsi ilə sıx bağlıdır. Hər iki aspekt üzərində Mərkəzi Asiya kontekstində bir qədər geniş dayanaq.



### “Bir millət, iki dövlət”: ideya generatoru

Bu, yalnız Azərbaycan dövlətçiliyi aspektində deyil, bütövlükdə Türk dünyası və ondan geniş geosiyasi məkanda fəaliyyətin strategiyasını dəqiq müəyyənləşdirmək kontekstində perspektivdir. Onun səbəbi kəlamın müasir dünya tarixində “millət” anlayışına dövlətçilik kontekstində verdiyi unikal anlamla bağlıdır. Kəlam daxilində “millət” həm vahid etnomədəni məxsusluğu ifadə edir, həm də başqa etno kimliyə malik olan qövmlərlə əməkdaşlığa açıqlığı ehtiva edir. “Millət” anlayışını bu iki aspektin vəhdətindən kənarda dərk etmək “bir millət, iki dövlət” kəlamının fəlsəfəsini yarımçıq qavramaq deməkdir.

Buradan fəlsəfi məntiqlə belə alınır: “bir millət, iki dövlət” etnomədəni vahidliyi, bütövlüyü tarixi rakursda önə çəkən təməl prinsipdir. Hətta deyərdik ki, müasir dövlətçilik baxımından türk törəsinin uğurlu proyeksiyasıdır, yəni yeni “törədir”!. Çünki alimlər “törə”yə “dəqiq qayda əsasında yaratmaq” anlamını da verirlər. “Bir millət” termini kəlamda buna görə həm etno mənsubluqdur, həm də o keyfiyyətdə funksional olaraq ancaq təməl törə qaydasıdır. Yəni müasir mərhələdə türk xalqları müstəqil dövlətlərini ən perspektivli şəkildə fəaliyyətin təməl prinsipi kimi “bir millətin təmsilçiləri” tezisini avtomatik, törə qaydası kimi qəbul etməklə nail ola bilərlər.

Bununla yanaşı, siyasi-diplomatik fəaliyyətdə, başqa xalqlarla əməkdaşlıq nəinki məhdudlaşdırılır, əksinə, böyük uğurun məhz digər qövmlərlə əməkdaşlıq və təhlükəsiz şəraitdə yaşamaq vasitəsilə mümkünlüyü vurğulanır. Bu, Ulu öndərin kəlamının olduqca mühüm ideya tərəfidir ki, bizim dərindən dərk etməyimiz zəruridir. Həmin məqam Prezident İlham Əliyevin fəaliyyətində mükəmməl şəkildə siyasi varisliklə kreativ liderliyin ideya sahəsində özünü biruzə verməkdədir.

Deməli, “bir millət, iki dövlət” ideya kimi saymaqla və seçməklə bağlı deyil. O, bu mənada “bir millət, altı dövlət” də ola bilər, lakin olduğu andan “bir millət, altı dövlət”+” formulunun anlamının və feili davranışın konseptual əsasını da qoymuş olur. Azərbaycan türk siyasi təfəkküründə toplum və dövlət olaraq özünütəşkiletmək, özünüyaratmaq fəlsəfəsinin sinerjisi bundan ibarətdir. Ulu öndərin kəlamı ideyaca özünü daim “yaradır” və praktikada konkret obrazlaşır. Bu proses tükənməzdir, əbədidir.

Burada nəzəri təhlili dayandırıb, vurğulanan fikirlər prizmasında “C6+1” və “TDT+” formullarına baxaq.

### “TDT+”: konsepsiya və strategiya

Azərbaycan Prezidenti bu formulun konseptual anlamını siyasi-diplomatik müstəvidə nəticəverici strategiyaya proyeksiya edən liderdir. Prezident İlham Əliyevin xarici siyasətin prioritetlərindən biri kimi TDT-ni gücləndirməyi müəyyən etməsini xatırlayaq. Bu, İlham Əliyevin seçki platformasında aydın vurğulanmış üstün istiqamətlərdən biridir. Sonra dövlət başçısının Andiçmə mərasimində TDT haqqında ifadə etdiyi prinsipial tezisləri xatırlayaq. Nəhayət, Qəbələ Zirvəsində Azərbaycan liderinin irəli sürdüyü tezisləri bir daha yada salaq.

Qısa vurğuladığımız bu məqamlar geniş nəticə çıxarmağa əsas verir: Azərbaycan Prezidenti ardıcıl, sistemli və düşünülmüş formada TDT-nin “TDT+”a çevrilməsi xəttini aparmaqdadır. Bu prosesdə Mərkəzi Asiya xüsusi yer tutur.

Birincisi, etiraf edək ki, Türkmənistan TDT-yə qoşulmaq fikrinə yaxın deyildi. İlham Əliyevin dəfələrlə regiona səfər etməsi, konkret təşəbbüslərlə çıxış etməsi əvvəlcə Aşxabadı təşkilatda müşahidəçi etdi, indi isə yeni səviyyədə əməkdaşlıq prosesi başlamışdır. Türkmənistan rəhbərliyinin Bakıya səfərləri intensivləşdirməsi bunun əlamətlərindən biridir.

İkincisi, Azərbaycan dövlət başçısı Tacikistanla əlaqələrə ardıcıl olaraq xüsusi əhəmiyyət vermişdir və atdığı addımlarla qardaş tacik xalqı ilə daha da yaxınlaşması prosesinin təməlini qoymuşdur. Bunun sayəsində Tacikistan, faktiki olaraq, “TDT+”un real təsdiqlərindən biridir.

İndi bir sıra ekspertlər coğrafi olaraq bir qədər də uzağa gedərək qardaş Pakistanı “TDT+” kontekstində görməyə başlayırlar. Əlbəttə, Pakistanla münasibətlər həmişə müsbət mənada seçilmişdir, lakin indi söhbət Bakının təşəbbüsü ilə təşkilatlanmadan gedir. Bu isə başqa bir səviyyə və miqyasdır.

Bunlar onu göstərir ki, “TDT+” nəzəri konsepsiya kimi çoxşaxəli anlama malikdir. Eyni zamanda, Azərbaycan lideri onu praktiki reallaşma prosesinə start verilmiş strategiya olaraq həyata keçirməkdədir.

Bu bağlılıqda “C6+1” çox maraqlı bir geosiyasi konfiqurasiya nümunəsi təsiri bağışlayır.

### “C6+1” və “TDT+”un ortaq gücü

“C6+1”in birinci geosiyasi xüsusiyyəti Tacikistanın regionun 4 türk dövləti və Qafqazın bir türk dövləti ilə bir geosiyasi konfiqurasiyada yer alması ilə bağlıdır. Bu məqam həm “TDT+”un mümkün formalarından biridir, həm də 6 dövlətin qarşısına konkret əməkdaşlıq və təhlükəsizlik məqsədi qoymuş dövlətlərin bir araya gəlməsidir.

İkinci geosiyasi xüsusiyyət “beş region dövləti+ bir Qafqaz dövləti” platformasının eyni dərəcədə “C6+1” və “TDT+” aid olması ilə əlaqəlidir. Bu, maraqlı “geosiyasi təşkilatlanma üçbucağıdır”. Onu hələ tədqiq etmək gərəkdir.

Burada önəmli olanı “beş region dövləti+bir Qafqaz dövləti” platformasının hansı anlamlarda “C6+1” və “TDT+”nin transformasiyalarını stimullaşdıra bilməsidir. Burada hansı formul daha önəmlidir: “C6+1” yaxud “TDT+”? Liderin müdrikliyi məhz bu kimi düşündürücü suallara adekvat cavablar verməsi ilə bağlıdır.

Azərbaycan lideri bu formulların geosiyasi faydalılıq baxımından qarşılıqlı əlaqəsinin sinerjisi məsələsini önə çıxarır. Yəni məsələni “C6+1” – “TDT+” dixotomiyası çərçivəsində qoymur. Əsas hədəf bu formulların geniş coğrafiyada və geosiyasi məkanda konstruktiv, faydaverici funksiyanı uğurla yerinə yetirməsindən ibarətdir. Bu ümumi konseptual qiymətləndirmə fonunda tərkib məsələsi az əhəmiyyət daşımır.

Bu mənada “C6+1”n tərkibini yada salaq: 5 türk dövləti (onların dördü bir regionu, biri isə başqa regionu təmsil edir) +dörd türk dövləti ilə eyni regionda yerləşən dost dövlət. Lakin bu, “C6”dır, “C6+1” deyildir. Mərkəzi Asiyadakı Tacikistan “+1”ə aid deyildir, “C6”nın tamhüquqlu sayğılı üzvüdür. Azərbaycan da “+1”ə aid deyildir, eyni qayda ilə “C6”nın hörmətli üzvüdür. O halda “+1” dünyanın istənilən regionunda olan güclü dövlətə aid ola bilər. Deməli, “C6+1” açıq bir geosiyasi konfiqurasiyadır.

“TDT+” funksional və təşkilatlanma fəlsəfəsi baxımından “C6+1”ə oxşardır. TDT-nin tərkibində yalnız türk dövlətləri vardır. Macarıstan müşahidəçidir. Onda bu iki formulun nüvəsini türk dövlətləri təşkil edir. Həm də məqsəd baxımından hər iki təşkilat qarşılıqlı faydaverici mövqedədirlər. Deməli, “C6+1” müəyyən mənada “TDT+”a daxil ola və ya artıq onun praktiki mümkünlüyünün təsdiqi kimi qəbul edilə bilər.

Bundan başqa, “C6+1” “TDT+”un alt sistemi kimi də təsəvvür edilə bilər. Lakin o, TDT-nin törəmə təşkilatı deyildir. Hazırda bu iki təşkilat müəyyən geosiyasi məsələlərdə bir məqsəd uğrunda ortaq fəaliyyət göstərə bilirlər. Nümunə kimi, Zəngəzur dəhlizi məsələsini göstərmək olar. Qazaxıstan həmin istiqamətdə Ermənistanla fəal siyasi-diplomatik iş aparır.

Belə alınır ki, Azərbaycan, faktiki olaraq iki perspektivli və dünya tərəfindən müsbət qəbul edilən təşkilatın gücünü etnomədəni kontekstdən çıxararaq, qlobal geosiyasət miqyasında əhəmiyyəti olan məsələlərin həllində birləşdirə bilmişdir. Buna Azərbaycan Prezidentinin aparıcılığı ilə nail olunmuşdur.

Beləliklə, Prezident İlham Əliyevin Mərkəzi Asiya zəfərinin anlamı çox genişdir. Böyük bir coğrafiyada xalqlar və dövlətlər onun töhfəsini görəcəklər. Burada əməkdaşlıq və təhlükəsizlik istiqamətləri bir-birini tamamlayırlar. Eyni zamanda, milli, regional və qlobal miqyaslarda müxtəlif xarakterli faktorlar arasında müsbət bağlantılar yaradılır.

Bu proseslər həm də yeni bir səviyyədə təşkilatlanma imkanlarının qapısını açır. Təməl prinsipləri məlum olan TDT və C6 geniş geosiyasi məkan üçün stimulverici rol oynaya bilər. Bu da onu ifadə edir ki, Azərbaycan artıq özünəməxsus funksiyaları olan Orta Güc nümunəsidir. Onun nüfuzetmə dairəsi davamlı olaraq genişlənir və eyni zamanda, yeni əməkdaşlıq platformalarının yaradılmasını motivə edir. Azərbaycan dövlət olaraq türklərin tarixini həm yenidən yaradır, həm də onu ədalətli şəkildə yenidən yazır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Həlledici sınaq ili

*(əvvəli 5-ci səhifədə)*

“ArmenianReport”ın təqdim etdiyi mənzərə Ermənistanda 2026-cı il parlament seçkilərinə gedən yolun nə qədər gərgin və çoxqatlı olduğunu göstərir. Vaqarşapatda baş verən son seçki fiaskosu əslində, müxalifətin struktur zəifliklərinin lokal yox, sistemli xarakter daşıdığını üzə çıxardı. Hakimiyyətin heç bir saxtakarlığa ehtiyac duymaması barədə vurğular isə Ermənistanda seçki prosesinin mahiyyətini iki məqamla izah edir: birincisi, müxalifətin ciddi ideoloji xəttdən və vahid liderdən məhrum olması, ikincisi isə Paşinyanın sosial-iqtisadi sahədə müəyyən sabitlik görüntüsü yarada bilməsidir.

Hakim komanda çox yaxşı anlayır ki, real rəqib yalnız güclü təşkilatlanmış və konsolidasiya olunmuş müxalifət ola bilər. Bu isə indiki şəraitdə əlçatmaz görünür. Koçaryan, Sarkisyan və Karapetyan arasında gedən pərdəarxası çəkişmə təkcə şəxsi ambisiyalar deyil, həm də Ermənistanın siyasi sistemində dərin parçalanmanın təzahürüdür. Bu üçlük eyni düşərgədə olsa da, heç biri o birini lider kimi qəbul etmir. Nəticədə müxalifət elektoratının səsləri əvvəldən parçalanır və “Mülki müqavilə” üçün təhlükə kəskin azalır.

Eyni zamanda, iddia edildiyi kimi hökumətin bəzi müxalif qüvvələrlə açıq şəkildə “mandat bazarlığına” getməsi seçki texnologiyası baxımından çox incə hesablanmış addımdır. Bu həm müxalif cəbhəni zəiflədir, həm də Paşinyanın parlament çoxluğunu təmin edən siyasi zonanı genişləndirir. Beləliklə, 2026-cı seçkiləri Ermənistan üçün sadə siyasi yarış deyil, ölkənin gələcək güc bölgüsünü müəyyən edəcək həlledici döyüş olacaq. Lakin indiki mənzərə Paşinyanın bu döyüşdə rəqiblərindən daha sistemli, daha hazır və daha parçalanmamış göründüyünü göstərir.

***Səxavət HƏMİD***
***XQ***

## YAP nümayəndə heyəti Braziliyada



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Mərkəzçi Demokrat İnternasionalının (IDC-CDI) dəvəti ilə Braziliya Federativ Respublikasında səfərdə olub.**

Noyabrın 21-də nümayəndə heyəti San-Paulu şəhərində IDC-CDI, Braziliyanın Sosial Demokrat Partiyasının Demokratik Məkan Fondu və Konrad Adenauer Fondunun birgə təşkilatçılığı ilə keçirilən “Demokratik müzakirə: sağ-mərkəzin siyasətdə körpülər qurması və həllər təklif etməsi” mövzusunda Forumda iştirak edib.

Tədbirdə yeni dünya nizamına keçid prosesinin geniş vüsət aldığı müasir dövrdə qlobal kataklizmlərin hökm sürdüyü, bu səbəbdən də milli, regional və beynəlxalq təhlükəsizlik məsələlərinin aktual çağırış kimi xalqlar və dövlətlərin qarşısında dayandığı qeyd olunub. Bildirilib ki, hazırda bəşəriyyətin sağlam gələcəyi naminə intensiv dialoqa ehtiyac duyulur və bu kontekstdə sosial məsuliyyət daşıyıcısı kimi siyasi partiyaların da üzərinə mühüm vəzifələr düşür.

Səfər zamanı, həmçinin YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyası Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara və Macarıstanın hakim Fides partiyasının vitse-prezidenti, Avropa Parlamentinin üzvü Kinqa Qal ilə görüşüb. Görüşlər zamanı partiyalararası əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# “Freedom House”u lobbiçilik yönləndirir

**“Freedom House” tərəfindən hazırlanan “İnternet azadlığı indeksi-2025” hesabatında əsas vurğu Rusiyanın üzərində köklənib. Sənədin şərh bölümündə qeyd edilir ki, “Ukraynaya qarşı təcavüzün başlanmasından sonra Rusiya hökuməti ölkədə onlayn məzmuna nəzarət etmək cəhdlərini intensivləşdirib. Öncə ABŞ-da yerləşən 3 fərqli sosial media platformasına – Twitter, Facebook və Instagramın yayımına məhdudiyyətlər qoyulub. Bu, internetdə ən uzunmüddətli qadağa kimi tarixə düşüb. Daha sonra ölkə ərazisində yüzlərlə KİV-ə məxsus saytın fəaliyyəti bloklanıb”.**

Paradoksal haldır ki, “Freedom House” Rusiyanın bloklama siyasətinə qarşı cavab addımı atan dövlətləri də eyni dərəcədə tənqid edib. Məsələn, Rusiyanın təxribatçı əməllərinə, yanlış təbiliğatına xidmət edən KİV-in, o cümlədən “Sputnik”in yayımını öz ərazisində məhdudlaşdıran Azərbaycanı da “internet azadlığını pozan” ölkələr sırasına daxil edib. Avropa İttifaqı analoji addımı hələ 2022-ci ildə atmışdı. 2022-ci il fevralın 27-də Rusiya KİV-inin, məxsusi olaraq RT və “Sputnik”in Aİ məkanında yayımını tamamilə qadağan etmişdi. Amma “Freedom House” bu addıma görə Avropa İttifaqını qınamamışdı. Bəs eyni əmələ görə Azərbaycanı niyə tənqid edir?

İkili standartlar “Freedom House” fəaliyyətində çox aydın görünür. Müstəqil araşdırma və hüquq müdafiə təşkilatı kimi təqdim olunmasına baxmayaraq, “Freedom House” uzun illər ərzində yayımladığı hesabatlarda özünün qeyri-obyektiv, qeyri-peşəkar olduğunu, siyasi sifarişlərin təsiri altında fəaliyyət göstərdiyini sübut edib. Onun Azərbaycanla bağlı dəyərləndirmələrində ardıcıl şəkildə qərəzli mövqe nümayiş etdirməsindən belə nəticə çıxır ki, təşkilat öz hesabatlarını əsasən lobbi qruplarının maraqlarına uyğun formalaşdırır. Bu sırada “erməni lobbi qrupları”nın təsirini qəbul edir.



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***




Təşkilatın son “internet azadlığı” hesabatı da bu tendensiyanın növbəti nümunəsidir. Hesabatda iddia edilir ki, guya Azərbaycanda müntəzəm olaraq internet məhdudlaşdırılır, hökumətin fəaliyyətini tənqid edənlər isə “dövlət əleyhinə çıxanlar” kimi təqdim edilir. Bu, həm təhrifdir, həm də faktların şişirdilmiş interpretasiyasıdır. Azərbaycanda internet platformalarına, sosial şəbəkələrə yalnız milli təhlükəsizlik və ictimai asayişi qorumaq məqsədilə dolayı tənzimləmələr tətbiq oluna bilir və bu, dünyanın bütün demokratik ölkələrində mövcud olan üsuldur.

Məsələn, TikTok-un fəaliyyəti bizdə yalnız 2023-cü ildə, antiterror tədbirləri dövründə bir neçə gün ərzində məhdudlaşdırılıb. Amma ABŞ-da TikTok uzun aylar ərzində bağlanılıb. TikTok-un Azərbaycanda məhdudlaşdırılması təhlükəsizlik amilləri ilə bağlı olub, ABŞ-da siyasi mülahisələrlə əlaqələnib. Bu kontekstdə yanaşsaq, “Freedom House” gərək ABŞ-ın adını “qara siyahı”ya salsın. Amma etmir, bu konteksti tamamilə görməzdən gəlir.

Cənubi Qafqaz regionunda mövcud olan dövlətlərə yanaşmasına müqayisəli baxdıqda təşkilatın qeyri-obyektivliyi daha aydın görünür. O, son 15 il ərzində hazırladığı bütün hesabatlarında Azərbaycanı dəyişməz şəkildə “qeyri-azad ölkə” kimi təqdim edib. Bu, regionda baş verən ciddi siyasi dəyişikliklər fonunda xüsusilə anlaşılmazdır. Məsələn, 2018-ci ildə Ermənistanda dövlət çevrilişi baş verdi: Serj Sarkisyan devrildi, Nikol Paşinyan hakimiyyətə gəldi. Qərb dairələri bunu “demokratik dəyərlərin qələbəsi” kimi qiymətləndirdilər. Yəni Sarkisyan rejimini avtokrat, Paşinyan rejimini isə demokrat kimi dəyərləndirdilər. Amma “Freedom House” bu transformasiyanı öz hesabatlarına əks etdirmədi. Onun hesabatlarında Ermənistanın bütün dövrləri demokratiya görüntüsü ilə əks etdirilir. Niyə həm Sarkisyan, həm də Paşinyan dönəmi Ermənistanda eyni kateqoriyada – demokratiyanın inkişafda olduğu, “yarım-azad ölkə” kimi göstərilir?

Bu nümunədə bir nəticə çıxar: hansı siyasi komanda hakimiyyətdə olursa-olsun, hansı rejim qurulursa-qurulsun, “Freedom House” Ermənistanı Azərbaycan və Türkiyədən yüksək qiymətləndirməyə çalışır. Onun ABŞ-dakı erməni lobbi qrupları ilə yaxın əlaqələri barədə məlumatlar bu təsəvvürü gücləndirir. Təşkilatın Şərqi Avropa və Cənubi Qafqaz üzrə ekspert qruplarında Ermənistanyönümlü analitiklərin yer aldığı dəfələrlə mediada diqqətə çatdırılıb.

Onların 2024-cü il iyulun 1-də “Freedom House” adından yayımladıqları “Dağlıq Qarabağda niyə ermənilər yoxdur?” adlı xüsusi hesabat da bu qurumun tendensiyalı yanaşmasını bir daha nümayiş etdirdi. Sənədin məzmunu obyektiv təhlil deyil, Ermənistan tərəfinin narrativlərinin sorğu-sualsız təkrarı idi. Hesabatda münaqişənin tarixi kökləri, separatizmin mahiyyəti, Azərbaycanın suverenlik hüquqlarının bərpası kimi fundamental faktlar ya təhrif olunmuşdu, ya da ümumiyyətlə qeyd edilməmişdi.

Bu nümunələrin hər biri göstərir ki, “Freedom House” beynəlxalq hüquqi reallıqları deyil, müəyyən maraq qruplarının sifarişlərini əsas götürür. Obyektivlik iddiası ilə çıxış edən bu təşkilat əslində, geosiyasi təsirlərin daşıyıcısına çevrilib və region ölkələrinə münasibətdə ikili standartlar nümayiş etdirir. Təşkilat Azərbaycanla bağlı qeyri-real təsvirlər yaratmaqla, həm reytinq bazasını qorumağa, həm də siyasi qrupların maraqlarına xidmət etməyə çalışır.

# Şuşada Azərbaycan–Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu




**Şuşa şəhərində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan–Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu keçirilib. Tədbirdə hər iki ölkədən aparıcı analitik qurumların rəhbərləri, ekspertlər və tədqiqatçılar iştirak ediblər.**





Forumda BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev və Türkiyə Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Polat Safi çıxış ediblər. Çıxışlarda Azərbaycan–Türkiyə strateji müttəfiqliyinin regionda formalaşan yeni geosiyasi reallıqlar fonunda daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. Natiqlər beyin mərkəzləri arasında əməkdaşlığın iki ölkənin xarici siyasətinə analitik dəstəyin artırılmasına xidmət etdiyini bildiriblər.

AnewZ media qurumunun baş redaktor müavini Orxan Amaşovun moderatorluğu ilə keçirilən birinci sessiyada Azərbaycan və Türkiyənin xarici siyasətində əsas trendlər, Qafqaz regionunda dəyişən təhlükəsizlik arxitekturası və iki ölkənin diplomatik koordinasiya imkanları müzakirə edilib.

Müzakirələrdə iki ölkənin regional təhlükəsizlik, xarici siyasət strategiyaları və əməkdaşlıq imkanları təhlil olunub. Mütəxəssislər Azərbaycan və Türkiyənin regional siyasətdə artan rolunu, əməkdaşlığın yeni istiqamətlərini və qarşılıqlı strateji koordinasiya mexanizmlərini müzakirə ediblər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü Cavid Vəliyevin moderatorluğu ilə keçirilən ikinci sessiyada Türk Dövlətləri Təşkilatında inteqrasiyanın perspektivləri, iqtisadi və nəqliyyat əməkdaşlığının genişləndirilməsi, eləcə də vahid analitik yanaşmaların formalaşdırılması məsələləri diqqət mərkəzində olub.

Müzakirələrdə deputat, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc, İsmayıl Qaspiralı Xarici Siyasət İnstitutunun direktoru Əsma Özdaşlı, İbn Haldun Universitetinin Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin direktoru Yaşar Sarı, Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktoru Fərhad Məmmədov, Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmaç iştirak ediblər.

Paneldə Türk Dövlətləri Təşkilatı daxilində siyasi, iqtisadi, humanitar inteqrasiya və institusional əməkdaşlıq perspektivləri təhlil olunub. Həmçinin Türk dünyasında inteqrasiya proseslərinin yeni mərhələyə keçməsi üçün prioritet istiqamətlər və institusional əlaqələrin gücləndirilməsi müzakirə edilib.



Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Eldar Namazovun moderatorluğu ilə keçirilən üçüncü sessiyada nəqliyyat-kommunikasiya və enerji əməkdaşlığının strateji əhəmiyyəti, Zəngəzur dəhlizi və Orta Dəhlizin inkişafı, həmçinin Azərbaycan və Türkiyənin enerji diplomatiyasında yeni istiqamətlər müzakirə edilib.

Müzakirələrdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktorunun müavini Ramil Hüseyn, Türkiyə Araşdırma Fondunun vitse-prezidenti Enes Bayraklı, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Xəzər Universiteti Tarix və Arxeologiya Departamentinin müdiri Telman Nüsrətoğlu iştirak ediblər.

Sessiya çərçivəsində Zəngəzur dəhlizi, Trans-Xəzər marşrutu və enerji kommunikasiyalarında qarşılıqlı əlaqələr dəyərləndirilib. Həmçinin regional nəqliyyat dəhlizləri, enerji əməkdaşlığının strateji prioritetləri və qlobal enerji təhlükəsizliyinə iki ölkənin töhfəsi müzakirə edilib.

Forumda hər iki ölkənin beyin mərkəzlərinin ortaq cəhətləri vurğulanıb. Ekspertlər Azərbaycan və Türkiyənin analitik qurumlarının eyni regional prioritetlərə malik olduğunu, xarici siyasət, təhlükəsizlik, enerji və nəqliyyat məsələlərində oxşar strateji yanaşmalar ortaya qoyduqlarını bildiriblər.

Qeyd olunub ki, iki ölkənin beyin mərkəzləri arasında tədqiqat gündəliyi böyük ölçüdə üst-üstə düşür və bu əməkdaşlıq regiondakı proseslərin daha dərindən təhlilinə imkan yaradır. Bu platformanın təşkil edilməsi region üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan–Türkiyə intellektual əməkdaşlığı regional sabitlik və təhlükəsizlik baxımından yeni sinerji yaradır, TDT çərçivəsində vahid strateji yanaşmaların formalaşmasına, eləcə də Cənubi Qafqazda sülh və inkişaf modelinin möhkəmlənməsinə töhfə verir.

Tədbirin yekununda hər iki ölkənin beyin mərkəzləri arasında elmi-analitik əməkdaşlığın genişləndirilməsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi, birgə strateji hesabatların hazırlanması və növbəti forumların mütəmadi keçirilməsi müzakirə olunub.

XQ




# TDT ölkələrinin QHT-ləri Bakıda

**Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatları ilk dəfə bir platformada toplaşıb. Noyabrın 24-də Bakıda TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun açılışı olub.**

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin forum iştirakçılarına məktubunu oxuyub.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, Vətən müharibəsində qazanılan Zəfər təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının uğurudur və bu Qələbə ortaq birliyin və həmrəyliyin təntənəsidir. O, səkkiz ölkədən 500-ə yaxın nümayəndənin Bakıda qəbul edilməsindən məmnunluq ifadə edərək forumun yeni əməkdaşlıq istiqamətlərinin formalaşmasına və ortaq layihələrin sistemli icrasına töhfə verəcəyini vurğulayıb.



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı ofisinin rəhbəri Hayrettin Özçelik isə qeyd edib ki, qurumun əsas vizyonu ölkələrin iqtisadi, sosial və humanitar inkişafını təşviq etmək, ortaq tarixi və mədəni irs üzərində gələcəyi formalaşdırmaqdır. O bildirib ki, Bakı ofisi bu istiqamətdə 2 minə yaxın layihə həyata keçirərək Türk dünyasında əməkdaşlığın genişlənməsinə töhfə verir.

Açılış nitqlərindən sonra iki panel müzakirəsi keçirilib.

"Zəngəzur dəhlizi: türk coğrafiyasını birləşdirən körpü" mövzusunda keçirilən panel müzakirəsində regional əməkdaşlıq və vətəndaş cəmiyyətinin təşəbbüsləri əsas müzakirə mövzusu olub. Paneldə Türkiyənin Daxili İşlər Nazirliyinin Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin direktor müavini Özcan Aygün, Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Komitə sədri Babur Bekmuradov, Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyi yanında Vətəndaş Cəmiyyəti Məsələləri Komitəsi sədrinin müavini Zhanargül Alzhanova, Türkmənistanın "CAER" Layihə Ofisinin direktoru Mergen Kepbanov, Macarıstanın "Danube" İnstitutunun icraçı direktoru İstvan Kiss, eləcə də Şimali Kipr Türk Respublikasının Daxili İşlər Nazirliyinin aparat rəhbəri Mehmet Ercilasun çıxış ediblər.

Çıxışçılar Zəngəzur dəhlizinin Türk dünyası üçün strateji əhəmiyyətindən, bu marşrutun regiondaxili inteqrasiyanı gücləndirən mühüm nəqliyyat və əməkdaşlıq xətti kimi rolundan danışıb, vətəndaş cəmiyyəti institutlarının bu prosesə verdiyi töhfələri vurğulayıblar.

"Azərbaycan–Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu"na həsr olunan panel müzakirələrində iki ölkənin vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Paneldə "Bakı Politologiya Klubu" İctimai Birliyinin sədri Zaur Məmmədov, Qazaxıstanın "Sənin Gələcək" Respublika İctimai Birliyinin sədri Zhansaya İsmagulova, "Community Hub" İctimai Fondunun direktorları Asiya Tiryakova və Assiya Tikeyeva, "İkinci Respublika" İctimai Fondunun rəhbəri Ayan Turekulov, Azərbaycanın "Ortaq dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal, "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin sədri Şəlalə Həsənova və Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım İctimai Birliyinin üzvü Hacıbəy Heydərli çıxış ediblər.

Çıxış edənlər Azərbaycan və Qazaxıstan QHT-ləri arasında əməkdaşlığın gücləndirilməsinin regionda vətəndaş cəmiyyətinin inkişafına, sosial layihələrin daha effektiv icrasına və ictimai təşəbbüslərin koordinasiyasına mühüm töhfə verəcəyini bildiriblər.

Tədbir bədii-mədəni proqramla yekunlaşıb, forum isə işini Naxçıvanda davam etdirəcək.

Forum iştirakçıları 2026-cı ildə Azərbaycanda keçiriləcək 13-cü Dünya Şəhərsalma Forumuna dəvət olunacaq. Tədbir birgə bəyanatın qəbul edilməsi ilə başa çatacaq.

XQ

# Ölkəmiz UNESCO Komitəsinə üzv seçilib

**Noyabrın 24-də Parisdə Ümumdünya Mədəni və Təbii İrsin Qorunması üzrə 1972-ci il Konvensiyasına Tərəf Ölkələrin Baş Assambleyasının 25-ci sessiyası çərçivəsində UNESCO-nun Ümumdünya İrs Komitəsinin 2025–2029-cu illər üzrə üzvlüyünə keçirilmiş seçkilərdə Azərbaycan Respublikası Komitənin üzvü seçilib.**

Ciddi rəqabət şəraitində baş tutmuş seçkilərdə Şərqi Avropa regionu üçün ayrılmış 1 yer uğrunda ölkəmizlə birgə 5 ölkə mübarizə aparıb. Azərbaycan səsvermənin ilk mərhələsində 161 ölkədən 92-nin dəstəyini təmin edərək Komitəyə üzv seçilib.

21 üzv ölkədən ibarət olan Komitə UNESCO-nun Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsinə nəzarəti həyata keçirən əsas icra orqanıdır. Komitənin başlıca vəzifəsi UNESCO Ümumdünya İrs Siyahısının formalaşdırılması, dünya əhəmiyyətli mədəni və təbii irsin tanınması, qorunması və gələcək nəsillərə ötürülməsi üzrə fəaliyyətləri tənzimləməkdir.

Azərbaycan 2015–2019-cu illərdə də Komitənin üzvü olub və onun fəaliyyətlərinə əhəmiyyətli töhfələr verib. 2019-cu ilin iyul ayında Komitənin 43-cü sessiyasına ölkəmiz ev sahibliyi edib.

# XİN heyəti COP30 marafonunda




**Noyabrın 10-dan 22-dək Braziliyanın Belem şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 30-cu Sessiyası (COP30), noyabrın 6-7-də isə Sessiyanın Liderlər Zirvəsi təşkil olunub. Liderlər Zirvəsində Azərbaycan Respublikasının Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Milli Məclisin sədri Azərbaycan Respublikası adından bəyanat səsləndirib və bir sıra ölkələrin rəhbər şəxsləri ilə ikitərəfli görüşlər keçirib.**

Bu barədə Xarici İşlər Nazirliyi heyətinin COP30-da iştirakına dair mətbuat məlumatında qeyd olunub.

Bildirilib ki, COP30-un rəsmi açılış günündə COP-a sədrlik Azərbaycandan Braziliyaya təhvil verilib. COP29-un sədri, Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev COP30-un açılış sessiyasında çıxış edərək ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində əldə edilmiş tarixi nəticələr, eləcə də ölkəmizin COP-a sədrlik etdiyi dövr ərzində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib. M.Babayev, həmçinin COP29-un sədri qismində COP30 çərçivəsində təşkil olunmuş bir sıra tədbirlərdə iştirak və çıxış edib, digər nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirib.

COP30-un hər iki seqmentində Xarici İşlər Nazirliyinin heyəti də iştirak edib. Konfrans çərçivəsində XİN nümayəndə heyəti konfransın yekununda qəbul edilməsi planlaşdırılan qərarların qəbulu istiqamətində aparılan danışıqlara cəlb edilib və 2 mühüm qərarla bağlı danışıqların aparılması və həmin sənədlərin razılaşdırılması Azərbaycana həvalə olunub.

COP30-un sədri Andre do Laqo tərəfindən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliya xarici işlər nazirinin müavini Mauricio Lyrioya verilmiş COP31-in ev sahibliyinə namizəd ölkələr olan Türkiyə və Avstraliya arasında danışıqların aparılması səlahiyyəti çərçivəsində, 12 gün ərzində aparılmış intensiv danışıqlardan sonra COP31-in ev sahibliyinin Türkiyəyə verilməsi barədə qərar qəbul edilib.

Bununla yanaşı, COP30 çərçivəsində COP sədri tərəfindən Azərbaycan və Norveç nümayəndələrinə Paris Sazişinin Qlobal Qiymətləndirmə İcmalı (Global Stocktake - GST) ilə bağlı sənədlərin razılaşdırılması prosesinə onun adından rəhbərlik etmək və dövlətlər arasında danışıqlar aparmaq mandatı verilib. Bu danışıqlara Azərbaycan tərəfdən rəhbərliyi xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Norveç tərəfdən isə iqlim və ətraf mühit naziri Andreas Bjelland Eriksen edib.

Azərbaycan və Norveç tərəfi bütün danışıq qrupları ilə apardığı müzakirələrin nəticəsində mümkün qərar layihələrinə dair tövsiyələrini COP31-in Braziliya Sədrliyinə təqdim edib və bu müzakirələr müvafiq sənədlər üzrə qərarların qəbuluna töhfə verib.

XİN heyəti, həmçinin COP29 Sədrinin Fəaliyyət Gündəliyi çərçivəsində irəli sürülmüş sülh və miqrasiya, su, səhiyyə, şəhərlər və iqlim şəffaflığı mövzularında təşəbbüslərlə bağlı 5 tədbir keçirib. Bundan əlavə, Azərbaycan nümayəndə heyəti yenilənən enerji, hidrogen və kənd təsərrüfatı təşəbbüsləri ilə bağlı bir neçə tədbirin keçirilməsinə həmtəşkilatçı qismində dəstək göstərib.

Bununla yanaşı, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq, Azərbaycan və Braziliya tərəfi qlobal iqlim maliyyəsinin 1.3 trilyon ABŞ dollarına yüksəldilməsinə dair "Bakıdan Belemə Yol Xəritəsi"ni hazırlayaraq COP30 çərçivəsində təqdim edib.

XQ

*25 Noyabr Kəlbəcər Şəhəri Günüdür*

# "Qeyrətdən səngərli, qalalı dağlar" yağmaçı yağıya gözdağıdır

## *Doğma yurda qayıdışın öyüncü və sevinci*



**Azərbaycanın dövlətçilik salnaməsinə qızıl hərflərlə yazılan mühüm günlərdən biri də 2020-ci il noyabrın 25-dir. Bu tarix Kəlbəcərin 27 illik işğaldan azad edilməsi ilə respublikamızın ərazi bütövlüyünün bərpası prosesində dönüş nöqtələrindən biri oldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən əldə edilən tarixi Zəfərdən sonra Kəlbəcərin düşməndən geri alınması diplomatik və hərbi üstünlüyün parlaq göstəricisi idi. Dövlətimizin başçısı məhz həmin şərəfli tarixin əbədiləşdirilməsi məqsədilə "Kəlbəcər Şəhəri Günü"nün təsis edilməsi haqqında 2023-cü il iyulun 31-də sərəncam imzaladı.**

1930-cu il avqustun 8-də Kəlbəcərin inzibati rayon statusu alması bölgənin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı olub. Qafqazın ən mürəkkəb relyefinə malik rayonlarından biri kimi tanınan Kəlbəcər həm strateji, həm də təbii resurslar baxımından böyük potensialı ilə fərqlənib. Rayon daha çox mineral sularla zənginliyi ilə seçilib. "İstisu" kimi dünya şöhrətli sanatoriya kompleksinin fəaliyyəti sovet dövründə Kəlbəcərin iqtisadi cəlbediciliyini artırıb. Burada ötən əsrin ortalarında sənaye infrastrukturu formalaşmağa, kənd təsərrüfatı inkişaf etməyə başlayıb.

1960–1980-ci illərdə Kəlbəcər mədəniyyət, təhsil, səhiyyə və sosial xidmət sahələrində də bölgənin dinamik inkişaf edən rayonlarından biri idi. Yeni məktəblər, kitabxanalar, klublar açılır, kəndlər genişləndirilirdi. Həmçinin Kəlbəcərin folkloru, aşıq sənəti və el dəyərləri Azərbaycanın mədəni xəzinəsində mühüm yer tuturdu.

Kəlbəcərin əsas strateji üstünlüyü onu dağ silsilələri vasitəsilə Qarabağ, Naxçıvan və Qərbi Azərbaycandakı tarixi yurd yerləri ilə birləşdirən təbii "qapı" funksiyasını yerinə yetirməsində idi. Bu amil regionun hərbi-strateji dəyərini dəfələrlə artırırdı.

Bu məqamda onu da qeyd edək ki, 1993-cü il aprelin 2-si Azərbaycan tarixinin ən acı səhifələrindən biri kimi xatırlanır. Həmin gün Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal etməsi minlərlə dinc sakinin həyatını alt-üst etdi və beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozuldu. Rayonun düşmən əlinə keçməsi ilə yüzlərlə dinc sakin qətlə yetirildi, əsir və girov götürüldü. Qarlı dağ aşırımlarından, çətin relyefdən keçərək əhalinin böyük hissəsi mühasirədən çıxmağa çalışdı. Onların çoxu soyuqdan və atəşə tutulma nəticəsində həlak oldu.

Ermənistanın işğalı dövründə Kəlbəcərdə sistemli dağıntı siyasəti həyata keçirildi, kəndlər tamamilə yandırıldı, məscidlər və tarixi abidələr vandalizmə məruz qaldı, meşələr qırıldı, təbii sərvətlər talandı, "İstisu" kimi milli sərvətlər qeyri-qanuni istismar edildi. Bu dağıntılar yalnız fiziki məhv deyildi, həm də Azərbaycanın tarixi izlərinin silinməsi üçün məqsədli şəkildə aparılan etnik təmizləmə siyasətinin tərkib hissəsi idi.

44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər bölgədə yeni siyasi reallıq yaratdı. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın tələblərinə əsasən, Ermənistanın işğalçı ordusu Kəlbəcəri döyüşsüz tərk etməyə məcbur oldu. 25 noyabr 2020-ci il isə Kəlbəcərin tam azad edildiyi gün kimi tarixə düşdü. Bu, həm də Azərbaycanın diplomatik və hərbi gücünün, beynəlxalq legitimliyinin və dövlətçilik iradəsinin təntənəsi idi. Kəlbəcərin azad edilməsi ilə ölkəmizin təhlükəsizlik arxitekturası strateji cəhətdən daha da möhkəmləndi.

İşğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Kəlbəcərdə genişmiqyaslı bərpa və quruculuq proqramları həyata keçirilməyə başlandı. Bu, rayonun yenidən qurulması ilə bərabər, həm də "ağıllı" bölgə konsepsiyasının tətbiq olunması demək idi. İşğal zamanı tamamilə dağıdılmış Kəlbəcərdə yüz kilometrlərlə yeni avtomobil yolları salındı, çoxsaylı tunel və körpülər inşa edildi, elektrik enerjisi xətləri çəkildi, su təchizatı sistemləri bərpa olundu, strateji yüksəkliklərə hərbi və təhlükəsizlik infrastrukturu yerləşdirildi. Göygöl–Kəlbəcər, Toğanalı–Kəlbəcər–İstisu magistral yolları və Murovdağ tuneli isə regionun sürətli inkişafında hərəkətverici qüvvəyə çevrildi.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda inşa olunan ən mühüm layihələrdən biri olan Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu təkcə Kəlbəcər rayonunu əsas magistral şəbəkəyə bağlamır, eyni zamanda, bölgənin təbii resurslara, turizm obyektlərinə və sərhəd infrastrukturuna çıxışını gerçəkləşdirir. Magistralın 56 kilometrini Toğanalı–Kəlbəcər 26 kilometrini isə Kəlbəcər–İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Burada yüksəklik 1700 metrdən 3250 metrədək artır.



Müasir texnologiyalar əsasında inşa edilən bu magistral xəttin əsas xüsusiyyəti onun sosial-iqtisadi və turistik təsirinin çoxşaxəli olmasıdır. Kəlbəcərin zəngin mineral su mənbələrinin, o cümlədən məşhur İstisu sanatoriyasının yenidən fəaliyyətə başlaması üçün bu yol həyati əhəmiyyət daşıyır. Yol, eyni zamanda, regionun ekoturizm, dağ turizmi və sağlamlıq istirahəti potensialını reallaşdırmaqla yanaşı, yerli əhalinin məhsullarını bazarlara çıxarma imkanlarını da genişləndirir.

Xatırladaq ki, dövlətimizin başçısının iştirakı ilə 2021-ci ilin avqustunda Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun təməlqoyma mərasimi keçirilib. Bu il avqustun 21-də isə yolun 13,5-ci kilometrliyində inşa edilən və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışı gerçəkləşdirilib.

Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun mühüm tərkib hissəsi kimi inşa olunan Murovdağ tuneli Azərbaycan mühəndisliyinin simvoluna çevrilməkdədir. Dünyanın ən uzun avtomobil tunellərindən biri olan bu infrastrukturun iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacağı planlaşdırılır. Tuneldə sağ və sol hissələri birləşdirən 38 keçid artıq istismara hazırdır. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir.

Uzunluğuna görə Murovdağ tuneli dünyada 18-ci, Avropada 5-ci, MDB məkanında isə 1-ci olacaq. Murovdağ silsiləsini keçən bu nəhəng infrastruktur, eyni zamanda, Azərbaycanı Şərqi Zəngəzurla birləşdirən strateji qovşaqlardan biri kimi çıxış edəcək, mühəndislik baxımından çətinliyinə və strateji əhəmiyyətinə görə isə misilsiz layihə olaraq tarixə düşəcək. Bu tunel vasitəsilə qış aylarında da fasiləsiz nəqliyyat əlaqəsi təmin olunacaq, dağlıq relyefin yaratdığı maneələr aradan qaldırılacaq. Beləliklə, Azərbaycanın qərb rayonları ilə Kəlbəcər və Laçın istiqamətində hərəkət ilboyu sabit və təhlükəsiz şəkildə gerçəkləşəcək.

Bu gün Kəlbəcərdə kəndlərin yeni konseptlə yenidən qurulması həyata keçirilir. "Ağıllı" enerji, "ağıllı" su idarəetməsi, "yaşıl" texnologiyalar və ekoloji dayanıqlı planlaşdırma tətbiq olunur. Gələcəkdə Cənubi Qafqazın ən nüfuzlu sağlamlıq turizm mərkəzlərindən birinə çevriləcək "İstisu" sanatoriyası yenidən qurulur. Rayonda kənd təsərrüfatının dirçəlişi diqqətdə saxlanılır. Dövlət proqramları çərçivəsində yem bazası, heyvandarlıq təsərrüfatları, arıçılıq klasterləri formalaşdırılır.

Kəlbəcərdə yuxarıda sadalananlarla bərabər, milli yaddaşın qorunması prosesi də diqqətdə saxlanılır, tarixi abidələrin, məscidlərin, qəbiristanlıqların bərpası aparılır. Məsələn, Ermənistan silahlı qüvvələri tərəfindən barbarcasına dağıdılaraq talan edilən "Daş dirəkli dam"da bərpa və yenidənqurma layihələri həyata keçirilir.

Yeri gəlmişkən, Nazirlər Kabinetinin 1 may 2024-cü il tarixli qərarına əsasən, "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" təsdiqlənib. 30 illik erməni işğalı nəticəsində dağıdılan Kəlbəcər şəhərinin Baş Plan konsepsiyası işğal dövründən əvvəlki vəziyyəti və ərazinin relyefi, tarix-memarlıq ənənələri nəzərə alınmaqla tərtib edilib.

Baş Plana əsasən, Kəlbəcər şəhəri mövcud məskunlaşma ərazisini və yaxınlığındakı Boyaqlı kəndini əhatə edəcək. Şəhərin şimal-şərq istiqamətindəki əsas girişindən başlayaraq cənub-qərb istiqamətində uzanan baş küçədə sənaye və istehsalat zonası, orta hissəsində şəhər mərkəzi, bitiş nöqtəsində isə turizm və sosial xidmət obyektləri yerləşəcək. Qeyd edək ki, şəhərin işğala qədərki (1969-cu ildə tərtib edilən) son Baş Planında ərazisi 130 hektar, əhalisinin sayı isə 7500 nəfər təşkil etdiyi halda, 2040-cı ilədək inkişaf konsepsiyasına uyğun olaraq bu rəqəmlər iki dəfədən çox (290 hektara yaxın ərazi, 17000 nəfər əhali) artacaq. Şəhərin mərkəzi ortamərtəbəli çoxmənzilli və inzibati binalardan ibarət olacaq. Ətrafda isə fərdi yaşayış evlərinin tikintisi aparılacaq.

Kəlbəcər 1930–1993-cü illərdə böyük inkişaf yolu keçmiş, lakin 27 illik işğal dövründə dəhşətli vandalizmə məruz qalmış bir regiondur. Bu faciənin ardından 2020-ci ildə Kəlbəcərin azad edilməsi Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik hadisə oldu. Bu gün isə Kəlbəcər müasir quruculuğun, dövlətçilik iradəsinin, iqtisadi yüksəlişin və milli həmrəyliyin simvoluna çevrilib.

Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı yenidənqurma proqramı Kəlbəcərin təkcə bərpası deyil, həm də tamamilə yeni konseptlə gələcəyə hazırlanması deməkdir. Bu coğrafiyada artıq yeni həyatın təməli qoyulub və qarşıdan gələn illər Kəlbəcərin Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəyini göstərir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Faciənin anatomiyası*

# Zirzəmidə yuva salmış "cin" şüşədən necə çıxıb?

**Yasamal rayonunun Mirəli Seyidov küçəsində yerləşən çoxmərtəbəli yaşayış binasında noyabrın 21-də baş verən yanğın təkcə bir ailənin deyil, bütöv bir cəmiyyətin faciəsinə çevrildi. 3 nəfərin həyatını itirməsi, 27 nəfərin tüstüdən zəhərlənməsi kimi dəhşətli hadisədən sonra yanğının başvermə səbəbi ilə bağlı müəyyən mülahizələr bildirildi.**

Sakinlər hadisəni binanın zirzəmisində uzun müddət təhlükəsizlik qaydalarının kobud şəkildə pozulması ilə əlaqələndirdilər, bu məsələdə restoran və klinika rəhbərliyinə xeyli əvvəl həmin müəssisələrin yerləşdiyi ərazidən yanğın qoxusunun hiss edilməsi ilə bağlı şikayətlərinə məhəl qoyulmadığını diqqətə çatdırdılar.

Sözügedən restoranın yerləşdiyi obyektin sahibi Vüqar Abbasov isə jurnalistlərə açıqlamasında sakinlərin iddialarının əsassız olduğunu dedi: "3 nəfərin ölümü, xeyli insanın tüstüdən zəhərlənməsi ilə bağlı, ümumilikdə, binada baş verən hadisə üzrə vətəndaşların bizi günahlandırması doğru deyil. Yanğına səbəb "Loft" restoranı olmayıb".



Baş Prokurorluğun Mətbuat xidməti isə çoxmərtəbəli binada 3 nəfərin ölümü ilə nəticələnmiş həmin yanğın faktı ilə əlaqədar başlanmış cinayət işi üzrə 1 nəfərin şübhəli şəxs qismində tutulmasına dair mediada yayılan məlumatları təsdiqlədi. Eyni zamanda, media nümayəndələrinə və ictimaiyyətə müraciət edərək bildirdi ki, zərərçəkmiş şəxslərin hüquqları nəzərə alınmaqla, ibtidai istintaqın gedişinə dair qeyri-rəsmi mənbələrdən əldə olunan və dəqiqləşdirilməmiş həssas informasiyaların paylaşılması cəmiyyət arasında çaşqınlıq yaradır, eləcə də istintaqın obyektivliyinə zərər vurur. Bütün rəsmi və təsdiqlənmiş məlumatlar qısa zamanda yalnız Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən təqdim olunacaq.

Bu informasiyadan az sonra mediada Baş Prokurorluğun ikinci bir məlumatı yayıldı: "Binanın zirzəmi qatında və birinci mərtəbəsində yerləşən qeyri-yaşayış obyektini müqavilə əsasında icarəyə götürmüş "Loft Dent" klinikasının direktoru Bəhruz Sahib oğlu Paşayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində istintaqı aparılan cinayət işi üzrə şübhəli şəxs qismində tutulub".

Buradan görünür ki, çox güman ki, yanğın binanın zirzəmisində və birinci mərtəbəsində "Loft Dent" klinikasının yerləşdiyi qeyri-yaşayış sahəsindən başlayıb. Klinikaların bir hissəsinin yaşayış binalasının zirzəmisində, digər hissəsinin isə birinci mərtəbəsində yerləşdirilməsi qeyri-qanunu olub. Ekspertlər bildirirlər ki, bu, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi kollegiyasının təsdiqlədiyi "Yaşayış binaları. Layihələndirmə normaları"nda öz əksini tapıb.

Lakin buna baxmayaraq, hazırda paytaxtda bir çox binanın altında belə obyektlər fəaliyyət göstərir. Əgər bina layihələndirilərkən sözügedən obyektlər nəzərdə tutulmayıbsa, qanuni hesab edilmir. Kafe, restoran və ya hər hansı obyekt fəaliyyətə başlamazdan əvvəl bütün yanğın təhlükəsizliyi qaydaları nəzərə alınmalıdır. "Yaşayış binaları. Layihələndirmə normaları"na əsasən, binaların zirzəmisində və ya birinci mərtəbəsində sahəsi 250 kvadratmetrdən artıq, oturacaq yerlərinin sayı 50-dən çox olan yeməkxana və istirahət müəssisələri, partlayış və yanğın təhlükəli maddə və materiallar satılan mağazalar, tezalışan maddələrlə işləyən məişət xidməti müəssisələri, hamamlar və saunaların fəaliyyəti qadağan edilir.

Ekspertlərin fikrincə, zirzəmilər yaşayış binalarında qaz, su, elektrik, kanalizasiya xətlərinin yerləşdiyi, təhlükəsizlik baxımından xüsusi tələblərə tabe olan sahələrdir. Bu məkanlarda restoran fəaliyyəti, xüsusilə açıq alovla işləyən ocaq istifadəsi qəti qadağadır. Bununla belə, paytaxtda və bir çox regionlarda zirzəmilərin kommersiya obyektinə çevrilməsi geniş yayılan faktdır. Bütün bunlarla bərabər, binalarda elektrik xəttinin normadan artıq yüklənməsi, naqillərin dəyişdirilməsi, qeyri-peşəkar quraşdırmalar yanğının əsas səbəblərindəndir. Bu cür müdaxilələrə görə, Avropa ölkələrində dərhal cinayət işi açılır.

Ümumiyyətlə, zirzəmilərin həm tikinti, həm də yanğın təhlükəsizliyi üzrə ciddi standartları var. Belə ki, sığorta şirkətləri təhlükəsizliyi daim yoxlamalı, qayda pozulan kimi sığorta qüvvədən düşmüş hesab edilməli və obyektin fəaliyyəti məhdudlaşdırılmalıdır.

Bu faciə bir daha göstərir ki, təhlükəsizlik tələblərinin pozulması təkcə inzibati xəta deyil, eyni zamanda, gec-tez həyatlar bahasına ödənilən riskdir. Buna görə də zirzəmi və qarajlardan istifadə qaydaları sərtləşdirilməli, hündürmərtəbəli binaların zirzəmilərində kommersiya fəaliyyəti qəti şəkildə yasaqlanmalıdır.

Bu cür hadisələrin təkrarlanmaması üçün beynəlxalq standartlara uyğun ciddi audit mexanizmi yaradılmalı, eyni zamanda, sakinlərin şikayətlərinin elektron nəzarət platforması qurulmalı, hər şikayətin araşdırılması və nəticəsinin şəffaf şəkildə izlənilməsi gerçəkləşdirilməlidir.

Yasamalda binadakı faciə bir daha sübut etdi ki, təhlükəsizlik qaydalarının pozulması yalnız texniki məsələ deyil, bu, birbaşa insan həyatına təhdiddir. Sakinlərin haqlı narahatlıqlarına məhəl qoyulmaması, qanunsuzluqların illərlə davam etməsi və nəzarət mexanizmlərinin kağız üzərində qalması fəlakəti qaçılmaz edir. Amma bu hadisə həm də xəbərdarlıqdır: əgər dərhal önləyici tədbirlər görülməsə, oxşar faciələr təkrar yaşana bilər.

***XQ-nin analitik qrupu***

# Dinamik inkişaf edən Bakı–Pekin əməkdaşlığı

## *1 ildə ölkəmizdən Çinə ixrac 5,5 dəfə artıb*



**Bu ilin yanvar–oktyabr aylarında Çindən Azərbaycana 3 milyard 735 milyon 212 min ABŞ dolları dəyərində məhsul idxal olunub. Dövlət Gömrük Komitəsinin yaydığı məlumata görə, Çin 19,43 faiz göstərici ilə idxalda lider ölkədir. Ötən ilin eyni dövründə Çindən ölkəyə idxal 3 milyard 1 milyon 210 min dollar olmuşdu. Bir il ərzində idxalın 734 milyon dollar artması Çinlə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələrin artım dinamikasını özündə əks etdirir.**

Hesabat dövründə Azərbaycandan Çinə ixrac 79,57 milyon dollar təşkil edib. Ötən ilin eyni vaxtında isə Çinə 14 milyon 329 min dollarlıq məhsul göndərilmişdi. 2025-ci ilin ilk 10 ayının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Çinin payı 9,33 faiz (3 milyard 814 milyon 792 min dollar) təşkil edib.

Xatırladaq ki, 2024-cü ildə Azərbaycan ilə Çin arasında xarici ticarət dövriyyəsi 20,7 faiz yüksələrək 3,7 milyard ABŞ dollarına çatıb. Bununla yanaşı, 2024-cü ilin yanvar-sentyabr aylarına dair rəsmi məlumatlara əsasən, iki ölkə arasında xarici birbaşa investisiya dövriyyəsi 85,9 faiz artaraq 14 milyon ABŞ dolları təşkil edib. Həmin dövrdə Çin şirkətlərinin Azərbaycana yatırdığı birbaşa investisiyaların həcmi isə ötən illə müqayisədə 92,8 faiz artaraq 11,4 milyon ABŞ dollarına yüksəlib. Bu rəqəmlər Azərbaycan-Çin arasında ticarət və investisiya əməkdaşlığının dinamik şəkildə gücləndiyini açıq şəkildə göstərir.

Əvvəlki illərlə müqayisədə hazırda Azərbaycan-Çin münasibətləri həm siyasi, həm də iqtisadi sahədə yüksələn dinamika ilə inkişaf edir. Şübhəsiz ki, bunun əsas təkanverici amillərindən biri Prezident İlham Əliyevin bu ilin 22–24 aprel tarixlərində Çinə səfəri zamanı iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması barədə qəbul edilmiş qərardır. Qeyd edək ki, uzun illərdir ki, Azərbaycan Çinin Cənubi Qafqaz regionunda ən böyük ticarət tərəfdaşıdır. Uzun müddət Azərbaycan-Çin ticarətində əsas yer Çin mallarına aid idi, lakin son illər Azərbaycanın bu ölkəyə ixracı ciddi artış göstərib. Ölkəmizdən Çinə ən böyük ixrac edilən əsas məhsullardan biri neft koksudur. Həmçinin kimya və neft-kimya məhsulları, plastik sənaye məhsulları da ixrac edilir. Bundan başqa, qida və kənd təsərrüfatı məhsulları da ixracatda yer tutur.

Çindao, Canciaciye, Sian və paytaxt Pekində Azərbaycana məxsus ticarət və şərab evləri fəaliyyət göstərir. Ticarət evləri Azərbaycanda dadı və keyfiyyəti ilə seçilən məhsullarının Çində təşviqi ilə yanaşı, xalqlar arasında mədəni əlaqələrin dərinləşməsinə də töhfə verir. Ticarət evində Azərbaycanın zəngin mədəni irsinə, turizm potensialına, iqtisadi imkanlarına, eləcə də sərmayə mühitinə aid materiallar nümayiş olunur. Burada İqtisadiyyat Nazirliyinin dəstəyi ilə “Made in Azerbaijan” brendli məhsullar çinli istehlakçılara təqdim olunur. Bura əsasən çaylar, meyvə şirələri, şərablar, konservlər, mürəbbələr, qənnadı məmulatları və s. daxildir. Azərbaycana Çindən gətirilən malların böyük bölümü yüksək texnoloji məhsullardır. Mexaniki avadanlıqlar, elektronika və avtomobillər ümumi idxalın yarıdan çoxunu əhatə edir. Bu sahəyə yönəlik diqqət ölkənin sosial-iqtisadi inkişafını sürətləndirir və yerli sahibkarlar üçün geniş perspektivlər açır.

Azərbaycan və Çin arasında “yaşıl enerji” sahəsində də əməkdaşlıq dinamik şəkildə inkişaf edir. “China Datang Overseas Investment Co. Ltd” ilə Azərbaycan quruda 100 MVt gücündə günəş, dənizdə 2 QVt gücündə külək elektrik stansiyalarının inşası layihələri müzakirə edilir. Layihələrin məqsədi “Yaşıl Enerji Dəhlizi” təşəbbüsünə töhfə vermək və Azərbaycanın bərpaolunan enerji sahəsində liderliyini gücləndirməkdir. Ölkə başçısının bu ilin aprel ayında Çinə səfəri zamanı əldə olunan razılaşmaların əsasən bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb. Bu sənədlər 260 MVt-lıq günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt-lıq külək elektrik stansiyası, əlavə olaraq 2 MVt-lıq külək enerjisi layihələrinin inkişafı, həmçinin bərpaolunan enerji və elektrik sistemlərinin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Son on il ərzində iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas gündəm mövzularından biri Orta Dəhliz layihəsi olub. Həmçinin Çin tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri də Azərbaycan olub. Çinin başladığı “Bir kəmər, bir yol” təşəbbüsü Asiya ilə Avropa arasında, eləcə də daha geniş coğrafiyada ticarət və infrastruktur bağlantılarının formalaşdırılmasına yönəlmiş genişmiqyaslı platformadır. Azərbaycan bu prosesdə strateji mövqeyə malikdir və yeni nəqliyyat marşrutlarının, həmçinin enerji dəhlizlərinin inkişafında fəal rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi və Ələt Beynəlxalq Dəniz Limanının fəaliyyətə başlaması bu təşəbbüsün əsas uğurlarından biridir. Həmin layihələr Şərq-Qərb nəqliyyat əlaqələrinin gücləndirilməsi ilə yanaşı, həm də regionun iqtisadi dinamizmini artırır.

2023-cü ilin ilk doqquz ayında Orta Dəhliz üzrə yükdaşımalar 88 faiz artaraq əvvəlki ilin eyni dövründəki 1,1 milyon tonla müqayisədə 2 milyon tona çatıb. 2022-ci ildə isə daşımaların həcmi 2,5 dəfə yüksələrək 1,5 milyon tona çatmış və marşrutun qlobal nəqliyyat şəbəkəsində artan rolunu nümayiş etdirir. Yeri gəlmişkən, son üç ildə Orta Dəhliz vasitəsilə Azərbaycanın ərazisindən keçən yükdaşımaların həcmi 90 faiz artıb və marşrut üzrə tranzit müddətləri əhəmiyyətli dərəcədə qısaldılıb. Yaxın perspektivdə illik 25 milyon ton buraxılış gücünə çatması planlaşdırılan Ələt Beynəlxalq Dəniz Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər logistika üstünlükləri Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzi kimi mövqeyini daha da gücləndirib.

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

2025-ci ilin ilk on ayında Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müşahidə olunan artım ölkə iqtisadiyyatı üçün həm qısa, həm də uzunmüddətli strateji təsirlər yaradıb. Bu proses yalnız idxalın genişlənməsi ilə deyil, eyni zamanda, ixracın 5,5 dəfə yüksəlməsi ilə xarakterizə olunur ki, bu da əməkdaşlığın daha balanslı məzmun almasını göstərir. Sözsüz ki, idxalın artması bir neçə istiqamətdə ölkə iqtisadiyyatına müsbət təsir edir.

Bu təsirlərdən biri, xüsusilə, texnologiya və avadanlıq idxalının genişlənməsidir. Çin sənaye avadanlıqları, elektronika, maşınqayırma məhsulları və müxtəlif texniki materiallar üzrə dünya liderlərindəndir. Bu məhsulların ölkəyə daxil olması real sektorda müasir texnologiyaların tətbiqini sürətləndirir, sənaye modernləşməsinə təkan verir, infrastrukturun yenilənməsini sürətləndirir və yerli istehsal müəssisələrində məhsuldarlığın artmasına şərait yaradır. Digər tərəfdən, geniş çeşidli istehlak məhsullarının idxalı daxili bazarda rəqabəti gücləndirir ki, bu da qiymət sabitliyinin qorunmasına, bahalaşmanın qarşısının alınmasına müsbət təsir göstərir. Bu proses, həmçinin yerli istehsal üçün də əlavə motivasiya yaradır. Çin istehsalçıları ilə əməkdaşlıq çərçivəsində bəzi xammal və komponentləri idxal edib ölkədə emal etmək, yaxud yarımfabrikat məhsulların ölkəyə gətirilərək burada tamamlama istehsalının təşkili mümkündür. Bu da qeyri-neft sənayesinin inkişafına və istehsal zəncirinin formalaşmasına müsbət təsir edir. Hesab edirəm ki, gələcək illərdə bu idxal-ixrac axınları yerli istehsalın modernləşməsinə əlavə imkanlar açacaq.

İxracın artması isə iqtisadi diversifikasiya baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın Çin istiqamətinə qeyri-neft ixracı illik olaraq 80 milyon dollara yaxınlaşıb ki, bu da yerli məhsulların yeni bazarlara çıxış imkanlarını genişləndirdiyini göstərir. Çin bazarına daxil olmaq kənd təsərrüfatı, aqrar sənaye və digər perspektivli sahələrimizin ixrac potensialını artırır. Digər tərəfdən, neft-kimya məhsullarının satışının artması SOCAR-ın xarici bazarlarda mövqeyini gücləndirir, rəqabət imkanlarını genişləndirir.

Qısa olaraq “yaşıl enerji” sahəsində əməkdaşlığı da qeyd etmək istərdim. Çin şirkətlərinin ölkəmizdə alternativ və bərpaolunan enerji layihələrinə marağı Azərbaycanın enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, enerji istehsalının strukturunu da şaxələndirir. Bu, gələcəkdə qaz ixracı üçün əlavə imkanlar yaradır, bölgələrdə yeni sənaye və istehsal zonalarının formalaşmasına təkan verir.

Eyni zamanda, tranzit əməliyyatlarının genişlənməsi gəlirlərimizin artmasına mühüm təsir göstərir. Bakı Limanının, Bakı–Tbilisi–Qars xəttinin yükdaşıma gücünün yüksəlməsi, eləcə də Orta Dəhlizin inkişafı Azərbaycanı regionda aparıcı logistika mərkəzinə çevirir. Çin mallarının Avropaya və Türkiyəyə daha sürətli və alternativ marşrutlarla çatdırılması həm ölkəmizin tranzit imkanlarını artırır, həm də strateji mövqeyini gücləndirir.

Sonda vurğulamaq istəyirəm ki, hazırkı ticarət əlaqələrinin möhkəmlənməsi və genişlənməsi Azərbaycan iqtisadi inkişaf modelinə üç əsas istiqamətdə təsir göstərir: Birincisi – iqtisadi diversifikasiya. Ticarət tərəfdaşlarının və ixrac bazarlarının genişlənməsi, xüsusilə Rusiya bazarından asılılığın azalması iqtisadi dayanıqlılığı artırır. İkincisi – innovasiya və modernləşmə. Çin texnologiyalarının idxalı sənaye və infrastrukturu yeniləyir, istehsalda rəqabət qabiliyyətini gücləndirir. Üçüncüsü – strateji mövqe. Azərbaycan Trans–Xəzər dəhlizinin əsas ölkəsi kimi daha böyük strateji əhəmiyyət qazanır, regional ticarət və tranzitdə liderliyini möhkəmləndirir.

*Musa BAĞIRLI*
*XQ*

# Avropanın növbəti qaz sifarişi

**Azərbaycanın təbii qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəməri (TAP) Yunanıstanın Kipoi çıxış nöqtəsindən noyabrın 24-də 378 milyon 145 min 291 kVt/saat həcmində sifariş alınıb. Bu, ötən həftənin bazar ertəsinin sifariş göstəriciləri ilə müqayisədə 3,02 faiz çoxdur. Ümumiyyətlə, TAP boru kəmərinin işə düşməsindən bu tərəfə Azərbaycanın Avropa bazarlarına çatdırdığı qaz həcmi kəskin artıb. 2024-cü ilin oktyabr ayına qədər TAP ilə Avropaya 40 milyard kubmetrdən çox Azərbaycan qazı nəql olunub. 2025-ci ilin sentyabr ayı sonuna qədər bu rəqəm 50 milyard kubmetrə çatıb. Məsələn, 2025-ci ilin ilk üç rübündə Avropaya ümumilikdə 9,4 milyard kubmetr qaz ixrac edilib. TAP bu ixracın əsas daşıyıcısıdır, çünki boru kəməri ilə birbaşa İtaliya, Yunanıstan və Bolqarıstan kimi ölkələrə qaz ötürülür.**




Trans-Adriatik Boru Kəməri (TAP) Azərbaycanın enerji strategiyasında mühüm infrastruktur layihəsidir. Bu boru kəməri “Cənub Qaz Dəhlizi”nin Avropa seqmentini təşkil edir və TANAP vasitəsilə Türkiyə sərhədində qəbul etdiyi Azərbaycandan gələn qazı Yunanıstan, Albaniya və Adriatik dənizi üzərindən keçərək İtaliyanın cənubuna çatdırır. TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatdırılıb və kommersiya nəqli 2020-ci il dekabrın 31-də başlayıb. Boru kəməri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng “Şahdəniz” yatağından çıxarılan qaz birbaşa Avropa bazarlarına ixrac edilir.

Qeyd edək ki, 2025-ci ilə qədər daxili parametrlərin tənzimlənməsi sayəsində TAP-ın ötürmə tutumu təxminən 12 milyard kubmetrə çatdırılıb. Bu göstəricilərin daha da artırılması məqsədilə əlavə kompressor stansiyaların quraşdırılması planlaşdırılır. Məsələn, cari plana görə, 2026-cı ildən əlavə 1,2 milyard kubmetr/il həcmində tutum artırılması gözlənilir.

TAP-ın müştərilərinə gəldikdə, ən böyük həcm İtaliya bazarının payına düşür. 2025-ci ilin sentyabrına qədər TAP vasitəsilə İtaliyaya təxminən 41,7 milyard kubmetr qaz çatdırılıb. Eyni dövrdə Yunanıstana 4,8 milyard, Bolqarıstana isə 3,2 milyard kubmetr qaz nəql olunub. 2025-ci ilin yanvar–sentyabr aylarında Yunanıstana ixrac olunan qaz həcmi 0,8 milyard kubmetrə bərabər olmuşdur.

TAP boru kəməri həm Azərbaycan, həm də Avropa üçün strateji əhəmiyyət daşıyır. İlk növbədə, TAP Azərbaycan qazının birbaşa Avropa bazarlarına çatdırılmasını təmin edir. Bu, Avropanın qaz təchizatında şaxələndirmə deməkdir. TAP-ın digər əhəmiyyəti odur ki, boru kəməri vasitəsilə təbii qazın yandırılması Avropada daha az karbon emissiyasına səbəb olur. TAP layihəsi çərçivəsində daşınan təbii qaz kömür və neft məhsullarına nisbətən təmiz yanacaq sayılır və bu, Avropanın iqlim hədəflərinə dəstək verir. TAP Avropanın enerji təhlükəsizliyi baxımından da mühüm amildir – boru kəməri Cənub-Şərqi Avropanı yeni marşrutla birləşdirir və sözügedən regionun qaz təchizatını möhkəmləndirir. Qeyd edək ki, TAP Yunanıstan və Albaniyadakı çıxış nöqtələri vasitəsilə Azərbaycan qazının geniş Avropa bazarlarına nəqlini təmin edən çoxsaylı imkanlar yaradır və Cənub Qaz Dəhlizinin əsas seqmenti kimi Avropanın strateji və iqtisadi maraqlarına xidmət edir. Bununla yanaşı, TAP iqtisadi baxımdan yeni gəlir mənbələri və geosiyasi üstünlüklər deməkdir. TAP boru kəməri Azərbaycan üçün Avropa bazarlarına birbaşa çıxış deməkdir, bu da dövlət büdcəsinə daxilolmaları artırır və regionda Azərbaycanın rolunu gücləndirir.

TAP-ın ötürücülük gücünün artırılması və yeni layihələrin həyata keçirilməsi üzrə işlər davam edir. Layihə çərçivəsində boru kəmərini əlavə kompressor stansiyaları ilə təchiz etməklə tutumu ilkin 10 milyard kubmetrdən 20 milyard kubmetrə kimi yüksəltmək mümkün hesab edilir. Artıq bu istiqamətdə işlər görülür – TAP konsorsiumu 2026-cı ildən əlavə 1,2 milyard kubmetr illik tutumun təmin olunacağını açıqlayıb. Boru kəmərinin idarəçiləri həmçinin bazar tələblərini nəzərə alaraq daha genişləndirmə variantlarını araşdırmağa başlayıblar.

Gələcəkdə, Azərbaycanın qaz hasilatı və ixrac potensialı artdıqca, TAP-ın rolu da genişlənəcək. “Şahdəniz” yatağından əldə olunan qaz həcmi artdıqca, bu qazın Avropaya daşınması üçün TAP-dan istifadə miqdarı da yüksələcək. Bununla yanaşı, Cənub Qaz Dəhlizi çərçivəsində Yunanıstan–Bolqarıstan (IGB) və digər interkonnektorların inşası TAP vasitəsilə çatdırılan qazın daha çox ölkəyə paylanmasını mümkün edəcək. Bu amillər TAP-ın yaxın illərdə Azərbaycanın təbii qaz ixracında həlledici rolunun davam edəcəyini göstərir.

Yekun olaraq qeyd etmək olar ki, Trans-Adriatik Boru Kəməri Azərbaycanın Avropa bazarlarına birbaşa qaz ixracını təmin edən əsas magistraldır. TAP vasitəsilə ötürülən həcmlərin kəskin artımı onun etibarlı və effektiv infrastruktur olduğunu sübut edir. Hazırda TAP ilə ümumilikdə 50 milyard kubmetrdən çox Azərbaycan qazı Avropaya çatdırılıb. TAP həm Azərbaycanın ixrac coğrafiyasını genişləndirir, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Planda olan genişlənmə işləri bu boru kəmərinin gələcəkdəki rolunu daha da artıracaq.

Ələlxüsus, bu gün əminliklə deyə bilərik ki, Cənub Qaz Dəhlizinin Avropa seqmenti olaraq TAP Azərbaycan qazının Avropa bazarlarına etibarlı çıxışını təmin edən strateji nəqliyyat arteriyasına çevrilib.

*Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri, iqtisadçı-ekspert**

Trans-Adriatik Boru Kəməri (TAP) üzrə noyabr ayında qeydə alınan qaz sifarişləri Avropada təbii qaz istehlakının həm mövsümi dəyişkənliyini, həm də Azərbaycanın bu bazardakı sabit rolunu əks etdirir. Sifariş həcmlərində hiss olunan artım və azalmalar, bir qayda olaraq, qısamüddətli bazar tələbinin dəyişməsi ilə bağlıdır və strateji planda Azərbaycanın TAP vasitəsilə qaz satışında hər hansı risk və ya problem yaratmır.

Trans-Adriatik Boru Kəməri Azərbaycan qazının Avropa bazarlarına çıxarılması baxımından strateji dəyərə malikdir və Cənub Qaz Dəhlizinin sonuncu həlqəsi kimi ölkənin enerji ixrac marşrutlarını şaxələndirir. TAP sayəsində Azərbaycan ilk dəfə olaraq öz qazını birbaşa Avropa İttifaqının daxili bazarına çatdıran təchizatçıya çevrildi və bu, ölkənin geosiyasi çəkisini əhəmiyyətli dərəcədə artırdı. Kəmər Avropanın enerji təhlükəsizliyinə töhfə verir və qaz idxalında mənbə müxtəlifliyini genişləndirir. TAP, həmçinin Azərbaycan üçün uzunmüddətli kommersiya sabitliyi yaradır, çünki Avropa ilə çoxillik müqavilələr ixrac gəlirlərini proqnozlaşdırıla bilən edir. İtaliya, Yunanıstan və Albaniya üzərindən keçən marşrut Azərbaycanın Avropa enerji infrastrukturuna real inteqrasiyasını təmin edir.

TAP-ın genişləndirilməsi perspektivləri, xüsusilə 20 milyard kubmetrə qədər artırılması müzakirələri, Azərbaycanın gələcək qaz ixrac potensialını dəstəkləyir. Kəmər, həmçinin TANAP-la birlikdə regionda yeni infrastruktur sinerjisi yaradaraq Türkiyə–Azərbaycan enerji əməkdaşlığını daha da gücləndirir. TAP Avropanın yaşıl keçid fonunda qazın “keçid yanacağı” kimi rolunun davam etdiyi dövrdə Azərbaycan üçün strateji “pəncərə” funksiyasını yerinə yetirir. Ümumilikdə, TAP Azərbaycanın enerji strategiyasının mərkəzi sütunlarından biri olaraq geoiqtisadi mövqeyini daha dayanıqlı edir.

*Nurlan ABDALOV*
*XQ*

# Azərbaycanın sənayedə 10 illik “yaşıl” hədəfləri

**“Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr” (NDC 3.0) hesabatına əsasən, sənayedə qaz qazanlarının elektrik qazanları və yüksəktemperaturlu istilik nasosları ilə əvəz edilməsi nəzərdə tutulur. Bu yanaşma qida, kimya, metallurgiya, gil-torpaq istehsalı və neft-qaz sənayesinin “downstream” seqmentində tətbiq olunacaq.**



Sənəddə bildirilir ki, sənaye prosesi hazırda yüksək karbon izli yanacaqlardan asılıdır. Bərpaolunan enerji mənbələrinin payının artması ilə elektrifikasiya karbon emissiyalarının azalmasında əsas vasitə kimi qiymətləndirilir. Sənaye sektoru ÜDM-in 25 faizə qədərini formalaşdırır və iqtisadi artımın aparıcı sahəsi olsa da, istehsalın genişlənməsi emissiyaların artımına səbəb olur. Buna görə dekarbonizasiya iqlim gündəliyində prioritet elan edilib.

Hesabata görə, 2022-ci ildə sənaye sektorunun karbon emissiyası 8,9 milyon ton $CO_2$-ekvivalenti təşkil edib. Bunun 6,3 milyon tonu neft-qaz emalı və qeyri-metal minerralların, 2 milyon tonu isə metallurgiya, kimya və qida sənayesinin payına düşür. Sənayenin çətin dekarbonizasiya olunan sahə kimi qiymətləndirilməsi yüksəktemperaturlu proseslər və kimyəvi reaksiyaların əlavə emissiyalar yaratması ilə izah olunur.

Sənaye parklarının yaradılması müasir aşağıkarbonlu həllərin – istiliyin təkrar istifadəsi, tullantıların emalı, CCUS (karbonun tutulması və saxlanması) texnologiyalarının tətbiqi və genişmiqyaslı elektrifikasiyanın həyata keçirilməsini asanlaşdırır. Dövlətin sənaye parklarında istehsal payını 15%-ə qədər artırmaq strategiyası bu prosesləri dəstəkləyir.

Mövcud tədbirlərə enerji səmərəliliyini artıran proqramlar, DRI texnologiyası üzrə yeni müəssisələrin tikintisi, Sumqayıt sənaye zonalarının inkişafı daxildir. Xüsusilə neft-qaz seqmentində avadanlıqların enerji səmərəliliyinin yüksəldilməsi və LDAR (sızmaların aşkarlanması və aradan qaldırılması) texnologiyalarının tətbiqi emissiyaların əhəmiyyətli dərəcədə azalmasına imkan verəcək.

2035-ci ilədək əsas tədbirlər sırasına qaz qazanlarının elektrik qazanları və istilik nasosları ilə əvəz edilməsi, enerji səmərəliliyinin artırılması və neft-qazın downstream seqmentində metan emissiyalarının azaldılması daxildir. Hesabatda vurğulanır ki, bu hədəflərə çatmaq üçün kimya və qeyri-metal minerallar sənayesi də daxil olmaqla yüksək xərcli texnologiyalara böyük investisiya tələb olunacaq. Bərpaolunan enerjinin genişləndirilməsi, şəbəkələrin modernləşdirilməsi və kadr hazırlığının gücləndirilməsi prosesin əsas uğur amilləri sayılır.

*XQ*

# Leyla Əliyeva Qobustanda yeni parkın açılışında






**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qaradağ rayonunun Qobustan qəsəbəsində salınmış yeni parkın açılışında iştirak edib.**

Bakı–Qazax magistral yolunun 60-cı kilometrliyində, yaşayış evlərinin qarşısında yerləşən yeni istirahət məkanının ümumi sahəsi 10 min 350 kvadratmetrdir. Qobustan qəsəbəsi sakinləri üçün sağlam və keyfiyyətli istirahət məkanı formalaşdırmaq, yaşayış mühitini daha da yaxşılaşdırmaq məqsədilə parkda geniş abadlaşdırma işləri aparılıb. Yaşıllaşdırma işləri çərçivəsində park ərazisində müxtəlif növ ağaclar, kol bitkiləri və güllər əkilib, qazon salınıb. Sakinlərin və xüsusən də uşaqların rahatlığı üçün ərazidə söhbətgahlar, uşaq oyun meydançaları quraşdırılıb, həmçinin işıq dirəkləri, oturacaqlar və zibil qabları yerləşdirilib.

Açılış tədbiri çərçivəsində xüsusi ağacəkmə aksiyası keçirilib. Leyla Əliyeva və IDEA könüllülərinin iştirakı ilə parkın müxtəlif hissələrində sərv ağacları əkilib.

**XQ**

# Ali məktəbdə baytarlıq bazası



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva Lənkəran Dövlət Universitetinin nəzdində yaradılmış Baytarlıq Klinikası ilə tanış olublar.**



Yeni istifadəyə verilmiş klinikada heyvanların müayinəsi və müalicəsi üçün nəzərdə tutulmuş kabinetlər, laboratoriyalar və müasir tibbi avadanlıqlar barədə məlumat verilib. Qeyd edilib ki, klinika həm regionda ev və çöl (vəhşi) heyvanlarının sağlamlığının qorunmasına xidmət edir, həm də universitetin Baytarlıq ixtisasında təhsil alan tələbələr üçün praktiki vərdişlərin formalaşdırılması baxımından mühüm tədris bazası rolunu oynayır. Leyla Əliyeva bu ixtisasda təhsil alan tələbələr və müəllim heyəti ilə görüşüb, onların fikirlərini dinləyib, baytarlıq sahəsində kadr hazırlığı istiqamətində həyata keçirilən işlərlə yaxından tanış olub.

**XQ**

# Lənkəranda müasir ekoturizm ünvanı





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Lənkəranda "Citrus Valley" fermer təsərrüfatına baxış keçiriblər.**

Təsərrüfatın sahibi Rəftarə Şükürova Azərbaycanın ilk aqro-qastro-ekoturizm məkanlarından biri olan "Citrus Valley"in yalnız 2024-cü il ərzində 15 mindən çox turist qəbul etdiyini deyib. Bildirib ki, burada qonaqlar üçün kənd təsərrüfatı proseslərini, xüsusilə meyvə yığımını izləmək, yerli mətbəxin təamlarını dadmaq və onların hazırlanmasını öyrənmək üçün ustad dərslərində iştirak etmək, eləcə də ətraf mühitlə yaxından tanış olmaq imkanı mövcuddur.



Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva fermer təsərrüfatında yaradılan şəraitlə yaxından tanış olub, məhsullara baxış keçirib, burada çalışan əməkdaşlarla səmimi söhbət edib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

**XQ**

# AZƏRTAC "Bernama" ilə əməkdaşlığı genişləndirəcək



**Bakıda keçirilən D-8 Media Forumunda iştirak edən Malayziyanın "Bernama" xəbər agentliyinin baş direktoru xanım Datin Paduka Nur-ul Afida Kamaludinin rəhbərlik etdiyi nümayəndə heyəti AZƏRTAC-ı ziyarət edib.**

Qurumun İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, AZƏRTAC ilə "Bernama" 2014-cü ildən bəri əməkdaşlıq edir, gündəlik informasiya mübadiləsi həyata keçirir. O, D-8 Media Sammitində Media Mükəmməlliyi Mərkəzinin yaradılması ilə bağlı qərarın əhəmiyyətindən bəhs edib.

"Bernama" xəbər agentliyinin baş direktoru AZƏRTAC-la əməkdaşlıq əlaqələrindən məmnunluğunu ifadə edərək bildirib ki, müasir dövrün tələblərinə uyğun olaraq multimedia sahəsində informasiya mübadiləsinə daha intensiv yanaşılmalıdır.

Görüş çərçivəsində agentliklər arasında mövcud əməkdaşlıq haqqında memorandumun yenilənməsinə dair razılıq əldə edilib.

**XQ**

# Biləsuvarda zəhmət və bolluq bayramı

**Biləsuvar torpağında yetişdirilən hind quşu ləzizliyinə və bolluğuna görə rayonda aqrar istehsala məxsusi özəllik və məşhurluq gətirib. Elə bu səbəbdən 5-ci ildir ki, məhsul bayramı "Hind quşu" festivalı adı ilə keçirilir.**




Festivalda fermerlər, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlar, tanınmış aşpazlar, media təmsilçiləri, yerli sakinlər və xarici qonaqlar də iştirak edirdilər. Ümumrayon şənliyi məzmun zənginliyi və tərtibat rəngarəngliyi, qonaq axını ilə diqqəti daha çox cəlb edirdi. Cənub bölgəsinin rayonları ilə yanaşı, Qaxdan, Balakəndən, Sumqayıt və Bakı şəhərlərindən gələnlər də əl işləri, hazırladıqları məhsullarla festivala qoşulmuşdular.

Bakının Bilgəh qəsəbəsindən Hüseyn Abdullayev ömür-gün yoldaşı Ülviyyə Abdullayeva ilə həyətlərində yetişdirdikləri zəfəranı, zeytun turşusunu, xurma doşabını, Sumqayıtdan Xanım Məmmədova uşaqlar üçün toxuduğu oyuncaqları, Salyandan Rauf İbrahimov ağacdan oyma üsulu ilə hazırladığı tətbiqi sənət nümunələrini, Bakıdan Aynurə Cəbrayılova təbii daşdan hazırladığı aksesuarları, Astaranın Kakalos kəndindən Rüfət Rzayev yerli, qurudulmuş pizədən toxuduğu zənbil, səbət, tərəzi, papaq və naxışlı həsirləri, Biləsuvar rayonunun Əsgərabad, İsmətli kənd, Biləsuvar şəhər uşaq incəsənət məktəblərinin şagirdləri əl işlərini və rəsm əsərlərini nümayiş etdirdilər.

Xalq artisti İlham Namiq Kamalın festival iştirakçılarını salamlaması əmək bayramına könül xoşluğu gətirdi, meydanda halal zəhmətin, ruzi-bərəkətin hikmətini ucalara yüksəltdi. Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov el şənliyinin bu formatda təşkilinin regionda turizmin inkişafı, xalqımızın milli adət-ənənələrinin, mədəni irsinin, zəngin mətbəxinin təbliği baxımından mühüm rol oynayacağını diqqətə çatdırdı. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov rəngarəng təqdimatların ölkədə quşçuluğun və turizmin inkişafına, bölgənin iqtisadi potensialının tanıdılmasına töhfə verəcəyini vurğuladı.

Ayrı-ayrı guşələrdə fermerlərin istehsal etdikləri məhsullardan ibarət satış yarmarkası, milli-mənəvi dəyərlərimizi əks etdirən toy adətləri və xına mərasimi bayrama yüksək təntənə gətirdi. Festivalda Çin, özbək mətbəxindən nümunələr, amerikansayağı hind quşu ləvəngisi, hind quşundan hazırlanmış müxtəlif növ milli təamlar nümayiş olundu. Məharəti ilə fərqlənən aşpazlar mükafatlandırıldılar.

Dağlıq Şirvanın aşıqlarının, Lerikin "Rəfti" rərs qruplarının, Şirvan-Salyan və Lənkəran-Astara Regional Mədəniyyət idarələri musiqi kollektivlərinin çal-çağırları bir-birini əvəzləyərək ölkəmizdə tərəqqi, bolluq və yüksələn rifahın simfoniyası kimi səsləndi.

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*



*Şəmsiyyə Kərimova – 70*

# Zəhmətdən və qeyrətdən göyərən bir qələm...

**Bir vaxtlar qadına zəif məxluq deyirdilər. Sonralar zəif sözünü zəriflə əvəz etdilər. Hazırda cəmiyyətdə müəyyən statusu olan qadınlara baxdıqda isə onların güclü cinsdən elə də fərqlənmədiyini müşahidə edirik. Onların kişilərdən yeganə fərqi daha mərhəmətli, duyumlu, incə, nəzakətli və yanımcıl olmalarıdır. Haqqında söhbət açacağımız qadın da yeri gələndə 7 yaşlı uşaq kimi saf, hərdən sadəlövh, bəzən də 100 yaşlı bir insan kimi müdrik insan kimi tanıyanların qəlbində yurd salıb. Onun məşhur imzası, dövlət təltifi, kitabları, qəzeti var. Üstəlik, etibarlı, özü kimi sadiq, bir çağırışı ilə hayına yetən dostları var.**



Şəmsiyyədən danışıram. Əməkdar jurnalist, “Yeni Təfəkkür” qəzetinin təsisçisi və redaktoru, gözəl simalı, qaynar gözlü, daim təbəssümlü Şəmsiyyə Kərimovadan. Yaxından tanıdığın bir insan haqqında yazı yazmaqdan çətin iş yoxdur. Bilmirsən, nədən başlayasan, necə davam edəsən və fikirlərini nə şəkildə bitirəsən ki, onun sənə məlum olan xarakterini təqdim edə biləsən. Amma mənim nəyi necə yazmağımdan, fikrimi hansı ifadələrlə çatdırmağımdan asılı olmayaraq, onu tanıyanlar olduğu kimi tanıyır. Çünki Şəmsiyyə göründüyü kimi olandır. Çünki onun, sözün həqiqi mənasında, böyük ürəyi var. O ürək ki, onunla minlərlə insana arxa olub, əlindən gələn ən kiçik köməyi belə əsirgəməyib, gənc yaşından ailəsinə, doğmalarına, əzizlərinə arxa olub, böyüklük, ağbirçəklik edib. Onun məsləhəti, tövsiyəsi ilə peşə seçib razı qalanlar, təhsil alıb ünlü olanlar, ailə qurub xoşbəxt yaşayanlar var.

Özünün daha çox razı qaldığı əməli isə mənim fikrimcə, “ANA SEVGİSİ, ANAYA XİDMƏT” olub. Anasına hədsiz bağlılığı, dünyasını dəyişənə qədər onu görmək üçün həftəbaşı doğma yurdu Tovuza yollanması Şəmsiyyəni tanıyanların gözü qarşısında olub. Xəstələnəndə başı üstündə dayanmasının, Bakıya gətirib ən tanınmış və inandığı həkimlərlə məsləhətləşməsinin, müalicəsi tam bitənədək yanında saxlayıb onun qulluğunda durmasının şahidiyik. “Anam” kəlməsi onun dilinin əzbəri olub.

Eyni rayondan olsaq da, mən Şəmsiyyəni gec tanımışam. Daha doğrusu, o, məndən öncə mərhum həyat yoldaşım Ələkbərlə “Azərbaycan gəncləri” qəzetində işləyərkən tanış olub. Sonralar Şəmsiyyə radionun “Gənclik” redaksiyasından Saatlıya ezamiyyətə gedəndə yenə orada 1984–1989-cu illərdə rayon komsomol komitəsinin 1-ci katibi işləmiş, rayon sovetinin deputatı olan Ələkbər Hüseynovla görüşüb. Onun 33 yaşında qəfil ölümündən sonra yas mərasimində iştirak edib və üzüntüdən mənə yaxınlaşa bilməyib...

...Bizim tanışlığımız illər sonra oldu. Və nə yaxşı ki, onu tanıdım. Şəmsiyyənin simasında doğulub boya-başa çatdığım rayondan olan bir dəyanətli, mərd, dalbadal gələn dərdə sinə gərib onu şərbət kimi başına çəkən və yoluna təkbaşına davam edən qeyrətli, təəssübkeş xanım tanıdım.

Rayon adamları yaxşı bilir ki, doğma yurdda nəinki yaxından tanımadığı, hətta tanış olmayan birini də paytaxtda görəndə onu hər kəs doğması kimi bağrına basır. O gün, bu gün mənim Bakıda tanıdığım, istər həmkarlarım arasında, istər qohum-əqrəba, qonum-qonşu arasında ailəsinə – bacı-qardaşlarına, onların övladlarına dayaq olan Şəmsiyyə kimi ikinci birini görmədim. Xəstələnən var – Şəmsiyyə, işi dara düşən var – Şəmsiyyə, işdən çıxarılan var – Şəmsiyyə, elçi getmək lazım – Şəmsiyyə, toy var – Şəmsiyyə, yas var – Şəmsiyyə, bir sözlə, bu xanım Simurq quşu kimi hamının harayına çatır, bacardığı, əlindən gələn dəstəyi özü, gücü çatmayanda da, dostlarının vasitəsilə yoluna qoyur. O, bu münasibəti dostlarına da göstərir. Onların müşkülünü özündən xəbərsiz həll edir. Kiminsə hər hansı problemini eşitmək kifayətdir ki, Şəmsiyyə onun həlli üçün çalışıb çözsün. O, çox ali keyfiyyətlərə malikdir.

Onu tanıdıqca, görmüşəm ki, bu xanımın paxıllığı, kimdənsə şikayəti yoxdur, kiməsə həsəd aparmaz, hər kəsin sevincinə özününkü kimi şad olar. Şükrandır. Allahın verdiyi hər nemətə, göz açdığı hər günə görə Rəbbinə minnətdar olmağı bacarır. Söz verdimi, əməl edər, yalanı sevməz. Ətrafına da özü kimi düzgün, sözünün ağası olan insanları toplayan Şəmsiyyə ikiüzlü insanları özündən uzaq tutur. Çox mehribandır. Bu, onun simasındakı daimi təbəssümdən də bəllidir. Haqqını tələb edər, amma sakit və mədəni şəkildə. İstəməz ki, kimsə ondan incisin.

Şəmsiyyənin daha bir özəlliyi var. O, ölkədə, xaricdə, dünyanın harasında olmasından asılı olmayaraq, hər gün sosial şəbəkədən istifadəçilərə müsbət enerji ötürür, hamını salamlayır, “gün aydın” deyir. Orada virtual dostluğunda olanların hər birinin doğum gününü təbrik edir, xoş diləklərini çatdırır. Bunu sosial şəbəkə istifadəçiləri yaxşı bilir.

Şəmsiyyə virtual səyahəti sevdiyi kimi, canlı gəzintilərə də çıxır. Rayon demir, kənd, qəsəbə demir, hamısındakı gözəl, görməli yerləri dostları ilə gəzir və bunu virtual dostlarına da göstərir. Bu gün Bakıdan səsi gələn xanımı sabah Qəbələdə, o biri gün İsmayıllıda, Zaqatalada, Qaxda görmək mümkündür. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rayon şöbələrinin bütün tədbirlərində iştirak edir, maraqlı görüntülərlə paylaşımlar edir. Bu paylaşımlar bəzən böyük bir yazının anonsu olur. Peşəkar jurnalist tədbirləri, orada görüşdüyü insanlardan aldığı müsahibələri sonradan “Yeni Təfəkkür” qəzetinin səhifələrində Azərbaycan dilinin şirinliyi ilə, fikrin gözəl ifadə vasitələri ilə, ustalıqla cəmiyyətə çatdırır.

Onun yazıları göydəndüşmə deyil. Qələmə aldığı hər məqalə, reportaj, müsahibə, oçerkdə göz nuru, ürək çırpıntısı var. Nə yazdığını bilir. “Jurnalistikanın qızıl qaydası” hesab etdiyim bir fikir var: “Nədən yazmaq yox, necə yazmaq!”. Bizim Şəmsiyyəmiz də necə yazmağın ustasıdır. Jurnalistikanın peşəkarıdır. Belə olmasaydı, 2005-ci ildə təkbaşına qəzet təsis etməyə cəsarət etməz, gücü çatmazdı. Yeri gəlmişkən, “Yeni Təfəkkür” qəzeti 2007-ci ildən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həmtəsisçiliyi ilə nəşr olunur. Və Şəmsiyyə yaradıcılığının çiçəkləndiyi dövrdə – 15 il öncə Əməkdar jurnalist fəxri adına layiq görülüb.

Şəmsiyyənin 60 illik yubiley tədbirində Milli Məclisin deputatları, dostları, həmkarları onu təbrikə gəlmişdilər. Məclisdə iştirak edənlərə Əməkdar jurnalistin illərlə yazdığı yaradıcılıq nümunələrindən seçmələr olan və onun haqqında yazılan fikirlərin toplandığı 32,5 çap vərəqi həcmində, 522 səhifəlik, qalın cildli, nəfis tərtibatlı “Şəmsiyyənin kitabı” təqdim olundu. İndi onun 70 illik yubileyi münasibətilə hazırlanan yeni kitab üçün ürəyimdən keçənləri yazanda “Şəmsiyyənin kitabı”nın “Müəllifdən” bölümündəki bir fikrini xatırladım. Şəmsiyyə yazırdı: “Bu, mənim birinci və sonuncu kitabımdır. Mən yazıçı deyiləm, bir jurnalist kimi uzun illərdən bəri yazdıqlarımdan ibarət bu kitab qoy məndən doğmalarıma, dostlarıma, haqqında yazdığım qəhrəmanlarıma, müsahibə aldığım müsahiblərimə bir xatirə olsun. Yazdım ki, sözüm qala... ”.

Əbəs yerə demirlər ki, “Heç vaxt demə ki, heç vaxt”. İndi 70 yaşın ərəfəsində Şəmsiyyə xanım üçün dostlarının çoxsaylı təkidləri ilə hazırlanan yeni nəşr sayca onun ikinci kitabı olacaq. Hər yazdığı cızmaqaranı toplayıb ildə bir kitab nəşr etdirənlərdən fərqli olaraq, Şəmsiyyə sözə dəyər verən, keyfiyyəti kəmiyyətlə uzlaşdırmayan peşəkardır. O, bilir ki, sərraf oxucu pisi yaxşıdan ayırmağı bacarır. Kitabın sayından çox, o nəşrdə oxucuya təqdim olunan fikrin aliliyi əsasdır. Bu mənada o, oxucunun damarını tutmağı da bacarır.

Əminəm ki, belə xatirə kitabından daha bir növbətisi Şəmsiyyə xanımın 80 yaşı üçün hazırlanacaq. Çünki o, buna layiqdir. Çünki o dəyişir, inkişaf edir, yeniliklə ayaqlaşır və onun haqqında həmişə deməyə söz var. Neçə ki, Şəmsiyyə xanım var, demək, ətrafında onu sevən, hörmət edən, adı çəkiləndə üzünə təbəssüm qonan dostları da var. Və bu dostların hər birinin onun haqqında deməyə çox dəyərli fikirləri və sözləri də var və olacaq...

***Zərifə BƏŞİRQIZI***
***XQ***

*Göygöl xəbərləri*

## Şəhid ailələri ilə görüş



**Rayonda şəhid ailələri ilə keçirilən növbəti görüşdə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda Vətən qurbanlarının xatirəsinə dərin ehtiram ifadə olunub.**

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov bildirib ki, şəhid ailələrinin sosial müdafiəsi və onların hərtərəfli qayğı ilə əhatə olunması Azərbaycanda dövlət siyasətinin davamlı istiqamətlərindən biridir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə göstərdiyi yüksək diqqət və himayədarlıq nəticəsində onların həyat şəraiti yaxşılaşdırılır, problemləri, çətinlikləri aradan qaldırılır.

Çıxış edən şəhid ailələri üzvləri dövlətin onlara göstərdiyi qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Onlar bildiriblər ki, bu dəstək həm mənəvi, həm də sosial baxımdan önəmlidir və razılıqla qarşılanır.

Səmimi dialoq şəraitində davam edən mərasimdə şəhid ailələrini maraqlandıran məsələlər müzakirə olunub, arzu və xahişləri qeydə qlınıb.

## İnteraktiv kitab köşkü




**“AzerGold” QSC-nin təşkilatçılığı ilə Göygöl şəhərinin Heydər Əliyev adına mədəniyyət və istirahət parkında müasir formatlı interaktiv kitab köşkü quraşdırılıb.**

Rayon sakinlərinin mütaliə imkanlarını genişləndirməyi və oxu mədəniyyətində əlçatanlıq yaratmağı nəzərdə tutan layihə sakinlərin günün istənilən vaxtı kitablarla pulsuz və sərbəst təmasına imkan yaradıb. Oxucular sadə rəqəmsal qeydiyyatdan keçib geniş kitab siyahısından seçim edirlər.

15 gün sonra oxucuya elektron bildiriş göndərilir və kitabın qaytarılması xahiş olunur. Bununla yanaşı, elektron platforma ən fəal və intizamlı istifadəçilərin reytinqini formalaşdırır. Rübün sonunda yüksək nəticə göstərən oxucular “AzerGold” QSC-nin hədiyyələr ilə mükafatlandırılacaq.

Köşkün təqdim etdiyi 400-ə yaxın nəfis tərtibatlı nəşr Azərbaycan və dünya klassiklərinin əsərlərini, müasir ədəbiyyat, uşaq və yeniyetmə kitabları, biznes və özünüinkişaf sahələrini əhatə edir.

“AzerGold” QSC-dən bildirdilər ki, layihə icmaların intellektual inkişafına dəstək vermək, xüsusilə regionlarda oxu vərdişlərini gücləndirmək məqsədi daşıyır, “Kitab sovqatı”, “Uşaq kitab dostu” kimi maarifləndirici təşəbbüslərinin davamıdır. Bu yöndə ilk addım isə ötən il Daşkəsən rayonunun Quşçu kəndində həyata keçirilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

*Xuntaçıların məhkəməsi*

## Tökülən qanlar üzə durur...

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 24-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.



Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Mirhüseyn Salahov Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində özünün, Hüseyn Məmmədovun və daha bir neçə nəfərin yaralandığını söyləyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Elturan Cəbiyev Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində xəsarət aldığını bildirib.

Zərərçəkmiş Telman Fərhadlı ifadəsində Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş hadisə zamanı daha iki nəfərin xəsarət aldığını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş İslam Məsiyev və Mehdi Əhmədov Kəlbəcərdə düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində müxtəlif xəsarətlər aldıqlarını bildiriblər. İfadə verən Xəlil Xasməmmədov düşmənin təxribatı nəticəsində özünün və daha iki nəfərin xəsarət aldığını, daha iki nəfərin isə həlak olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Ariz Məmmədov Şuşa rayonunun Xəlfəli kəndində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin minaatandan açdığı atəş nəticəsində yaralandığını bildirib. Hadisə zamanı yanında olmuş Nemət Abdullayev və Sadiq Qasımlı da yaralanıb.

İlyas Babazadə Kəlbəcərdə düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib. Hadisə zamanı yanında olmuş Nicat Qarazadə isə həlak olub.

Digər zərərçəkmiş şəxslər - Sadiq Əliyev, Müsənnif Əliyev, Elnur Şıxıyev, Yagir Sultanov, Fərid İbrahimov, Elgün Talıbov, Vüqar Həsənov, Xəyal Həbibov, Mustafa Ağayev, Əmrah Abdıyev, Natiq Zeynallı, Fərid Əliyev, Hidayət Qüdrətzadə, Polad Rəhmanov, Zamil Tağıyev, Sənan Əliyev, Famil Abdullayev, Firuddin Namazalıyev, Hakim Həsənov, Ömər Musayev müxtəlif istiqamətlərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Daha sonra məhkəmə prosesi cinayət işi materiallarında olan sənədlər və digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 25-nə təyin olunub.

***XQ***



# Azərbaycan elminin yeni innovativ çağırışları

**Azərbaycan Milli Elmlər Akademiyasının 3 noyabr 2025-ci ildə keçirilmiş 80 illik yubiley mərasimində ölkə Prezidenti İlham Əliyevin dərinməzmunlu nitqində ötən illərdə Vətən elminin qazandığı möhtəşəm uğurlar yüksək dəyərləndirildi, ziyalılarımızın qarşısında duran önəmli vəzifələr vurğulandı.**



17 mart 1945-ci ildə yaradılan bu elm məbədgahının qət etdiyi yolun əhəmiyyətini, əldə etdiyi elmi nəticələri yüksək qiymətləndirən ölkə başçısı onun cəmiyyətin inkişafında aparıcı rolunu xüsusi olaraq vurğulamışdır: "Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır". Akademiyanın fəaliyyətinin canlanması ötən əsrin 70-ci illərində başlamışdır. Bu dövrdə ümummilli lider Heydər Əliyevin qayğısı ilə yeni elmi-tədqiqat institutları yaradılmış, minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmiş, nəticə olaraq, ölkəmizin milli intellektual kadr potensialı güclənmişdir.

Qeyd etmək lazımdır ki, bu proses özünü müxtəlif elm sahələrində, o cümlədən tarix elmlərinin tədqiqində daha bariz şəkildə göstərmişdir. Uzun müddət ölkəmizdəki arxeoloji abidələrin araşdırılmasında həlledici rola malik olan İ.Meşşaninov, A.Miller, A.Spitsın, T.Passek, B.Latının və digər əcnəbi tədqiqatçıların nəzarətində araşdırılan abidələrimizin tədqiqində tədricən S.Qazıyev, İ.Cəfərzadə, M.Hüseynov, İ.Nərimanov, O.Həbibullayev timsalında onlarla milli arxeoloq kadrların imzalarına rast gəlinməyə başlanmışdır. Bu sahədə Azərbaycan gənclərinin müxtəlif respublika və şəhərlərə ezam olunması da mühüm rol oynayırdı.

Ölkə başçısının qeyd etdiyi kimi, Azərbaycanın ağır sosial-iqtisadi problemlərlə üzləşdiyi dövrdə belə akademiyanın qorunmasına diqqət göstərilmiş, alimlərin fəaliyyəti üçün hər zaman vəsait ayrılmışdır. Elmə göstərilən dövlət qayğısının davam etdirilməsinin nəticəsidir ki, bu gün AMEA-nın maddi-texniki bazası möhkəmləndirilmiş, akademiya şəhərciyində yerləşən binaların təmiri aparılmış, yeni elmi kitabxana, Milli Ensiklopediya üçün yeni bina istifadəyə verilmiş, Elmi-tədqiqat institutları təmir edilərək müasir avadanlıqlarla təchiz olunmuş, 2009-cu ildə isə Azərbaycan alimlərinə qrantlar yolu ilə maddi dəstək vermək üçün Elm fondu yaradılmış, eyni zamanda, Elmin inkişafı üzrə Milli Strategiya, "Elm haqqında" Qanun və Dövlət Proqramı qəbul edilmişdir. Bu addımlar Akademiyanın qorunub-saxlanmasına və inkişafına göstərilən dövlət qayğısının, əsası Ümummilli lider tərəfindən qoyulan elmin təkmilləşdirilməsi və himayə edilməsi siyasətini Prezident İlham Əliyevin layiqincə davam etdirməsinin bariz göstəricilərindəndir.

Bu gün ərazi bütövlüyünü təmin etmiş Azərbaycan sürətlə inkişaf edir, dünyaya inteqrasiya olunur. Siyasi, hərbi, diplomatik sahələrdə əldə edilən inkişafın elmdə də əks olunmasının vacibliyi artıq zamanın tələbinə çevrilmişdir. Prezident tərəfindən elm adamları qarşısında qoyulan başlıca inkişaf istiqamətləri məhz bu zərurətdən irəli gələn vəzifələri müəyyənləşdirməklə Azərbaycan elminin qlobal səviyyədə nüfuzunu artıran yeni üfüqlər açır.

Yeni innovativ çağırışlar bütün elm sahələrini əhatə etməklə onların inkişaf prioritetlərini müəyyənləşdirir. Başlıca prioritetlərə diqqətlə nəzər salarkən müxtəlif elm sahələrini vahid orqanizm şəklində birləşdirən və bir-birini tamamlayan beş başlıca istiqamət ön plana çıxır: texnoloji inkişaf; fundamental elmləri birləşdirən nəzəriyyənin istehsalata tətbiqini hədəfləyən hərbi-sənaye üzrə inkişaf; geoloji və təbiət elmlərini birləşdirən bərpaolunan enerji layihələr; ictimai elmləri əhatə edən siyasi-tarixi-nəzəriyyə; humanitar elmləri birləşdirən mənəvi dəyərlər və dilimizin saflığının qorunması üzrə təkmilləşdirmə.

Birinci istiqamətlə bağlı irəli sürülən prioritetlərin ilk sırasında yeni texnologiyaların tətbiqi, təkmilləşdirilməsi, süni intellekt, rəqəmsallaşmanın intensivləşdirilməsi, xüsusilə kibertəhlükəsizliklə bağlı proqram layihələrin həyata keçirilməsi kimi vacib məsələlər yer alır. Onlar ölkəmizin, onun hər bir vətəndaşının, intellektual potensialının, bütövlükdə gələcəyimizin innovativ-informasiya təhlükəsizliyini təmin edir. Onun əhəmiyyətini qısa bir müqayisə ilə daha aydın görmək olar. Birinci Qarabağ müharibəsi dövründə torpaqlarımızın itirilməsi, suverenlik hüquqlarımızın erməni işğalçıları tərəfindən ağır şəkildə pozulmasına dünyanın biganə qalmasının əsasında məhz informasiya müharibəsindəki məğlubiyyət dayanırdı.

İkinci istiqamət nəzəriyyədən istehsalata keçidin sürətləndirilməsi, texnoloji-intellektual təhlükəsizliyin fiziki təminatı olan hərbi-sənaye sahəsinə fundamental elmlərin verəcəyi töhfələrin əsas prioritetlərini müəyyənləşdirir. Bu gün Azərbaycanda hərbi sənayenin inkişaf etməsinin, hərbi təyinatlı məhsullar istehsal edilməsinin, pilotsuz uçuş aparatlarının istehsalına başlanmasının əhəmiyyətini vurğulayan ölkə başçısı Azərbaycan alimlərini bu istiqamətə dəvət etməklə, onların intellektual bacarıqlarını istehsalata cəlb edən böyük fəaliyyət meydanı vermişdir.

Üçüncü istiqamət ölkənin iqtisadi inkişafına elmi töhfələrin cəlb edilməsi ilə bağlıdır. Azərbaycanın müasir inkişaf səviyyəsində qeyri-neft sektorunun təkanverici qüvvəsi, valyuta ehtiyatlarmızın ildən-ilə artması, azad edilmiş ərazilərimizin bərpasına qoyulan investisiyaların artmasının əhəmiyyəti diqqətə çatdırılmışdır. Qeyd olunmuşdur ki, güclü iqtisadiyyat olmadan heç bir sahədə uğurlar əldə etmək mümkün olmazdı. Lakin müasir iqtisadi inkişaf yeni sahələrin, xüsusilə bərpaolunan enerji layihələrinin inkişafını zəruri edir. Bununla bağlı Qarabağda, Şərqi Zəngəzurda aparılan geoloji işlərə alimlərin dəvət edilməsi təbii resurslarımızın geniş miqyasda üzə çıxarılmasına, həmçinin yeni iş yerlərinin açılmasına, insanların rifahının daha yüksək səviyyəyə çatmasına rəvac verəcəkdir.

Dördüncü və beşinci istiqamətlər daha çox ictimai və humanitar elm sahələri qarşısında duran vəzifələri ehtiva edir. Bu vəzifələr içərisində müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərin yazılması başlıca prioritetlərdəndir. Ölkə Prezidenti bu məsələnin vacibliyini vurğulayaraq qeyd etmişdir: "Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".

Xüsusilə Qərbi Azərbaycanda tarixi yer adlarımızın dəyişdirilməsinə diqqətçəkən ölkə başçısı toponimlərimizi real şəkildə əks etdirən tarixi xəritələrin dərc edilməsinin, Zəfər tariximizlə bağlı elmi əsərlərin yazılmasının vacibliyinə diqqət çəkmişdir. Yeri gəlmişkən, qeyd etməliyik ki, arxeoloji abidələrdə də erməni terroru zaman-zaman özünü göstərmişdir. Qərbi Azərbaycandakı Mahaltəpənin "Aratasen", Xatunarxın "Aknaşen", Təzəkənd arxeoloji mədəniyyətinin "Karmirberd" olaraq dəyişdirilməsi ermənilərin "toponim oğurluğu"nun əyani sübutlarıdır.

Təbii ki, Azərbaycan alimləri tərəfindən bu abidələrlə bağlı yazılan elmi əsərlərdə onlar tarixi adları ilə təqdim olunur. Lakin belə əsərlərin sayının artması tarixi, arxeoloji, memarlıq abidələrimizin bu torpaqların aborigenləri olan əcdadlarımız tərəfindən yaradıldığını sübut etməklə yanaşı, onların timsalında milli-mənəvi, həmçinin tarixi-mədəni dəyərlərimizin beynəlxalq miqyasda tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Belə əsərlərin hazırlanmasında Azərbaycan dilinin saflığının qorunması məsələsi başlıca prioritetlərdən biri olaraq qarşıya qoyulmuşdur.

Beşinci istiqaməti təşkil edən ana dilimizin orijinallığının saxlanması məsələsi təkcə dilçi–alimlərin deyil, bütövlükdə Azərbaycan ictimaiyyətinin ürəyindən olan əsaslı məsələlərdəndir. Dilimizi xarici kəlmələrdən qorumağın vacibliyini vurğulayan ölkə Prezidenti bununla bağlı demişdir: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər".

Azərbaycan elminin inkişaf tarixində yeni səhifənin ilk başlıqları kimi tarixə daxil olan bu innovativ çağırış və inkişaf prioritetləri elm adamlarına göstərilən böyük etimadın yeni üfüqlərini açmışdır. Zəfərimizin beş illiyində, ərazi bütövlüyümüzün və suverenliyimizin konstitusional təminatının yubiley ili olan və haqlı olaraq da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci il, eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyasının yubiley ili və fəaliyyətini yuxarıda qeyd edilən prioritet istiqamətlərə yönəldərək əldə edəcəyi gələcək uğurların başlanğıc nöqtəsi olaraq elm tariximizə daxil olur.

***Zeynəb QULİYEVA,***
***AMEA Naxçıvan Bölməsinin***
***baş elmi işçisi, Ali Məclisin deputatı***

# Tarixi abidələr pasportlaşdırılır

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunun mütəxəssisləri Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin pasportlaşdırılmasına başlayıblar.**



Görülən işlər çərçivəsində abidələrin dəqiq memarlıq ölçmə cizgiləri hazırlanacaq, mövcud vəziyyəti qeydə alınacaq, fotofiksasiya aparılacaq, coğrafi koordinatları müəyyən ediləcək, tarixi arayışları tərtib olunacaq, arxiv materialları araşdırılacaq və digər zəruri tədbirlər həyata keçiriləcək.

Pasportlaşdırılacaq abidələr arasında Naxçıvan şəhərində yerləşən Möminə Xatun (1186–1187) və Yusif ibn Kuseyir (1161–1162) türbələri, İsmayılxan hamamı (XVIII əsr), Ordubad şəhərindəki Buzxana, Came məscidi və Mədrəsə (XVIII əsr), Culfa rayonunda Gülüstan türbəsi (XIII əsr) və Xanəgah memarlıq kompleksi, Kəngərli rayonunda Qarabağlar Memarlıq Kompleksi (XII–XIV əsrlər) kimi dünya və ölkə əhəmiyyətli memarlıq nümunələri də yer alır.



Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli Qərarı ilə "Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları" və "Daşınmaz abidələrin pasportunun nümunəvi forması" təsdiqlənib. Qərara uyğun olaraq, Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, təsdiqlənmiş yeni forma əsasında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən 50 tarix və mədəniyyət abidəsinin pasportu hazırlanacaq.

***H.SƏBUHİ***
***XQ***

*Yeni nəşrlər*

# Qədim diyarın tarixi elmi mənbələrdə

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin qədim diyarın tarixinə dair "Naxçıvan tarixi mənbələr işığında" və "Naxçıvam Muxtar Respublikasının yaranması və inkişaf tarixi" adlı 2 yeni kitabı işıq üzü görüb. Bu nəşrlərdə muxtar respublikanın son 25 ildə keçdiyi ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişaf mərhələləri barədə elmtutumlu, mənbə sayılan müxtəlif materiallar toplanıb.**







Birinci kitabda müəllifin ötən illərdə müxtəlif əsərlərə yazdığı ön sözlər, resenziyalar və müsahibələr verilib. Nəşrə akademikin çap olunmuş əsərləri barədə yazılmış resenziyalar da əlavə edilib. "Apostrof-A" nəşriyyatında işıq üzü görən 472 səhifəlik mənbənin elmi redaktoru, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev, rəyçiləri tarix üzrə fəlsəfə doktoru Musa Quliyev, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov, naşiri isə Akif Dənzizadədir. "Naxçıvan tarixi mənbələr işığında" kitabı "Giriş" və 3 fəsildən ibarətdir.

I fəsildə müəllifin "Heydər Əliyevin tariximizdə və taleyimizdəki yeri və rolu", "Heydər Əliyev: bəşəri müdrikliyi özündə əks etdirən tarixi şəxsiyyət", "Azərbaycan tarixində Heydər Əliyev mərhələsi", "Naxçıvan diyarının siyasi tarixi", "Naxçıvan tarixi yeni tədqiqatda", "Naxçıvan tarixi və abidələri", "Kəngərli elinin soy kitabı", "Qədim türk yurdu haqqında həqiqətlər", "Vətənin əbədi harayı" 30-dək kitaba yazdığı ön sözlər yer alıb.

II fəsildə isə İsmayıl Hacıyevin "Heydər Əliyev irsi–əbədiyaşar təlim", "İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003–2024)", "Əlincəçay mahalına həsr edilmiş dəyərli əsər" kimi kitab və kitab və monoqrafiyalar barədə 8 resenziyası toplanıb. Bu bölmədəki "Yeni dövrün yeni Naxçıvanı", "Naxçıvanın müstəqillik dövrü salnaməsi", "Naxçıvanşünaslıq elmi xəzinəsinə dəyərli töhfə", "Ümummilli liderin yubileyinə həsr olunan dəyərli monoqrafiya", "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafına həsr olunmuş monoqrafiya naxçıvanşünaslığa dəyərli töhfədir" və s. 25 resenziya isə alimin öz əsərləri barədə dövri nəşrlərdə çap olunmuş məqalələrdir.

Kitabın III fəslində isə "Elmə olan diqqətin təzahürü", "AMEA Naxçıvan Bölməsi fəaliyyət dairəsini genişləndirir", "Ölkə Prezidentinin bəyanatı erməniləri təşvişə salıb", "Müstəqil Azərbaycanın siyasi zəfərlər epopeyası" və s. mövzularda "Xalq qəzeti", "AZƏRTAC", "Yeni Azərbaycan", "Şərq qapısı", "İki sahil", "Azad Azərbaycan", "Naxçıvan", "Tələbə press", "Nuh yurdu", "Azərbaycan diasporu", "Səs", "Kaspi", "525-ci qəzet" və s. media qurumlarına verdiyi müsahibələri təqdim edilib.

Akademik İsmayıl Hacıyevin "Naxçıvam Muxtar Respublikasının yaranması və inkişaf tarixi" (rus dilində) adlı monoqrafiyası isə tarixi həqiqətlərimizin beynəlxalq aləmdə tanıdılması məqsədilə orijinal nəşrdən sonra rus dilində çap edilib. Əsərdə XX əsrin əvvəllərində Naxçıvan diyarının ictimai-siyasi və hərbi vəziyyəti araşdırılmış, Naxçıvanda baş vermiş hadisələr təhlil edilmiş, ermənilərin Naxçıvan iddiaları və soyqırımı törətmələri, Naxçıvanın qəhrəman əhalisinin mübarizəsi faktik materiallar əsasında öyrənilmişdir. Türkiyənin köməyi ilə Naxçıvanın qorunub saxlanılması, Moskva və Qars beynəlxalq müqavilələri sayəsində Azərbaycanın protektoratlığında Naxçıvana muxtar respublika statusunun verilməsi, Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi xronoloji ardıcıllıqla işlənilib.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən 447 səhifəlik monoqrafiyanın elmi redaktorları tarix elmləri doktoru, professor Nikolay Dyakov, tarix üzrə fəlsəfə doktoru, dosent Akif Fərzəliyev, rəyçiləri isə AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Musa Qasımlı, tarix elmləri doktoru, professor Oktay Sultanov, tarix elmləri doktoru, dosent Emin Şıxəliyevdir.

Bu monoqrafiya "Giriş", 7 fəsil və "Nəticə"dən ibarətdir. "Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə" adlı I fəsildə Türkiyənin Naxçıvan bölgəsinə siyasi-hərbi yardımı, İngiltərə və ABŞ-ın Naxçıvan bölgəsinə dair ikili siyasəti, ermənilərin Naxçıvan bölgəsinə ərazi iddiaları kimi məsələlərdən bəhs olunur.

Monoqrafiyanın "Araz-Türk Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu" adlı II fəslində Araz-Türk Cümhuriyyətinin yaranması, hakimiyyət strukturlarının yaradılması, ərazi bütövlüyü uğrunda erməni daşnaklarına qarşı mübarizə kimi məsələlərə yer verilib. "Naxçıvanda Sovet hakimiyyətinin qurulması, muxtariyyət statusu və Naxçıvan MSSR-in təşkili" adlı III fəsildə Qars konfransı, Qars müqaviləsi, Azərbaycanın himayəsində Naxçıvan statusu, Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusu və MSSR-in təşkili barədə məsələlərdən bəhs edilib.

"Naxçıvan MSSR XX əsrin 20-30-cu illərində" adlı IV fəsildə Naxçıvan sənayesinin bərpası, inkişafı, Naxçıvan MSSR-də mədəni quruculuq işlərindən bəhs olunub. Monoqrafiyanın "Naxçıvan Muxtar Respublikası 1941–1945-ci illər müharibəsi dövründə" adlı V fəsli Naxçıvan əhalisinin müharibə cəbhələrində, həmçinin arxa cəbhədəki fəaliyyətlərinə aydınlıq gətirilir.

"Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı (1946-1990)" və "Naxçıvan Muxtar Respublikası müstəqillik illərində (1990-2024)" adlı fəsillərdə isə Naxçıvan tarixində Heydər Əliyev dövrü, müstəqilliyin möhkəmləndirilməsi, Naxçıvan Muxtar Respublikasının inkişaf dinamikasına nəzər salınıb. Monoqrafiyada şəxsi və coğrafi adların göstəricilərinə də yer verilib.

***S.HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Vətən yaşayır, həyat davam edir

**Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Xalqımızın qürur, fəxr və sevinc kimi müxtəlif duyğuları eyni anda yaşadığı, sonu zəfərlə bitən 44 günlük Vətən müharibəsindən beş il keçir. 5 il zaman olaraq az deyil.**

O zaman ana bətnində olan körpələr indi məktəbə hazırlaşır, xaraba şəhərlər günbəgün abadlaşır. Həyat davam edir. Zaman bir çox yaralara məlhəm olur, ancaq elə yaralar var ki, qaysaq bağlasa da sağalmır. "Bala dağı–yağ dağı", - deyib analar. Vətənin azadlığı, bütövlüyü uğrunda öz balasını qurban verən anaların sağalmayan yarası var.

Bəli, müharibə bitib. Bu səbəblə xalq olaraq çox xoşbəxtik. Bu xoşbəxtlikdən qürur duyan, Azərbaycan bayrağını ən müqəddəs andı bilən analar var, qadınlar var, uşaqlar var, ailələr var fərd olaraq bədbəxt olan. Viktor Frankla görə insan ən ağır vəziyyətdə belə həyatın mənasını tapırsa, bədbəxtlik gücə çevrilə bilir. Necə ki, övladını, ərini, qardaşını, atasını itirən fərdlər həyatın mənasını Vətənin bütövlüyündə, azadlığında tapdı. Onların Vətən sevgisi gücə–dəmir yumruğa çevrildi və xəyalları gerçək etdi.

Ana Vətəni övladından üstün tutan hər bir şəhid anası qəlbini didib-parçalayan sonsuz kədərə rəğmən dik dayandı. Çünki onlar üçün Vətən və övlad sevgisi birlikdə ən müqəddəs duyğunu formalaşdırıb. Öz can parçasını itirən analar bunu şəxsi faciə kimi dəyərləndirməyib, övladının ölümünü mətanətlə qarşılayıb və Vətənə verilmiş pay biliblər. Ana üçün övlad candır, nəfəsdir, yaşam səbəbidir. Vətən sevgisi isə sevgilərin ən alisi, ən müqəddəsidir. Vətən sevgisi yeganə qüvvədir ki, övlad itkisinin ağrısını, kədərini qürura çevirib, analara səbir, dözüm verib.

Bütün şəhidlərin taleyi bir-birinə bənzəyir. Hamısı nakam, arzuları ürəyində, adları tarixdə qalan. Hamısının sevdiyi bir, hədəfi bir. Sevdikləri Vətəndi, hədəfləri suverenlik. Şəhidlər şəhadətə ucaldılar. Atalar-analar övladsız, qadınlar ərsiz, uşaqlar atasız qaldılar. Poladın, Mübarizin, Fəridin, Toğrulun, Nicatın, Elşənin... fərqli idi atası, anası, eyni adı qazandılar: şəhid atası, şəhid anası.

Elə şəhid anaları da bir-birinə bənzəyir. Hamısının üzündə nur, qəlbində qəm. Hamısının dərdi birdir, dözülməzdir. Övlad itkisi müqayisəolunmazdır və hər bir övlad özlüyündə təkdir, bir dənədir. Ana var ki, yeganə bir balasını, gözünün ağı-qarasını qurban verib Vətən üçün. Ana var ki, iki oğlu şəhid olub Vətən üçün. Yenə dözüb, başıuca dik dayanıb. Çünki bilib, torpaq əgər uğrunda ölən varsa, vətəndir!

Qadınlar var, gənc yaşında yarsız qalan. Toy sədası qulağından çəkilməmiş al otağına qara bağlanıb. Düz beş ildir adı olub şəhid yoldaşı. Birgə xəyallar qurduğu, başını çiyninə qoyub uyuduğu əri artıq torpaq olub, Vətən olub. Əri ilə birlikdə dəfn olunub onun qadın xoşbəxtliyi. Bu gün onlar şəhidlərdən əmanət qalan övladları, şərəfləri, Vətənə sədaqətləri üçün yaşayırlar. Yaşayırlar ki, şəhid əmanətlərini onlara



layiq şəkildə yetişdirsinlər. Yaşayırlar ki, şəhid analarına, üçrəngli bayrağı bağrına basıb, "Vətən sağ olsun!" - deyən şəhid atalarına arxa-dayaq olsunlar.

Övladlar var, ata üzü görməyən, atasının şəhadətindən sonra doğulan. Uşaqlar var, düz beş ildir ata yolu gözləyən, körpələr var yuxusunda atasına qovuşan, oğullar var bir andaca böyüyən. Bir də şəhid qızları var, dərdi dilə gəlməyən...

Böyüyüblər, böyüyürlər. Yaşayıblar, yaşayırlar bu Vətəni yaşatmaq üçün.

Həyat davam edir...

***Zəminə RƏSULOVA,***
***Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

# Evin sonbeşiyi – elin qürur ünvanı

**Vətən müharibəsi şəhidi, tank komandiri, gizir Telman Həsənlinin atası Rafiqlə görüşümüz bir bazar gününə təsadüf etdi. Aramızda o qədər də yaş fərqi olmasa da, Rafiqin bu beş ildə oğul dərdindən əyilmiş qamətində sanki kədər, qürur birləşib. Baxışlarında həm oğul itkisinin ağrısı, həm də Vətən sevgisinin böyüklüyü var. Şəhid atalarının əyilmiş qamətini düzəldə bilməsək də, önündə baş əyməyi bacarmalıyıq. Çünki o qamət, ağrı, o fədakarlıq sayəsində bu torpaqlar azaddır.**



Danışıb vədləşdiyimiz kimi, Rafiqlə kəndin girəcəyində görüşürük. "Bəlkə əvvəlcə Telmanın məzarını ziyarət edək. Axşam yuxuma girib", - deyə Rafiq söyləyir. Özümdən biixtiyar olaraq "Rafiq, söz ver ki, məzar önündə kövrəlməyəcəksən". Sən də mənim xahişimə əməl edəcəksən. Ziyarət edib, söhbətimizi evimizdə–şəhidimizin xoşladığı heyva mürəbbəsi ilə çay süfrəsi arxasında davam etdirəcəyik. Necə də razılaşmayasan? Bir halda ki, bununla şəhidimizin ruhu, atanın da sınıq qəlbi şad olacaqsa niyə də etməyəsən?

Rafiqin solmuş gözlərində, baxışlarında torpaq qoxusu, övlad nisgili duyulur. O gözlər çox hallara görənlik edib–bayrağa bükülmüş tabutu, diz çökməyən bir millətin iradəsini. Baxışların dərinliyində də bir işıq var–oğlunun adı kimi, əbədi parlayan bir işıq.

Nəhayət, Telmanın məzarı önündəyik. Diqqətim Rafiqə yönəlir. Dərindən ötürdüyü köksün acısı başadüşüləndir. Amma atanın bir təsəllisi var: oğlu Vətənin azadlığı, bütövlüyü uğrunda şəhid olub.

**Ziyarətdən sonra Rafiq oğlunun şəkillərini bəzəyən otağında söhbətə başlayır:**

– Telman sonuncu dəfə evə 2020-ci il sentyabrın 20-də üçgünlük gəlmişdi. O vaxt təlimlər gedirdi. Evdə hər kəsin üzünə diqqətlə baxırdı. Çox fikirli idi, amma heç nə demirdi. Son gedişində – sentyabrın 22-də hamımızı bərk qucaqlayaraq öpdü. Sonradan başa düşdük ki bu, vida imiş. Sentyabrın 27-si müharibə başlayanda isə səhər zəng edib dedi ki, narahat olmayın, dua edin, hər şey yaxşı olacaq. Döyüş yoldaşları ilə birlikdə düşmənin iki tankını qənimət kimi götürə bilib. Onlardan birini özü idarə edib. Həmin tanklar düşmənin özünə qarşı istifadə olunub. Qardaşlarından biri ilə telefon danışığında mətnaltı olaraq "Öz maşınımdan ikisini götürmüşəm, işlək vəziyyətdədir", - deyib. Telman Vətən müharibəsi zamanı iki tank kolonuna rəhbərlik edirmiş. Qubadlıya ilk tank kolonu onun rəhbərliyi ilə daxil olub. O, qızğın döyüşlər zamanı rayonun Balasoltanlı kəndində şəhid olub".

Son dəfə ailə üzvləri ilə oktyabrın 16-da danışan Telman adəti üzrə hər şeyin qaydasında olduğunu, ondan narahat olmamalarını tapşırır və iki gündən sonra şad xəbər verəcəyini bildirir. Telmandan şad xəbər gözləyən ailəsi onun şəhidlik xəbərinə sarsılır. Evin sonbeşiyi əbədiyyət zirvəsinə yüksəlmişdi...

Rafiq göz yaşlarına qərq olaraq qeyd edir ki, Telman uşaqlıqdan çox fərqli idi. Hər zaman hərb sahəsinə böyük maraq göstərirdi. Hələ balaca vaxtlarından əlinə oyuncaq silah alar, "mən böyüyəndə əsgər olacağam, Vətəni qoruyacağam", - deyərdi. Biz o zaman bunu sadəcə uşaq arzusu kimi qəbul edirdik. Sən demə, Vətən sevgisi də onunla bərabər böyüyürmüş. Ordu sıralarına qoşuldu, xidmətini böyük məsuliyyət və fəxarətlə yerinə yetirdi. "Bu torpaqlar bizimdir, biz azad etməliyik", - deyərək, son damla qanına qədər vuruşdu.

Şəhid atası ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərin ailələrinə göstərilən qayğıdan söz açır: Dövlət başçımızın və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər zaman şəhid ailələrinə göstərdiyi diqqəti bu beş ildə hər zaman hiss edirik. Dövlətimiz hər zaman yanımızdadır. Prezident İlham Əliyevin sərəncamları ilə oğluma verilən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına" və "Füzulinin azad olunmasına görə" medalları ilə bir ata kimi qürur duyuram.

Şəhid olduğu günə qədər Telman mənim oğlum idi. 5 ildir ki, Azərbaycan xalqının oğludur. Hər zaman bir valideyn kimi mənim başımı necə uca etmişdisə, döyüş meydanında da Vətənimizin başını uca etdi.

Telman 1998-ci il martın 3-də Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olub. 2016-cı ildə həqiqi hərbi xidmətə, Vətənə xidmət borcunu ödədikdən sonra 2018-ci ildə "Gizir hazırlığı kursu"na yazılıb. Kursu tank komandiri kimi bitirərək Azərbaycan Ordusunun giziri təyinatla Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə fəaliyyətə başlayıb. 2019-cu ildə Beyləqanda yerləşən "N" saylı hərbi hissəyə təyinat alıb.

Əsgərlikdə snayper olduğuna görə, tankla hədəfi dəqiq vurmaq qabiliyyətinə malik imiş. Hətta müharibədən əvvəl keçirilən təlim vaxtı qoyulan hədəfi tankda dəqiq vurduğu üçün Milli Qəhrəman, Vətən müharibəsi şəhidi, polkovnik Şükür Həmidov tərəfindən mükafatlandırılmışdı. Xidmət etdiyi hərbi hissədən valideynlərinə göndərilən təşəkkür məktubları isə onun gələcək uğurlarından xəbər verirdi.

44 günlük Vətən savaşı 30 illik işğala son qoymaqla tarixə Böyük Zəfər kimi yazıldı. Bu Zəfərin qazanılmasında yüzlərlə Vətən oğlu qəhrəmanlıq, igidlik nümunələri göstərdi. Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirən şəhidlərimizin xatirəsi xalqımız tərəfindən daim əziz tutulur.

***Müşfiq CƏFƏROV***
***XQ***

# Zəfər sevincini yaşamış şəhid

**Vətən müharibəsi şəhidi Elməddin Sübhi oğlu Əlizadənin ata yurdundayam. Bir vaxtlar qonaq qismində gedib gülərüzlə qarşılanan ünvana bu dəfə daha fərqli şəkildə üz tuturam. Sübhi ilə uşaqlıq dövrümüz bir yerdə keçdiyindən ata evinin hər daşı, hər qarışı mənə doğmadır.**





Şəhidin babası Nəsrəddin müəllimin gözlərindəki kədər aydın hiss olunur. Uzun illər kənd orta məktəbində dərs deyib. El-obasının sayılıb-seçilən ziyalılarındandır. Kənd əhlinin xeyir-şərində həmişə öndə olub. Nəsrəddin müəllim övladlarına zəhmətlə halal çörək qazanmağı hər zaman aşılayıb. Evin böyük övladı Sübhi də elə uşaq vaxtlarından zəhmətə qatılıb. Kənd təsərrüfatı işləri ilə, əkin-biçinlə, heyvandarlıqla məşğul olub. Ailə qurduqdan sonra dünyaya göz açan övladlarını Sübhi də halal zəhmətlə böyüdüb. Vətəni necə sevməyi, qorumağı öyrədib.

**İndi Sübhi Biləsuvarda Vətən uğrunda canlarından keçmiş yüzlərlə şəhid valideynlərindən biridir. Övlad itkisi ağır olsa da başıuca gəzir. "Mən də şəhid atasıyam", - deyə söhbətə başlayır:**

– Göründüyü kimi, istər ata yurdunda, istərsə də evimin hər qarışında Elməddinin xatirələri var. Danışmağa cəhd etsə də, kövrəlir, əlindəki qalın bir qovluğu səssiz qarşıma qoyur. Elməddinin uşaqlıqdan tutmuş son şəkilləri hamısı buradadır. Şəkillərə baxdıqca, babanın, ata-ananın bu beş ildə ağaran saçları ürək dağlayır.

Şəhidin anası Mehrac xanım titrəyən əlləri ilə bir şəkil tutub: "Bu mənim Elməddinlə sonuncu şəklimdir. Müharibəyə yola saldığım gün körpə bir uşaq kimi mənə sarıldı. Əlləri ilə göz yaşlarımı silərək, qəhrəman anaları ağlamaz, - dedi. Tezliklə elçi gedəcəksən. Hər şeyə hazır ol. Bir az aralanmışdı ki, dönüb geriyə xeyli baxdı. Ana ürəyi həssas olur. Qəribə bir hiss məni bürüdü. O gündən yuxum ərşə çəkildi. Tez-tez telefonla əlaqə saxlayırdı. Hər zəng edəndə mənimlə zarafatlaşırdı ki, ağlamayım. Çox zəhmətkeş uşaq idi. İnana bilməzdim ki, bir gün məni şəhid anası edəcək".

Sübhi söhbətə qoşulur: "Sonuncu dəfə noyabrın 6-da danışdıq və dedi ki, salamatçılıqdı, özünüzdən muğayat olun. Anamı, qardaş və bacılarımı qoru. Elməddin 23 il ömür sürdü. Onun barəsində danışmağa çətinlik çəkirəm, mənim oğlum bir qəhrəmandır, onunla qürur duyuram. Beşinci ildir ki, şəkilləri və bizə yadigar qalan əşyaları ilə danışıram. Elməddinin mesajlarını, səsini, göndərdiyi videogörüntülərin hamısını saxlayıb, göz bəbəyi kimi qoruyuram. Çox vətənpərvər, qorxmaz, gülərüz, mehriban idi.

İlk gündən qələbə əzmi ilə döyüşlərə atılan kəşfiyyatçı əsgər yoldaşları ilə birgə həmlə zamanı onlarla düşmən pusqusunu məhv edib. Elməddinlə çiyin-çiyinə



döyüşən dostları onun döyüş rəşadətindən danışdıqca, fəxr edirəm ki, belə qəhrəmanın atasıyam. Ötən 5 ildə dövlətimiz şəhid ailələrini diqqət mərkəzində saxlayır. Problemlərimizlə maraqlanır. Ünvanlarımız döyülür. Bir sözlə, bu cür münasibət bizi daha da ruhlandırır. Tədbirlərə dəvət olunuruq. Şəhid atası kimi iştirak edirik. Vətənimiz də sağ olsun, dövlətimiz də".

2015-ci ilin aprel ayında Elməddin Əlizadə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrı Dövlət Xidmətinin Biləsuvar rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilib. Xidməti dövründə kəşfiyyatçı kimi xidmət keçib. Elməddin hərbi xidmətdə olarkən 2016-cı il Aprel döyüşlərində düşmən hücumunun qarşısının alınmasında iştirak edib.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun rəhbərliyi ilə uğurlu döyüş əməliyyatlarının da iştirakçısı olub. Hərbi xidmətini başa vurduqdan sonra Elməddin hərbi geyimlər tikişi fabrikində işləməyə başlayıb.

Bu barədə babası Nəsrəddin müəllim danışır: "Elməddin sevimli nəvələrimdən biri idi. Orta məktəbdə də müəllimi olmuşam. Bir baba kimi onun haqqında danışmaq olduqca ağırdır. O ağrını bizə dövlətimiz, xalqımız unutdurdu. Üç min şəhiddən biridir Elməddin. Toy etmək üçün hərbi xidmətdən sonra işləməyə başladı. Aldığı məvacibdən ata-anasına da kömək edirdi. Günlərin bir günü mənə zəng etdi. Artıq Vətən müharibəsinin başladığı ilk günlər idi. Müharibəyə getmək istədiyini bildirdi. Sözsüz ki, etiraz etmədim. Əksinə, qürurlandım ki, səsi-sorağı cəbhədən gələcək.

Nəhayət, iş yerindən ayrılıb kəndə gəldi. Vətən müharibəsi zamanı qismən səfərbərlik elan edildikdən bir neçə gün sonra Elməddin müharibədə iştirak etmək üçün könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Biləsuvar rayon şöbəsində qeydiyyatdan keçdi və müharibəyə yollandı. Yola salanda sevinə-sevinə getdi. Onun son görüşdə bizimlə sağollaşması, ayrılanda dönüb dəqiqələrlə bizə baxması gözlərimin önündən getmir.

Dövlətimizdən də çox razıyıq. Elməddin ölkə başçısı tərəfindən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Elməddin kəşfiyyatçı kimi döyüşlərə Ağdam istiqamətində başlayır. Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə və Şuşa şəhərinin erməni separatçılarından təmizlənməsində də igidlik göstərir. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir. Noyabr ayının 8-də düşmənlə əlbəyaxa döyüşlərdə Elməddin yaralanır, buna baxmayaraq, yenidən döyüşür və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçməklə qəhrəmancasına şəhid olur.

Şəhidin nəşi 9 noyabr 2020-ci ildə doğulduğu Biləsuvar rayonunun Zəhmətabad kəndində torpağa tapşırılır. Doğma kəndlərindəki yaşadığı küçəyə qəhrəmanımızın adı verilib. İndi bu ailədə daha bir Elməddin Əlizadə böyüyür. 2 yaşı olsa da, hər gün əmisinin şəkillərini qucaqlayır, bağrına basır. Sübhi də oğlunun ətrini adını daşıyan nəvədən alır.

Baba da, ata-ana da Elməddinin vətənin azadlığı uğrunda şəhidlik zirvəsinə ucalması ilə fəxr edirlər.

***M.MİRZƏ***
***XQ***

# Könüllü Elcanın savaş hekayəsi

**Vətən müharibəsindəki qələbədən 5 il ötməsinə baxmayaraq, hələ də şəhid adı gələndə ürəyi sızlayan, gözləri dolan analar, bacılar, gəlinlər var. Onların yalnız bir təsəllisi var: dövlətimiz Vətənin azadlığı, bütövlüyü uğrunda qurban gedənləri unutmur, onların ailələrini diqqətdə saxlayır. Bizim də borcumuz şəhidlik məqamına ucalan igidlərimizin həyatını, döyüş bacarığını işıqlandırmaqla belə ailələrə təskinlik verməkdir.**

Bu gün tovuzlu şəhid Elcan Cəlilovdan söz açacağıq. O Elcan ki, 1996-cı il aprel ayının 27-də Tovuz rayonunda anadan olub. 2003–2014-cü illərdə A.Puşkin adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb. Orta məktəbi bitirəndən sonra arzuladığı ali məktəbə daxil ola bilmədiyindən həqiqi hərbi xidmətə yollanıb. Elcan Cəlilov 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Tovuzluların qonşu Ermənistan dövləti tərəfindən dəfələrlə müxtəlif iriçaplı silahlardan atəşə tutulması digər həmyaşıdları kimi, Elcanda da erməniyə nifrət hissini alovlandırıb. Gənclər günün birində Qarabağın azadlığı uğrunda mübarizəyə başlayacaqları günü həsrətlə gözləyirlər. Nəhayət, o gün yetişir.

Elcan Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllülərin sırasında savaşa yollanır. Hər azad edilən kənd, şəhər onun ürəyində qələbə inamını möhkəmləndirir. İmkan tapdıqca valideynləri ilə telefon əlaqəsi yaradıb onlara tezliklə qələbə xəbəri verəcəyini deyirmiş. Atası Famil Cəlilovun bildirdiyinə görə, Elcan hər zəng vuranda azad etdikləri ərazilərin adını böyük sevinclə söyləyirmiş. Müharibənin ilk günündən döyüşdə olan Elcan Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə könüllü olaraq savaşıb. O, noyabrın 7-də Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlər zamanı şəhid olub.

Öncə Familgilin qapısını Elcanın şəhid olduğu xəbəri döyür. Bir gün sonra isə Azərbaycan bayrağına bükülmüş tabutu hərbçilərin və döyüş yoldaşlarının əhatəsində doğulduğu evə gətirilir. Anası Güllü, qardaşı Amin və bacıları Nabatla Xanım tabutdakının Elcan olduğuna inanmaq istəmirlər. Ananın ağı dolu fəryadı ətrafa yayılır...



Torpağın üzü soyuq olur. Elcan Tovuz rayonunda Şəhidlər xiyabanında dəfn olunur. Elcan subay idi. Bəlkə də gəncin nakam qoyduğu gözaltısı vardı, kim bilir? Amma bildiyimiz o ki, Elcanın anası Güllü 5 ildir ki, hər cümə axşamı oğlu ilə görüşə gəlir. Ürəyindəkiləri onunla bölüşür, verdiyi suallara cavab ala bilmir, göz yaşları içində məzarı tərk edir. Hər gün otağın birində Elcana aid fotoların, əşyaların saxlandığı guşədə saatlarla oturur, sonra özünün dediyi kimi, təskinlik tapır...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Elcan Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

*Rəşad Məcid–60*

# "Pozitiv, etibarlı və anlayışlı həmkar..."

## *Milli Kitabxanada yubiley mərasimi*

**Dünən Milli Kitabxanada Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Məcidin anadan olmasının 60 illiyi ilə əlaqədar nəşr olunan "Qala adam" kitabının və "Rəşad Məcid-60" elektron məlumat bazasının təqdimatı keçirilib.**



Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək "Qala adam"ın orijinal, fərqli və nostalji hisslərlə dolu bir kitab olduğunu söyləyib. O, 1992-ci ildə "525-ci qəzet"i yaradan Rəşad Məcidin bu addımını çox böyük uğur kimi qiymətləndirib.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rəşad Məcidin çox pozitiv, etibarlı və anlayışlı həmkar olduğunu bildirib. O əlavə edib ki, yubilyar həm də çox istedadlı şair və publisistdir. Onun publisistik yazıları Mirzə Cəlilin, Üzeyir bəyin publisistikasının davamı kimi xarakterizə oluna bilər.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, bütün yönləri ilə yaradıcı olan Rəşad Məcid Azərbaycan müstəqillik dövrünün publisistidir və poeziyanın bütün janrlarında professional şairdir.

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov deyib ki, Rəşad Məcid daim irəli gedən, yenilikçi və istedadlı şairdir. Onun baş redaktor olduğu "525-ci qəzet" Azərbaycanda ən çox oxunulan qəzetlərdəndir.

Məclisdə Milli Məclisin üzvü, yazıçı-publisist Aqil Abbas, akademik Nizami Cəfərov, professorlar Cahangir Məmmədli, Qulu Məhərrəmli, Əli Əmirli, MEDİA-nın icraçı direktorunun müavini Natiq Məmmədli və digər iştirakçılar Rəşad Məcidin yaradıcı fəaliyyətini yüksək qiymətləndirib və ona uğurlar arzulayıblar.



Sonda Rəşad Məcid iştirakçılara, mərasimin yüksək səviyyədə təşkilinə görə Milli Kitabxananın əməkdaşlarına minnətdarlığını bildirib.

***XQ***

*Birinci Türkoloji Qurultay – 100*

# Dunayboyundan Xəzər sahillərinə düşən işıq

## *Macar akademik Bakının türk zirvəsində*



*Macar alimi Mesaroş (solda) və Bəkir Çobanzadənin 1926-cı ildə çəkilmiş fotosu*

**Gyula Mesaroş Macarıstan Elmlər Akademiyasının tanınmış alimi, türkologiya və etnoqrafiya sahəsində mühüm xidmətləri olan görkəmli macar türkoloqudur. O, XX əsrin əvvəllərində Avropada türk xalqlarının dili, tarixi və mədəniyyəti üzrə nüfuzlu tədqiqatçılardan biri kimi tanınmışdır. Birinci Türkoloji Qurultaya o dövrdə Türkiyə Etnoqrafiya Muzeyinin yaradıcısı kimi Türkiyədə yaşadığından, tədqiqatçıların bildirdiyinə görə, Türkiyədən dəvət olunan nümayəndələr sırasında qatılmışdır.**

Gyula Mesaroş 1883-cü il martın 28-də Macarıstanın Sakç şəhərində anadan olmuşdur. Orta təhsilini burada başa vurduqdan sonra Budapeşt Universitetində Şərq dilləri, xüsusilə türk dilləri üzrə təhsil almış və elmi fəaliyyətini türkologiya istiqamətində davam etdirmişdir. Onun elmi maraqları arasında qıpçaq, tatar, türk və macar dilləri arasındakı əlaqələr, həmçinin Orta Asiya və Volqa-Ural bölgəsindəki türk xalqlarının mədəni əlaqələri xüsusi yer tuturdu.

Macar xalqı ilə türklər arasında əsrlərdən bəri mövcud olan mədəni və tarixi yaxınlıq gənc Mesaroşun da maraq dairəsini müəyyən etmişdir. 1904-cü ildə İstanbula gələrək darülfünunda təhsilini davam etdirən Mesaroş burada türk dilini, folklorunu və adət-ənənələrini dərindən öyrənmiş, Osmanlı ziyalı çevrələri ilə elmi əlaqələr qurmuşdur. 1906-cı ildə təhsilini başa vurduqdan sonra Budapeştə dönən alim artıq türk dilini ana dili səviyyəsində bilirdi. "Yeni Fikir" qəzeti onun haqqında yazırdı: "Professor Mesaroş türk dilini o qədər mükəmməl bilir ki, bir Osmanlı türkündən fərqləndirmək çətindir".

Elə həmin il Mesaroş Macarıstan Elmlər Akademiyası tərəfindən Kazan və Simbirsk quberniyalarına elmi ezamiyyətə göndərilir. O, tatar və çuvaş xalqlarının dili, folkloru və etnoqrafiyası ilə bağlı tədqiqatlar aparmış, 1908-ci ilə qədər Volqaboyu bölgəsində çalışaraq zəngin materiallar toplamışdır. Professor Gyula Mesaroş 20 il sonra Bakıda keçirilən I Türkoloji Qurultayda Kazan Universitetindən köhnə dostları – akademik Vasili Bartold və professor Nikolay Aşmarinlə yenidən görüşmüşdür.



*Gyula Mesaroş (soldan 1-ci) qurultay nümayəndələri ilə*

Macar türkoloqu və folklor tədqiqatçısı professor Gyula Mesaroş Anadolu türklərinin mədəni irsini araşdıran fədakar alim kimi Mustafa Kamal Atatürkün diqqətini cəlb etmişdi. Cümhuriyyətin elanından sonra Etnoqrafiya Muzeyinin yaradılması gündəmə gələndə, Türkiyənin təhsil naziri Həmdullah Sübhi Tanrıver onu Ankaraya dəvət etmişdi. Mesaroş 1924-cü ildə muzeyin elmi əsaslarının hazırlanmasında iştirak etmiş və bu sahədə hesabat hazırlamışdı. O, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultaya Türkiyə Etnoqrafiya Muzeyinin yaradıcısı kimi qatılmışdı.



*Ankara Etnoqrafiya Muzeyi*

Qurultayda Mesaroşun əsas məruzəsi türk xalqlarının ortaq dil prinsipləri, fonetik və morfoloji paralellər mövzusunda idi. O, türk xalqlarının dilləri arasında qarşılıqlı anlaşma imkanlarını, xüsusilə latın qrafikalı əlifbaya keçidin elmi əsaslarını dəstəkləmiş və bu prosesi Avropa elminin mütərəqqi addımı kimi qiymətləndirmişdir. O, həmçinin macar dilində türkcə leksik təbəqələrin mənşəyini araşdıraraq, Macarıstanın qədim türk köklərinə dair elmi faktlar irəli sürmüşdür.

Birinci Türkoloji Qurultayda professor Aleksandr Miller, Bəkir Çobanzadə, Artur Zifeldt və digər alimlər macar türkoloqu Gyula Mesaroşun elmi xidmətlərini yüksək qiymətləndirmişlər. Professor Aleksandr Samoyloviç də çıxışında onun başqırd dili və ümumtürk dillərinin tədqiqindəki əvəzsiz rolunu xüsusi vurğulamışdı.

Mesaroş 1957-ci ilin yanvar ayında Nyu-York şəhərində vəfat etmişdir. Professor Asif Rüstəmli yazır ki, vətəndən uzaqlarda, 1957-ci ilin soyuq yanvar ayında Nyu-York şəhərində dünyasını dəyişən professor Mesaroş uzun illər I Türkoloji Qurultayın sonrakı taleyini, dostlarının və həmkarlarının Sovetlər Birliyində başlarına gətirilən müsibətləri, məşəqqətləri ürək ağrısı ilə izləmişdir.

Onun elmi irsi bu gün də Macarıstan və Türk dünyasında türkologiyanın inkişafına töhfə verməkdədir. Gyula Mesaroşun elmi fəaliyyəti türkoloji tədqiqatlarda Macar elminin öncül mövqeyini möhkəmləndirmiş, onun əsərləri türk xalqlarının dil və mədəniyyət tarixinin öyrənilməsində mühüm mənbəyə çevrilmişdir. Gyula Mesaroş – yalnız macar elminin deyil, bütün türk dünyasının dostu, türkologiya elminin beynəlmiləl səviyyədə formalaşmasına xidmət edən dərin zəkalı alimlərdən biri kimi yadda qalmışdır. Bakıda keçirilən Türkoloji Qurultaydakı fəaliyyəti onun adını türk elmi tarixinin ön sıralarına yazmışdır.

***Namiq ƏHMƏDOV***
***XQ***

*Milli kino tariximiz*

# Ölməz ekran əsərləri

*(əvvəli qəzetin 15 noyabr tarixli sayında)*

**Bu il yubileyini qeyd etdiyimiz Azərbaycan filmləri arasında tarixi mövzuda olan ekran işləri də var. XVI əsrə aid "Koroğlu" dastanının motivləri üzrə çəkilmiş film buna gözəl nümunədir. "Koroğlu" kinolentinin artıq 65 yaşı tamam olur.**

Altay, Türkmənistan, Türkiyə və Azərbaycan türklərinin əfsanələrində xalq qəhrəmanı kimi təqdim edilən Koroğlunun obrazı ümumbəşəri önəmə malikdir. Qazandığı şöhrət və ona olan məhəbbət "Azərbaycanfilm"in ərsəyə gətirdiyi filmdə öz bədii ifadəsini bir daha tapıb. Özü də "Koroğlu" kinostudiyamızın tarixi qəhrəmanlıq mövzusunda çəkdiyi ilk genişekranlı rəngli filmdir. Bu faktın özü o dövr üçün Azərbaycan kinematoqrafiyasının yeni bir inkişaf səviyyəsinə çatdığını və müasir kino sənətinin nailiyyətləri əsasında bu cür mürəkkəb bir filmi çəkib meydana çıxarmaq qabiliyyətini göstərirdi. "Koroğlu" həm də Cənubi Qafqaz respublikalarının kino tarixində ilk dəfə olaraq yaradılan sanballı film hesab olunur.

"Koroğlu"nun rejissoru Hüseyn Seyidzadə, ssenari müəllifi Sabit Rəhmandır. Baş rollarda Əfrasiyab Məmmədov (Koroğlu), Leyla Bədirbəyli (Nigar), Ağadadaş Qurbanov (Həsən xan), İsmayıl Dağıstanlı (Vəzir), Mərziyə Davudova (Dayə), Əli Qurbanov (Aşıq Cünun və Alı kişi), Möhsün Sənani (Həmzə) oynayıblar. Filmin ilk baxışı 1960-cı il oktyabrın 10-a təsadüf edib. Bəstəkar Cahangir Cahangirovun film üçün yazdığı musiqiləri kino idarəsinin Simfonik Orkestri ilə Şövkət Ələkbərova və Lütfiyar İmanov ifa edərək ekran əsərinin əzəmətini daha da artırıblar.

Onu da deyək ki, yadelli işğalçılara və yerli zülmkarlara qarşı aparılan mübarizədən bəhs edən "Koroğlu" nə qədər bəyənilsə də, Hüseyn Seyidzadə özü filmdən o qədər də razı qalmayıb. Səbəbi ssenarinin Moskvada əsaslı dəyişikliyə uğraması və rejissorun təzyiqlərə məruz qalması olub. O, sonralar dostlarına deyirmiş: "Koroğlu" istədiyim kimi alınmadı, fikirləşdiyim kimi çəkməyə qoymadılar". Hər bir halda, seyrçilər bu filmi sevə-sevə izləyirdilər. Hər kəsin xəyalında yaratdığı Koroğlunun obrazı varkən, dastan haqqında film çəkmək və qəhrəmanın ruhuna uyğun aktyoru seçmək yaradıcı heyətin əsas hədəfi olub. Filmin sınaq çəkilişlərində 60-dan artıq aktyor iştirak edib.

Maraqlı məqamlardan biri budur ki, rejissorun təşəbbüsü ilə Muxtar Maniyev filmdə 3 rolda oynayıb. Onun xatirələrindən: "Filmi çəkən yaradıcı kollektiv dastandakı qəhrəmanlıq motivlərindən səmərəli istifadə etdi. Müəlliflər tamaşaçılara belə bir fikri təlqin etməyə çalışdılar ki, xalqın qəzəbi kimi, gücü və qüdrəti də tükənməzdir, onun qarşısını almaq, onu qul halına salmaq heç bir qəsbkara nəsib ola bilməz. Filmdə Qırat, misri qılınc, Çənlibel qalası, Aşıq Cununun sazı və s. xalqın birliyindəki qüvvənin rəmzi olub, əsərin ideya məzmununu daha da dərinləşdirir. Filmdə mənə 3 rol həvalə olunmuşdur. Birincisi, çaparların müşayiəti ilə səfir rolunda çəkilən Ələddin Abbasovun at üstündə gəlişi göstərilir ki, oradakı çaparlardan biri mənəm. İkincisi, Əsgəran qalasındakı toy səhnəsində qapıçını oynayan şəxs çəkilişə gəlmədiyi üçün onu mən əvəz etməli oldum. Sonra Dəmirçioğlu Poladın roluna uyğun olan aktyoru tapmadıqları üçün məni sınaq çəkilişində yoxlayaraq rola təsdiq etdilər. Beləcə, filmdə 3 rolda oynadım".






Ötən əsrin 60-cı illərinin mətbuatında verilmiş məlumatlardan aydın olur ki, sınaq çəkilişləri zamanı Koroğlu rolunu məşhur pəhləvan Sali Süleymanın oğlu – güləş üzrə dəfələrlə Bakı və respublika çempionu adını qazanmış Ağakərim Müxtəliyev, Nigar rolunu "Onun böyük ürəyi" filmindən tanıdığımız Tamilla Ağamirova yaratmalı imiş. Sonra fikir dəyişib. Filmin ilk kadrları Bakı ilə Mərəzə arasındakı ərazilərdə çəkilib. Kadrlarda Zaqatala, Qax, Balakən, Kəlbəcər və Göygölün təbii mənzərələrindən lövhələr də var.

Koroğlunun toy səhnəsi, Qıratın qaçırılması, habelə başda Koroğlu olmaqla, Azərbaycan xalqının yerli xanlara, bəylərə, paşalara qarşı apardığı mübarizəsinə aid bir sıra epizodlar Qarabağdakı Əsgəran qalasında çəkilib. Bu zaman 1200-ə qədər atlı və bir çox piyada çəkilişlərə cəlb edilib. Azərbaycanın qızıl laləli dağ yamacları, geniş, yaşıl düzləri filmdə bütün gözəlliyi ilə canlandırılıb.

Onu da qeyd edək ki, 1968-ci ildə qardaş Türkiyədə də "Koroğlu" eposu əsasında eyniadlı tarixi-bioqrafik bədii film çəkilib. Ayşe Şasanın ssenari müəllifi, Mehdud Ünün quruluşçu rejissor, Gani Turanlının operator olduğu həmin filmdə baş rolları Güneyt Arkın (Ruşen Ali–Koroğlu), Fatma Girik (Hüsnübala–Gülzar), Hayati Hamzaoğlu (Bolu Bəy), Zafer Karakaş (Eyvaz) ifa ediblər.

İlk Azərbaycan televiziya bədii filmi olan "Aygün" də 65 yaşındadır. Öncə unudulmaz Xalq şairimiz Səməd Vurğunun eyniadlı poemasının əsasında radio-tamaşa hazırlanması nəzərdə tutulubmuş. Ancaq rejissor Kamil Rüstəmbəyov "Aygün"ün ssenarisi üzrə bədii televiziya filmi çəkməyi qərara alıb. Bəstəkar Zakir Bağırov filmə musiqi bəstələyib.

Film–poemanın çəkilişləri çox çətin, ağır şəraitdə keçib. Çünki o vaxtlar televiziyaya bədii filmlərin yaradılması üçün vəsait ayrılmırdı və orada kino çəkilişi texnikası yox idi. Amma çəkiliş qrupunda əsərin ekranlaşdırılması arzusu yüksək idi deyə, bu iş fədakarcasına yerinə yetirilib.

"Aygün"də hadisələr əsasən təzəcə ailə qurmuş iki gəncin münasibəti və taleyi ətrafında cərəyan edir. Filmdə əsas rolları Nəcibə Məlikova, Həsənağa Salayev və Rəna Topçubaşova ifa edirlər. Hadisələr şeir dili ilə təqdim olunur. Əslində, filmin maraqlı, canlı çıxmasında da başlıca rol oynayan o idi ki, şeir dili ilə tamaşaçıya çatdırılırdı. Tələbkar rejissor kimi tanınan Kamil Rüstəmbəyov çəkiliş prosesində aktyorlardan tələb edib ki, hər bir kadrda səslənən şeirləri hadisələrə uyğun ruhda, özü də əzbərdən ifa etsinlər. Filmin çəkilişində iştirak edən aktyorlar özləri də etiraf ediblər ki, filmin şeir dili ilə çəkilməsi məsuliyyətli olduğu qədər də, zövqverici olub. Bu baxımdan da hər hansı bir çətinlik hiss etməyiblər.

...Əsərin baş qəhrəmanları Aygünlə Əmirxan xoşbəxt cütlük idilər. Amma Əmirxanın içkiyə qurşanması onların ailəsini parçalayır. Aygün (N.Məlikova), Əmirxan (H.Salayev) və onların qızı Ülkər (R.Topçubaşova) xeyli əzab çəkirlər. Sonda Əmirxanın içkinin daşını atması və karyerasında nailiyyətlər qazanması sayəsində onlar yenidən birləşirlər.

Hər biri yaddaş oyadan, xatirələrlə zəngin olan ekran əsərlərinin yubileyləri ilə əlaqədar "səyahət"imiz beləcə davam edir. Çox istərdik ki, yenə də Azərbaycanda baxımlı, ibrətli, replikaları, dialoqları dillər əzbərinə çevrilən filmlər çəkilsin.

**(ardı var)**

***Ə.DOSTƏLİ***
***XQ***

*Biz deməsək...*

# Qulaqcıqların "səfası" və "cəfası"

*Yaxud heyranlıqdan qurbanlığa aparan "dostluq"*

**Hər gün küçədə, avtobusda, metroda, demək olar ki, hər yerdə qulaqcıq taxmış, yüksək səslə musiqi dinləyən insanlarla qarşılaşırıq. Digər diqqətçəkən cəhət isə onların çoxunun uşaqlar və gənclər olmasıdır. Qulaqcıqdan istifadə edən həmin şəxslər ətraf aləmdən təcrid olunmuş kimi görünür, gözlərindəki ifadə məstlikdən xəbər verir. Bir anlıq adama elə gəlir ki, sən başqa aləmdə yaşayırsan, onların isə öz dünyası var. Üstəlik, musiqiyə o qədər yüksək səs verirlər ki, ətrafdakılar da eşidir. Ağla belə bir sual gəlir: "Görəsən, bu qulaqbatıran səs bunları yormur?".**



Ən ağrılı məsələ nəqliyyatın sıx olduğu yerlərdə qulaqcıqdan istifadənin qəzalarla nəticələnməsidir. Buna səbəb ya sürücünün, ya da piyadanın qulaqcıq vasitəsilə yüksək səslə musiqi dinləməsi, diqqəti itirməsidir. Hər iki halda səsin yüksəkliyi, səsləndirilən musiqi, sanki gözləri qapayır, qəza baş verir. Bəs görəsən, bu cihazdan istifadənin insan sağlamlığına və psixologiyasına təsirləri necədir? Ümumiyyətlə, ondan istifadə zamanı nələrə diqqət etməliyik?

**Həkim otolarinqoloq (LOR) Sona Məmmədova bildirdi ki, qulaqcıqlardan müntəzəm istifadə qulaqda geri dönüşü olmayan problemlərə gətirib çıxarır:**



– İnsanın xarici qulaq keçəcəyində xüsusi vəzlər var ki, onlar daim qulaq kiri ifraz edir. Bu da qulağı müxtəlif tozlar, infeksiyalar və həşəratlardan qoruyur. Qulaqcıqdan tez-tez istifadə etdikdə qulaq kiri xaricə çıxa bilmir və qulaq keçəcəyində toplaşaraq tıxac yaradır ki, bu da eşitmənin zəifləməsinə səbəb olur. Bu cihazdan müntəzəm istifadə zamanı yaranan digər problemlərdən biri isə qulağın uzun müddət qapalı qalaraq nəmlənməsidir ki, bu, müxtəlif göbələk infeksiyalarına yol açır. Problemə səbəb olan digər amillərdən biri də qulaqcığın qulağın ölçüsünə uyğun taxılmamasıdır. Belə ki, aləti taxıb çıxırarkən xarici qulaq keçəcəyinin dərisi zədələnir və bu da qulaqda ciddi patalogiyalara səbəb olur.

**Müsahibimiz müntəzəm olaraq yüksək səslə musiqi dinləməyin, hətta karlığa gətirib çıxaracağını da dedi:**

– Qulaqcıqdan müntəzəm istifadənin yaratdığı ən ciddi problem qulaqda cingiltinin əmələ gəlməsidir. Partlayış nəticəsində ani və qısamüddətli şiddətli səslərdə olduğu kimi, yüksəktezlikli səslərə də uzun zaman məruz qalmaq qalıcı eşitmə itkisinə yol açır. Yüksək səslə musiqi dinləmək birbaşa təbil pərdəsinə təsir göstərir ki, bu da daxili qulaqdakı sinirləri və eşitməni təmin edən qulaq hüceyrələrinin zədələnməsi ilə karlığa səbəb olur.

Əvvəllər eşitmə zəifliyinə 60-70 yaş arası şəxslər arasında rast gəlirdiksə, indi bu problemlə bizə müraciət edənlər daha çox gənclərdir. Təəssüf ki, əksər hallarda problemə səbəb gün ərzində saatlarla qulaqcıqdan istifadədir.

**Həkim cihazdan istifadə edərkən gigiyena qaydalarına xüsusi diqqət etməyin vacib olduğunu vurğuladı:**

– Bir qulaqcıqdan bir neçə şəxsin istifadə etməsi düzgün deyil. Bu, infeksiya riskini artırır. Ona görə də bu alətdən fərdi istifadə etmək lazımdır. Hər istifadədən sonra mütləq dezinfeksiyaedici məhlullarla, məsələn, spirtlə təmizlənməlidir.

**Nevropatoloq Əminə İmanova isə qulaqcıqların həddindən artıq istifadəsinin bir çox psixoloji problemlərə səbəb olduğunu söylədi:**



– Qulaqcığa aludə olan insanlar ətraf mühitlə əlaqələrini məhdudlaşdıra, emosional gərginlik hiss edə bilərlər. Onu istifadə edən şəxs sanki tamam başqa, müəyyən mənada mistik, mövcud olmayan, virtual aləmə düşür. Cihazdan davamlı istifadə əksər hallarda əsəblərə mənfi təsir edir, hətta kəskin emosional stres yaradır. Bu isə nəticədə psixi travmalara, depressiyaya səbəb olur. Belə insanların çoxunda qulaqcığa ikili münasibət yaranır. Çünki həm qulaqcıqdan həddən artıq istifadə onları bezdirir, həm də alışdıqları üçün onsuz keçinə bilmirlər. Bir qədər təzadlı görünsə də, belə münasibət insanlarda həm də tənhalıq kompleksi yaradır. Yəni qulaqcıqdan çox istifadə edənlər sosial mühitdən, ətraf aləmdən özlərini təcrid etməyə çalışırlar və getdikcə bu meyil dərinləşir.

**Müsahibimiz yüksək səslə qulaqcıq istifadəsinin qulaq zədələnməsindən tutmuş baş ağrısı, əsəb gərginliyinə qədər müxtəlif sağlamlıq problemlərinə yol açdığını dedi:**

– Uzun müddət qulaqcıqdan istifadə baş nahiyəsində və qulaq kanallarında təzyiq yaratdığı üçün şiddətli ağrılara səbəb olur. Davamlı və yüksək səslə musiqi dinləmə qulaqda tinnitus (qulaqda uğultu) meydana gətirir. Sinirlər zədələndiyi üçün cingildəmə və uğultudan sonra eşitmə itkisi və karlıq meydana gələ bilər. Bundan əlavə, uzunmüddətli istifadə eşitmə həssaslığını azaldaraq fon səslərinə qarşı həssaslığı aşağı salır ki, bu, beyində həm ümumi konsentrasiyaya, həm də zehnə təsir edir.

**Daha sonra həkim qulaqcıqlardan istifadə zamanı əməl etməli olduğumuz gigiyena qaydalarını xatırlatdı:**

– Elə əşyalar var ki, individual istifadə olunmalıdır. Qulaqcıqlar da həmin əşyalar siyahısına aiddir. Ondan bir neçə nəfər istifadə etdikdə tərəflərdən birində qulaq göbələyi və yaxud hansısa infeksiya varsa, digərinə keçmə ehtimalı yüksəkdir. Buna görə də qulaqcıqlar heç kimlə paylaşılmamalıdır. Onlardan istifadə etdikdən sonra kənarları, rezinləri, qulağa daxil olan hissəsi mütləq xüsusi dezinfeksiyaedici məhsullar vasitəsilə təmizlənməlidir. Bundan əlavə, qulaqcıqlar qulaq kanallarını bağladığı üçün təbii havalanmanı məhdudlaşdırır ki, bu da infeksiya riskini artırır. Ona görə də bütün bu zərərləri azaltmaq üçün diqqətli olmağı və qulaqcıqlardan istifadəni minimuma endirməyi tövsiyə edirəm.

**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov qulaqcıq alarkən bir neçə məqama xüsusi diqqət etməyi məsləhət gördü:**



– İstehlakçıların əksəriyyəti qulaqcıq seçərkən adətən onun hansı brendə məxsus olmasına, səs keyfiyyətinə və qiymətinə diqqət edirlər. Hazırda dükanlarda heç bir firmaya aid olmayan qulaqcıqlar satılır ki, onlardan istifadə qulaqlara mənfi təsir edir. Necə ki, keyfiyyətsiz eynək istifadə etmək gözün görmə tonusunu aşağı salır, keyfiyyətsiz qulaqcıq da uzun müddətdən sonra eşitmə qabiliyyətini zəiflədir. Cihazı seçərkən onun harada istifadə edilməsinə, səs ləğvetmə funksiyası və ya əksinə, əhatəli səs rejiminin mövcud olub-olmamasına da diqqət etmək vacibdir.

Əgər qulaqcıq daha çox səs-küylü məkanlarda, nəqliyyatda istifadə ediləcəksə, onun yüksək səviyyəli ANC funksiyasına malik olması lazımdır. Bundan əlavə, qulağın zərər görməməsi üçün cihazın materialının keyfiyyəti və çəkisi də önəmlidir. Bir neçə qulaqcıq növü (tam örtüklü, qulaq içi və ya yarıaçıq) var. Bunlar müntəzəm qulaqcıq istifadəçilərinin rahatlılığını təmin etmək üçün nəzərdə tutulmuşdur.

**Mütəxəssisin sözlərinə görə, problemə səbəb olan amillərdən biri də qulaqcıqların qulağa uyğun seçilməməsidir:**

– Əgər qulaqcıq qulağa uyğun deyilsə, kiçik və ya böyükdürsə, bu da qulaqda fəsadlara səbəb ola bilər. Elə qulaqcıqlar var ki, qulaq kanalının içinə taxılır. İnsanların əksəriyyəti belə modellərə üstünlük verirlər. Lakin uşaqların qulaq kanalları kiçik olduğundan qulağı tam örtən modellər onlar üçün daha təhlükəsizdir. Qulaq pərdəsinə nə qədər yaxından səs verilərsə, qulaqların zədə alması ehtimalı daha çox olur. 1 metrdəki partlayışın səsi ilə 10 metrdən eşidilən partlayışın səsi qulağa necə təsir göstərirsə, qulağın içinə verilən səs də eyni effekt verir.

**Müsahibimiz vurğuladı ki, qulaqcıqla "dostluq" vərdiş halını aldıqda qulaq daha yüksək səs tələb edir:**

– Musiqi hansı yüksəklikdə dinlənilməsindən asılı olmayaraq bir müddət sonra səs qulağa kifayət etmir və yavaş-yavaş yüksəldilir. Təbii ki, bu da qulağa zərərdir. Buna görə də eşitmə problemi ilə qarşılaşmamaq üçün cihazda səs limitinə xüsusi diqqət edilməlidir.

Qeyd edək ki, alimlər gün ərzində qulaqcıqdan aşağı səslə və 1-2 saatdan artıq istifadə olunmamasını məsləhət görürlər. Qulağında və eşitməsində problem olanlara isə, ondan ümumiyyətlə istifadə etməmək tövsiyə olunur. Aparılan araşdırmalar göstərir ki, 85 desibel şiddətindəki səslərə 8 saatdan çox məruz qalan qulaq eşitmə gücünü yarı-yarıya itirir. Bu müddətlər 88 desibel üçün 4, 91 desibel üçün 2 saat, 100 desibel üçün isə 15 dəqiqə şəklində bölünür. Gündə 90 dəqiqədən artıq qulaqcıqla musiqi dinlənilməməlidir. İnsan səsi normal danışıq zamanı 30, qışqırdığı zaman 60 desibel olur. Bunu nəzərə alaraq 60 desibeldən yuxarı musiqi dinləmək məsləhət görülmür. Daxili qulağı narahat edən yüksəklikdə musiqi dinləmək akustik travmalar yarada bilər.

Göründüyü kimi, düzgün istifadə etmədikdə, aludəçi olanda özümüzə "dost" bildiyimiz qulaqcıqlar sonradan "düşmənimiz"ə çevrilir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Vaşinqtonun güzəştli sülh təşəbbüsü

*Kiyev və Moskva anlaşa biləcəkmi?*

**Beynəlxalq ictimaiyyət ABŞ prezidenti Donald Trampın Rusiya və Ukrayna ilə bağlı 28 bənddən ibarət planını müzakirə etməkdə davam edir. Plan müxtəlif dairələrdə ziddiyyətli reaksiyalar doğurub: bir qisim bunu Vaşinqtonun münaqişənin həlli üçün yeni yanaşması kimi qiymətləndirir, digərləri isə sənədin praktiki icrasının nə dərəcədə mümkün olacağı ilə bağlı suallar qaldırır.**



Ukrayna prezidenti Volodimir Zelenski xalqa videogörüşündə planı "ya ləyaqətin, ya əsas tərəfdaşın itirilməsi riski" kimi dəyərləndirərək, ölkənin çox çətin seçim qarşısında qala biləcəyini bildirib.

Rusiya prezidenti Vladimir Putin də Vaşinqtonun təklifini şərh edərək, Moskvanın sənədi aldığını təsdiqləyib. Lakin Avropa İttifaqı və Kiyev sülh planının bir sıra müddəalarından ciddi narahat olduqlarını gizlətmirlər. Bu səbəbdən ötən şənbə Cenevrədə Ukrayna, ABŞ və Avropa ölkələrinin nümayəndələri arasında intensiv danışıqlar keçirilib.

Qərb analitiklərinin fikrincə, 28 bəndlik sənəd Rusiyanın uzun müddətdir irəli sürdüyü tələblərə böyük ölçüdə oxşayır və Ukrayna bu şərtlərin əksəriyyətilə razı deyil. Buna baxmayaraq, prezident Tramp sənədin hələ yekun variant olmadığını bildirib.

Cenevrədə danışıqlara Ukrayna tərəfdən administrasiya rəhbəri Andrey Yermak, ABŞ tərəfindən dövlət katibi Marko Rubio və prezidentin xüsusi nümayəndəsi Stiv Uitkoff qatılıb. Avropanın mövqeyi Böyük Britaniya, Fransa və Almaniyanın təhlükəsizlik müşavirləri, həmçinin Aİ nümayəndəsi tərəfindən təmsil olunub.

Görüşlərin ardıcıllığı Yermakın Avropa rəsmiləri ilə məsləhətləşmələri ilə başlayıb. Daha sonra ABŞ–Ukrayna nümayəndələri arasında görüş keçirilib. Rubio "əhəmiyyətli irəliləyiş" əldə olunduğunu, "yenilənmiş və təkmilləşdirilmiş sülh çərçivə sənədi"nin formalaşdığını bildirib. Bununla belə, ABŞ-ın son tarix kimi göstərdiyi cümə axşamına qədər sənədin tam hazır olmayacağı ehtimalı da istisna edilməyib.

Rubio daha sonra Vaşinqtona qayıdaraq, "hələ görüləsi işlərin qaldığını" deyib. O, texniki müzakirələrin davam etdiriləcəyini və "məqbul zaman kəsiyində" nəticəyə nail olunacağına ümid etdiyini vurğulayıb. Andrey Yermak da "ilk görüşün məhsuldar keçdiyini" və ədalətli, uzunmüddətli sülh istiqamətində irəliləyiş əldə olunduğunu bildirib.

Görüşlərin yekununda tərəflər birgə bəyanat qəbul ediblər. Bəyanatda ABŞ və Ukraynanın "yenilənmiş və təkmilləşdirilmiş" sülh çərçivə sənədi hazırladığı təsdiqlənir. Bununla belə, sənədin ən çox müzakirə olunan hissələri – Ukrayna ordusunun məhdudlaşdırılması və ərazi güzəştləri barədə konkretlik açıqlanmır.

Ağ Evin əlavə bəyanatında planın yenilənmiş variantının Ukraynanın təhlükəsizlik təminatlarını gücləndirdiyi vurğulanır. Kiyevin narahat olduğu əsas məsələlərin "diqqətlə nəzərdən keçirildiyi" qeyd olunsa da, Ukrayna tərəfi bu açıqlamaya münasibət bildirməyib.

Rubio NATO-nun roluna dair məsələlərin də hələ tam razılaşdırılmadığını bildirib. Onun sözlərinə görə, tərəflər sənədi bənd-bənd gözdən keçirir, ziddiyyətləri yumşaldır və hər iki paytaxt üçün qəbul edilə bilən variantlara yaxınlaşırlar.

"Reuters"in məlumatına görə, Zelenskinin yaxın günlərdə Vaşinqtona səfər edərək Tramp ilə sülh planının ən həssas məqamlarını – xüsusilə ərazi məsələlərini – müzakirə edə biləcəyi ehtimal edilir. Lakin səfərin tarixi hələ dəqiqləşməyib.

Bu arada Tramp planla bağlı bəzi tənqidi qeydlər etsə də, sonradan ABŞ administrasiyası Cenevrədə əldə olunan irəliləyişin prezident tərəfindən müsbət qarşılandığını bildirib.

Avropa dövlətlərinin alternativ planla çıxış etdiyi barədə məlumatlar da yayılıb. "Reuters"in iddiasına görə, Avropa versiyasında Ukrayna ordusunun sayının 800 minlə məhdudlaşdırılması nəzərdə tutulur (ABŞ planında 600 min). ABŞ layihəsi, həmçinin Ukraynanın NATO üzvlüyündən imtina etməsini, bəzi ərazilərdən geri çəkilməsini və cəbhə xəttinin müəyyən hissələrdə dondurulmasını nəzərdə tutur. Əvəzində Kiyev "etibarlı təhlükəsizlik zəmanətləri" almalıdır.

Bütün bu proseslərin hamını qane edən sonluqla nəticələnib-nəticələnməyəcəyi isə hələ də açıqdır. Son olaraq, ABŞ prezidenti Tramp sosial şəbəkəsində yazıb: "Rusiya və Ukrayna arasında əhəmiyyətli irəliləyiş mümkündürmü? Görənə qədər inanmayın, amma görünür, nəsə yaxşı bir şey baş verir".

Bizə isə proseslərin sonunu gözləmək qalır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Azərbaycan Turizm və Menecment Universiteti**

*kafedra müdiri vəzifələrini tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**Humanitar və sosial elmlər kafedrası üzrə - 1 yer**
**Mehmanxana və restoran işi kafedrası üzrə - 1 yer**
**Menecment kafedrası üzrə - 1 yer**

Elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) sənədlər saat 10:00-17:00 arası Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir. Sənədlər hr@atmu.edu.az e-mail ünvanı vasitəsilə elektron qaydada da qəbul edilir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

**1.** Rektorun adına ərizə
**2.** Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə)
**3.** Tərcümeyi-hal
**4.** Şəxsiyyət vəsiqəsinin surəti
**5.** Profilə uyğun olaraq ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiqlənmiş surətləri
**6.** Elmi və elmi-metodiki işlərin siyahısı
**7.** Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Müsabiqə elan edilən müəssisədə çalışan namizədlərdən isə yalnız aşağıdakı sənədlər tələb olunur:

**1.** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri
**2.** Elmi və elmi-metodiki işlərin siyahısı
**3.** Kafedra müdirinin (namizədin) müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Telefon: 564-42-33 (daxili-115).**
**Ünvan: Bakı şəhəri, AZ1072, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103-cü otaq.**

Qeyd: namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

***Rek ǝ luq***

"Azərbaycan Sənaye Sığorta" ASC səhmdarlarının nəzərinə!

26 dekabr 2025-ci il saat 16:00-da "Azərbaycan Sənaye Sığorta" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı "Azərbaycan Sənaye Sığorta" ASC-nin Bakı şəhəri, Səbail rayonu, Həsən Seyidbəyli küçəsi 122 nömrəli ünvanda, "Gümüş Plaza" iş mərkəzində keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**
**1.** "Azərbaycan Sənaye Sığorta" ASC-nin 2026-cı il üzrə büdcə planının müzakirəsi və təsdiq edilməsi barədə.

***"Azərbaycan Sənaye Sığorta" ASC-nin idarə heyəti***

**"Binəqədi İTD" ASC səhmdarlarının nəzərinə!**

"Binəqədi İTD" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 15 yanvar 2026-cı il saat 11:00-da, Abşeron rayonu, Şamaxı şosesi 46 nömrəli ünvanda, cəmiyyətə məxsus istehsalat sahəsində keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**
**1.** 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyəti haqqında idarə heyətinin hesabatının müzakirəsi və təsdiqi.
**2.** Təşkilati məsələlər–müşahidə şurasının seçilməsi, idarə heyəti sədrinin seçilməsi və maliyyə-təftiş komissiyasının seçilməsi.
**3.** Maliyyə çətinlikləri ilə əlaqədar cəmiyyətə məxsus əmlakın özgəninkiləşdirilməsi məsələsinin müzakirəsi və müvafiq qərarın qəbul edilməsi.
**4.** Cəmiyyətin idarə heyəti sədrinin səlahiyyətlərinin genişləndirilməsi, əmlakın satılması və digər zəruri məsələlər üzrə qərarların qəbul edilməsi.
**Əlaqə nömrəsi:** +994 - 50 - 350 - 08 - 48.
**Mehman İbrahimov, direktorlar şurasının sədri.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 249 (30943) 25 noyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Qadın şahmatçılarımız Dünya 1-cisidir

**17 - 24 noyabr tarixlərində İspaniyanın Linares şəhərində keçirilən qadın şahmatçılardan ibarət komandalar arasında Dünya çempionatına yekun vurulub.**



Finala qədər bütün rəqiblərinə qalib gələn Azərbaycan millisi son qarşılaşmada FIDE komandası ilə görüşüb. Hər iki oyunda FIDE komandası qalib gəlib (3:1; 2,5:1,5).

Beləliklə, Azərbaycan komandası tarixində ilk dəfə dünya çempionatında ikinci yeri tutub.

Birinci lövhədə çıxış edən Avropa çempionu Ülviyyə Fətəliyeva 10 partiyada 6 xal toplamaqla bütün şahmatçıları qabaqlayaraq qızıl medala layiq görülüb.

Qeyd edək ki, dünya çempionatında Azərbaycan komandasını Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Xanım Balacayeva və Ayan Allahverdiyeva təmsil edib. Kapitan İlahə Qədimova, məşqçilər Nicat Abasov və Qədir Hüseynov olub.

### "Qarabağ" liderliyini qoruyub

**Ötən həftə futbol üzrə Misli Premyer Liqasında XII turun oyunları keçirilib.**



Turun son oyun günündə "Sabah" evdə "Şamaxı"nı qəbul edib. Görüşdə qapılara qol vurulmayıb – 0:0. Digər oyunda isə "Neftçi" öz meydanında "İmişli" ilə qarşılaşıb. Gərgin keçən oyun qonaqların xeyrinə başa çatıb – 2:3.

Turun əvvəlki qarşılaşmalarında "Kəpəz" "Karvan-Yevlax"a 2:1, "Qarabağ" "Sumqayıt"a 4:2, "Zirə" "Qəbələ"yə 1:0 hesabı ilə qalib gəlib, "Araz-Naxçıvan" – "Turan Tovuz" matçında isə qalib müəyyənləşməyib – 1:1.

Beləliklə, 11 oyundan 26 xal toplayan "Qarabağ" turnir cədvəlinə başçılıq edir. 12 oyundan 23 xal toplayan "Turan Tovuz" və "Zirə" müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşürlər. Sonuncu yerləri isə 5 xal toplayan "Qəbələ" və "Karvan-Yevlax" komandaları tutur.

### Sabah Qış Olimpiya Oyunları başlanır

**İtaliyada keçiriləcək 2026-cı ilin Qış Olimpiya Oyunlarının rəsmi Olimpiya məşəlinin alovlanması mərasimi gözlənilən pis hava şəraiti səbəbindən 26 noyabrda Qədim Olimpiya Arxeologiya Muzeyində qapalı məkanda keçiriləcək. Bu barədə Yunanıstanın Milli Olimpiya Komitəsinin (MOK) yaydığı məlumatda bildirilir ki, bütün iştirakçıların təhlükəsizliyini təmin etmək üçün bu addım zəruri hesab edilib.**



İlkin məlumata görə, Olimpiya məşəlinin alovlandırılması mərasimində Yunanıstan Prezidenti Konstantinos Tasulas, Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Kirsti Koventri, Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsinin prezidenti Covanni Malaqo, Yunanıstan MOK-un prezidenti İsidoros Kuvelos və Qədim Olimpiya şəhərinin meri Aristidis Panaytopoulos iştirak edəcəklər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Yola davam*

# "Köhlən atlar"ın Neapol səfəri

*Stadio Maradona arenasından gözləntimiz*

**Kifayət qədər uzun çəkən 3 həftəlik ayrılıqdan sonra UEFA Çempionlar Liqasının əsas mərhələsi yenidən stadionlara və evlərimizə qayıdır. Avropanın ən güclü 36 klubu Liqa yolunda çıxışlarını davam etdirməyə hazırdır. Kimi məsafənin birinci yarısında özü üçün yaratdığı yaxşı xal ehtiyatı və daha işıqlı gələcəyə böyük ümidlərlə, kimi də nəyin bahasına olursa-olsun, finişə ən yaxşı 24 komanda sırasında çatmaq əzmi ilə.**




Azərbaycanın sevimlisi "Qarabağ" birincilər sırasında olmaqla ölkəyə gözəl günlər yaşadır. Komanda ilk 4 görüşdə 50 faizli nəticədən də yüksək göstəriciyə nail olub, 7 xalla ümumi turnir cədvəlində 15-ci mövqedədir. Göz dəyməsin, yaxşı zəmin yaradılıb. İndi həlledici əhəmiyyət kəsb edəcək qalan turların da sınağından şərəflə çıxıb, əldə olunmuş uğuru bir qədər də artıraraq, onu finişdə "24-lüyün" tələb edəcəyi həddə çatdırmaq gərəkdir.



Ölkə çempionumuz çətin yolun ikinci yarısına bir vaxtlar İtaliyanın Neapol şəhərinin "Napoli" klubunun da şərəfini qorumuş, onunla birlikdə iki dəfə ölkə çempionu olmuş dünya futbolunun argentinalı əfsanəsinin adını daşıyan və tribunaları 55 minə qədər tamaşaçı tutan "Stadio Dieqo Armando Maradona" arenasında başlayır. Ağdam komandasının Liqa turnirində sayca beşinci rəqibi bu stadionun sahibi "Napoli" klubudur.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovdan fərqli olaraq, onun "Napoli"dəki həmkarı Antonio Konte, yəqin ki, komandasının bugünkü oyunadək göstərdiyi nəticədən razı deyil. Hərçənd onun başçılıq etdiyi klub hazırda turnir cədvəlində 4 xalla xilasedici 24-cü pillədədir. Finişdə pley-off görüşlərinə sonuncu vəsiqə məhz həmin yerin sahibinə veriləcək. Cədvəldən də göründüyü kimi, 22-ci və 23-cü yerlərdə qərar tutmuş Belçikanın "Brügge" və Almaniyanın "Ayntraxt" komandaları da neapollular kimi 4 xal toplayıblar.

Azarkeşləri komandamızın uğurlarına öz qələbələri kimi ürəkdən sevinib, onun inanılmaz, fantastik qalibiyyətindən əsl zövq alan "Qalatasaray"ın da çıxışları, həmişəki kimi, ölkəmizdə diqqət mərkəzindədir. İstanbul klubu turnir cədvəlində Azərbaycandakı pərəstişkarlarına xoş anlar yaşadan mövqedə inamla irəliləyir: 4 görüşdən sonra 9 xalla 9-cu yer. Yəni qardaş komanda səkkizdəbir finala birbaşa vəsiqə qazandıran 8-ci pillənin bir addımlığındadır. Ümid edək ki, bundan sonra da onun üçün hər şey yaxşı olacaq.

Respublikamızın futbol ictimaiyyəti Neapol matçından sonra çempionlar yolunun mülayim noyabr məsafəsi ilə də vidalaşıb, soyuq qış sınaqlarını daha böyük həyəcanla gözləməyə başlayacaq. Azarkeşlər Bakı vaxtı ilə gecəyarısı başa çatacaq bugünkü oyunun necə nəticələnəcəyindən asılı olmayaraq, elə indidən dekabrın 10-da paytaxtımızda keçiriləcək "Ayaks"la görüşə bilet haqqında düşünürlər. Növbəti mərhələyə aparan yolda Amsterdam klubu ilə oyun təqvimin hökmü ilə Azərbaycan futbolunun əfsanəsi Anatoli Banişevskinin anım gününə təsadüf edəcək. Həyatla 1997-ci il dekabrın 10-da vidalaşmış Anatoli Andreyeviç artıq 28 ildir ki, əbədiyyətə qovuşub. Niderland futbolçuları ilə görüş də onun bir-birindən gözəl qollar vurub, ürəkdən alqışlandığı Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək. Ruhu şad olsun!

ABŞ, Kanada və Meksikada 23-cü Dünya çempionatı ilə əlamətdar olacaq 2026-cı ilin start ayında – müvafiq surətdə yanvarın 21-də və 28-də Ağdam komandası Bakıda "Ayntraxt"ı (Frankfurt, Almaniya) qəbul edəcək və Liverpulda (İngiltərə) eyniadlı klubun qonağı olacaq. Bunu xatırlamaqla onu demək istəyirəm ki, mundial ili həm də Avropada "Qarabağ"ın da iştirakçısı olduğu Çempionlar Liqasının əsas mərhələsinin görüşləri ilə yadda qalacaq.

Şübhə etmirik, bunun naminə "Qarabağ" yolun ikinci yarısında da adət etdiyi şəkildə – Leandro Andradenin çox sevdiyi 1-ci dəqiqədən hakimin final işarəsinədək yorulmadan, inamla, ilhamla mübarizə aparmağa var gücü ilə, böyük həvəslə hazırlaşıb.

Futbolda hər hansı yarışda–istər daxili turnirlərdə, istərsə də beynəlxalq meydanda hamı həmişə öz komandasının oyununa hakim təyinatını maraqla gözləyir. İki gün əvvəl UEFA elan etdi: "Napoli"–"Qarabağ" görüşünü başda Şimon Marçinyak olmaqla polşalı hakimlər briqadası idarə edəcək.

Oyun üçün bizim azarkeşlərə 2480 bilet ayrıldığını da diqqətə çatdırıb, qeydlərimizi onlara 90 dəqiqəlik ağır mübarizədən sonra tribunaları xoş əhvalla tərk etmək arzusu ilə yekunlaşdıraq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Təbii loğman, çox dərdə dərman

*Arıçı fermer Hikmət Əliyevlə bal kimi söhbət*



**Ana təbiətin insanlara bəxş etdiyi əvəzsiz nemət olan balın hikməti haqqında çox yazılıb. Bal həqiqətən möcüzə – min bir dərdin dərmanıdır.**

Ancaq biz bu yazıda təkcə balın hikmətindən yox, həm də Hikmətin balından söhbət açmaq istəyirik. Söhbət yaşadığı Biləsuvar rayonunun Amankənd kəndində deyil, bütün bölgədə məşhur arıçı kimi tanınan fermer Hikmət Əliyevdən gedir.

Yaşadığı kənddəki həyətyanı sahədə halal zəhməti ilə möcüzə yaradan bu ailənin işgüzarlığına, zəhmətsevərliyinə qibtə etməmək olmur. Ailə başçısı Hikmət söhbət zamanı bildirir ki, arıçılıqla məşğul olmağa başladığı vaxtdan 25 il ötür. Sübhün gözü açılandan gün batana kimi ailənin bütün üzvləri onlara firavan həyat, gün-güzəran və dolanışıq qazandıran arı ailələrinə qulluq edir, necə deyərlər, onların nazı ilə oynayırlar. Çəkdikləri zəhmət isə öz bəhrəsini verir.

Muğan düzündə əhali əsasən əkin-biçin, heyvandarlıqla məşğul olur. "Bəs siz necə oldu ki, arıçılıq peşəsini seçdiniz" sualına cavabında Hikmət deyir:

- Məndə bu marağı dünyasını dəyişmiş anam yaradıb. O vaxt cəmi üç-dörd pətək arımız var idi. Anam boş vaxtlarını bağçamızda, arı pətəklərinin yanında keçirirdi. Mən də hərdən gedib tamaşa edirdim. Bir dəfə anam gözləmədiyim halda "görürəm çox marağın var. Bəlkə bir arı ailəsi verim, özün məşğul olasan, – dedi. İnanın ki, sevincimdən qanadım olsaydı uçardım...

O gündən arıçı oldum, – deyə Hikmət gülümsəyir. Anamın bu xeyirxahlığı gələcək həyat yolumu müəyyənləşdirdi, – deyə söhbətinə davam edir. Xeyirxah insanlar hər zaman olub, bu gün də var. İndi mən özüm də bu işə marağı olanlara köməyimi əsirgəmirəm.

Hikmətgilin bağçasındayam. Bağça müxtəlif meyvə ağacları, gül-çiçək kolları ilə doludur. Arıların "öz işlərini" görmələri üçün gözəl şərait var. Yaz-yay fəslində əsl cənnət olur. Səliqə ilə düzülmüş arı pətəkləri göz oxşayır. Hikmət sayı 120-ni keçmiş bu pətəklərin hər birində nə qədər arı olduğunu bilir. Arılar da sanki bu zəhmətkeş insanın gündəlik hərarətini duyurlar.

- Çox maraqlı işdir. Ayrılmaq olmur. Mən də, ailə üzvlərimiz də bu işə çoxdan alışıb. Ailə üzvlərimdən müxtəlif peşənin sahibləri olanlar var. Amma hər birinin ikinci peşəsi arıçılıqdır. Oğlum Xilqətin ilk illərdə on pətək arı ailəsi vardı. Hazırda sayı otuzu keçir.

- İndi saxta balçılar da peyda olub. Ancaq əsl təbii, ətirli, gül-çiçəkdən çəkilmiş bal gözəl nemətdir, – deyə oğul Xilqət söhbətə qoşulur:

- Düzü hərdən mənə elə gəlir ki, bu işlə məşğul olmasaydıq, həyatımızda nə isə bir boşluq yaranardı. Çoxlarına bəlkə də asan görünən arıçılığın da öz çətinlikləri var. Bu işlə ötəri məşğul olmaq nəticə vermir. Süfrələrimizin bəzəyi olan əsl bal yemək istəyirsənsə, gərək özünü bu işə həsr edəsən.

Əliyevlər ailəsi kənddə ziyalı ailəsi kimi tanınır. 8 nəfərlik bu ailənin hər biri bu işdən zövq alır. Axı, ağız dadını dəyişmək istəyənlər, müalicə adı ilə təmiz bal axtaranlar tez-tez bu qapıya üz tutur və razı halda geri dönürlər.

Peşəkar arıçılar, bu sahəyə bələd olanlar yaxşı bilirlər. Pətəkləri açıb aylarla damla-damla toplanmış məhsulu təkcə götürməklə iş bitmir. Təbii ki, söhbət üç-beş kiloqramlıq məhsuldan getmir. Hikmət də şəxsi həyətində əsl emalatxana yaradıb. Hazır məhsul burada bir neçə prosesdən keçir. Əvvəlcə toplanmış balı süzən aqreqat işə düşür. Sonra isə balı və mumunu bir-birindən ayıran aqreqat davam etdirir. Digər aqreqatda ayrılmış mum əridilib sıxılır, təmizi əldə olunur. Bütün bu işləri Hikmət övladlarının köməyi ilə həyata keçirir. Özü də bu işdən zövq ala-ala.



Arıçı fermer Hikmət daha sonra deyir ki, təsərrüfatı ilbəil genişlənir. Fəsildən asılı olaraq pətəkləri gəzdirir, daha əlverişli yerlərə qoyur. Bu məqsədlə qonşu rayonların ərazilərində əlverişli sahələr seçilir. Torpaqlarımız işğaldan azad olunandan sonra bəhrəli Qarabağ torpaqlarına da üz tutub. Hazırda Xocavənd rayonunun ərazisində də arı pətəkləri var. Oraların gözəl təbiəti arıçılıq üçün çox əlverişlidir.

Peşəkar arıçı, fermer kimi tanınan Hikmət bizə indiyədək iştirak etdiyi yarmarkalardan yadigar olan fotoşəkilləri, layiq görüldüyü fəxri fərmanları, sertifikatları göstərir. Onların isə sayı bir deyil, iki deyil – yüzlərlədir. Hikmət hətta Türkiyə, Rusiya, Ukrayna kimi ölkələrdə keçirilən beynəlxalq yarmarkalarda öz məhsulları ilə iştirak edib. O, bu yarmarkalardan xüsusi sertifikatlarla qayıdıb. IX Azərbaycan Arıçılıq Beynəlxalq Konfransının iştirakçısı olmuş Hikmət Əliyev "Arıçılığın çinarı" adlı mükafata layiq görülüb. 2019-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin təqdimatı əsasında Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Bacarıqlı fermer Hikmət Əliyev Azərbaycan Arıçılar Assosiasiyasının Biləsuvar şöbəsinə rəhbərlik edir. Rayon şöbəsi ətrafında birləşmiş yüzlərlə həvəskar arıçılıqla həvəslə məşğul olurlar.

Hikmətlə görüşümüz onun fermer kimi, İDEA İctimai Birliyinin təşəbbüsü ilə Kəlbəcərdə keçirilən bal Festivalından yenicə qayıtdığı ərəfəyə düşmüşdü. Çox məmnun idi: "Belə tədbirlər biz fermerlərə böyük dəstəkdir, bir-birimizdən çox şey öyrənirik..."

Bu zəhmətkeş ailə üzvlərinin hər biri ilə bal kimi şirin söhbətdən ayrılmaq olmur. Ancaq hərənin öz işi, öz qayğıları var. Əsl halal zəhməti özlərinə həyat yolu seçmiş bu ziyalı ailədən, bal qoxuyan həyət-bacadan minnətdarlıq hissi ilə ayrılırıq...

*Müşfiq MİRZƏ*
*XQ*

✓ *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Şəki-Zaqatala regional bölməsinin "İnzibati xəta haqqında" MN seriyalı, 1929990 nömrəli protokolu itdiyi üçün etibarsız sayılır.*

✓ *2024-cü il iyulun 2-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən İsmayılov Teymur Zahir oğlunun adına verilmiş şəhid ailəsi üzvünün 012203 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *"28 Resdince" MMC tərəfindən Atakişiyev Rafiq Məhərrəm oğlunun adına verilmiş (21 dekabr 2024-cü il, 020 /Y nömrəli müqavilə) maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.*

## HAVA

# Bakıda yağmursuz, bəzi rayonlarda dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 10-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85 faiz, gündüz 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10, gündüz 17-21, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00